MAHİR QABİLOĞLU

CƏNCƏHİM

CƏNCƏHİM

MAHİR QABİLOĞLU

MAHİR QABİLOĞLU

CƏNCƏHİM

ROMAN

BAKI - 2014

Redaktoru:
Eldəniz Elgün

Bədii tərtibçi:
Azər Aydın

Korrektor:
Mahmud Qəzənfəroğlu

Mahir Qabiloğlu. Cəncəhim. (roman)

Bakı, "Bakı Çap Evi" nəşriyyatı, 2014, 224 səh.

İSBN

© Mahir İmamverdiyev, 2014

A T A M

X A L Q Ş A İ R İ

QABİLİN XATİRƏSİNƏ

CƏNCƏHİM

Göyün yeddinci qatı. Hava əla. Nə külək var, nə yağış. Nə dolu yağır, nə də qar. Qıl körpüsünə bir cığır uzanır. Ölü insan selinin sonu görsənmir. Artıq elektron tablolar quraşdırılıb. Qırmızı tabloda "Cənnətdə yer yoxdur", yaşıl tabloda isə "Cəhənnəmdə yerlər limitsizdir" sözləri yazılıb. Ölüləri sakitləşdirmək olmur. Dörd aydır ki, rəhmətə gedən, öz növbəsini gözləyən azərbaycanlı jurnalist dilə gəlir:

- Necə yəni "yer yoxdur!"? Hanı İnkir-Minkir? Bu nə haqsızlıqdır? Nə sorğu-sual edirlər, nə haqq-hesab çəkirlər. Elə deyirlər ki, istəsən də budur, istəməsən də... Yaxşısansa da cəhənnəmliksən, pissən də. Bu nə deməkdir? Axı, bura haqq dünyasıdır. Fani dünya - zaddır ki, "xiyar" yeyək? Qurban olum fani dünyaya. Birinci polis tutub üç gün, bir həftə çək-çevir edirdi. Verirdi müstəntiqə. O da sonra ötürürdü

prokurorluğa. Prokuror "kaznitləyəndən" sonra işi verirdi məhkəməyə. "Dejurnı" bir vəkil də təyin edib basırdılar türməyə.

Bu dəm başqa mərhumlar da giley-güzara başlayır:

- Çox qəribə işdir e... Bir ailənin beş üzvünü - anamı, atanı, qızını və iki nəvəni öldürəsən, sənə hələ bir vəkil də verirlər ki, müdafiə elə. Bizdən uzaq, - qulaqlarını çəkir.

- Ömrü boyu qoyun kimi yaşadım, qonşunun toyuğuna kiş də demədim. Xruşşovkadakı iki otaqlı mənzilimdən yuxarı da qalxmadım. Kartoşkanı ət adıyla uşaqlara sırıdım. Təmiz adımı qorudum. Axırı da bu? "Cənnətdə yer yoxdur!" Yoxdur? Onda əlavə "raskladuşka"lar qoyun.

- A kişi, bura sənin çün 4 nömrəli "Kəndçi bolnitsası"- zaddır ki, sanitarkanın cibinə pul basasan, dəhlizdə əlavə yer düzəldə? Günaha batarsan a...belə danışma.

- Elə ona görə də bu günə düşmüşəm də... Elə hey "hərəkət etmək" istəyirdim, biri deyirdi ki, günaha batarsan, o biri deyirdi haram yemə. Mən də yerimdə saydım. Uşaq-muşaq da ucqar kəndlərdən gəlib oldu vəzifə, pul, mal-dövlət yiyəsi. Biri var idi... Atası buna bir "şestsot" Mersedes bağışlamışdı. Çəkdi nəşəni, vurdu iynəni, oturdu rula, getdi girdi "Kamaz"ın altına. Dünən də gəldi burdan qıl körpüdən keçmədi e... "Mersedes"iylə zmeyka yaza-yaza soxuldu cənnətə.

- Ola bilməz?

- Necə yəni ola bilməz. Öz gözümlə gördüm.

- Pah atonnan. Onda lətifə düz imiş ki...

- Nə lətifə... Axmaq-axmaq danışma. Allaha acıq gedər.

- Hacı Vasim adlı dostum danışıb mənə. Günlərin bir günü bir müsəlman bir yəhudini girləyir ki, döysün. Bəhanə axtarır. Sual verir ki, ay Abram, o düzdür ki, sizin kitabda yazılıb ki, biz müsəlmanlar öləndə cəhənnəmə gedəcəyik, siz cuhudlar cənnətə? Yəhudi də qorxusundan deyir ki, "yox. Siz müsəlmanlar hamınız cənnətə gedəcəksiniz". Müsəlman görür ki, bəhanəsi kəsilir, bir dənə də sual verir: - Yaxşı biz cənnətə gedəcəyik, onda bəs siz cuhudlar hara gedəcəksiniz? Yəhudi də özünü alçaltmayaraq "biz də cənnətin hasarının dibində bir yer tapıb, çömbəlib oturarıq da". Bunu eşidən müsəlman Abrama bir yumruq vurur, o da kəllə-mayallaq olur: "Köppək uşağı, bəs onda biz atımızı, ulağımızı hara bağlayacağıq?"

- Pay atonnan, bu Hacı Vasim nə ağıllı adammış ə... Yəqin bu anekdotu məclisdə-zadda danışıb. Xod gedənlərdən kimsə eşidib. İndi Cənnəti də pis günə qoyacaqlar. Gərək yeni dayanacaqlar, körpülər tikilsin. Probkalar da öz yerində. Amma kef çəkəcəklər a... QAİ yox, polis yox... İnsan alverinə qarşı mübarizə yox... Qaqaşlar üçün mələkələr, maskalar üçün neqr mələklər.

- Onda day denən düz ediblər də. Bizim üçün elə cəhənnəm yaxşıdır. Fani dünyadan onların əlindən qaçmışıq. Burda da bizimki bir yerdə tutmaz. Öz aramızdı, cəhənnəmdəki ifritələr də pis deyillər a...

- Gic-gic danışma!

- Vallah! Qonşumuzda bir qəşəng qadın vardı. Atam ona ilişib getmişdi. Anam da adını ifritə qoymuşdu. Düzünü desəm, atamda taqsır yox idi. Yanmış qəşəng şey idi.

- Fikir verin, heç kim gözə dəymir. İnkir-Minkir də yoxdur.

- O gün ağlaya-ağlaya başlarını götürüb qaçdılar.

- Niyə?

- Biri üzlərinə durdu ki, "bu nə ayrı-seçkilikdir? Siz insan hüquqlarını pozursunuz? Gender proqramına zidd gedirsiniz. Hamı üçün eyni şərait yaradılmalıdır. Belə edirsiniz ki, heç kim öz xoşuyla ölmək istəmir də... Gedir həkimlərə milyonlarla pul xərcləyir. Orasını dəyişdirir, burasını kəsdirir. Yaxşı şərait yaratsanız, belə olmaz... Hamı can atar bura. Özü də ki, sən kimsən. Mən İnkir-Minkir tanımıram. Dərdimizi Allaha deyəcəyik. O dünyada Avropa Məhkəməsini, bu dünyada Allahı deyib gəlmişik, vəssalam".

- Belə də dedi, hə?

- Bəs İnkir-Minkir nə cavab verdi?

- Dedilər ki, siz azərbaycanlılar heç dəyişməmisiniz. Əvvəllər Leninin Movzoleydəki qəbriylə

qorxuzurdunuz bizi, indi isə Avropa Məhkəməsiylə. Bizimkilər isə susmayaraq qabaqlarına bundan da tutarlı arqumentlər qoydular. İnkir-Minkir də faktlar qarşısında tab gətirməyib qaçdılar.

- Bunu istəmirdik? Əsl demokratiyadır da... İnsan, fikirazadlıqlarıdır da... Bunlara görə beynəlxalq təşkilatlar illər boyu qanımızı sormadılarmı? Neftimizi, qazımızı daşımadılarmı? Azərbaycanlıları bir-birinə qarşı qoymadılarmı? Öz mənfur işlərində biz kasıbları alətə çevirmədilərmi? Öz hesabatlarında iri "quş qoymaq" xatirinə, təzyiqlərinin daha da güclü olması üçün bizləri türmələrə saldırıb inlətmədilərmi?

- Nə demokratiya, nə insan fikir və azadlıqları? Buraları da yavaş-yavaş "Azadlıq meydanı"na döndərirsiniz. Qalmışıq o dünyayla bu dünya arasında. Adam kimi ölə də bilmirik. İmkan verin kişilər sorğu-suallarını etsinlər də... Yorulmuşam artıq. Lap cəhənnəm olsun. Qaynar tiyanda çimməyin, rahatlanmağın başqa ləzzəti var. O qədər qaynar olur ki, çirk öz-özünə axır. Heç kisələnməyə də ehtiyac qalmır. Çirk axmır e... o qədər günahın olur ki, moment çirkə çıxırsan.

- İndi neyləyəcəyik?

- Heç nə. İşimiz fırığdır. Geriyə də ki, yol yox. Heç məni gözləyən də yoxdur. Beş il idi ki, paralicdim. Canları qurtarıb. Təzəcə sidik-nəcis iyindən qurtulublar. Hara qəbul edəcəklər. Bir də ki, Cəlil Məmmədquluzadənin "Ölülər" əsərini oxumusan da...

- Cəlil Məmmədquluzadə demişkən. Görəsən harda olar indi?

- Əlbəttə ki, cəhənnəmdə. Mirzə Fətəli Axundovun yanında.

- Hə də... O boyda Şeyx Nəsrullahı biabır elədi. Dini ələ saldı. Elə yeri cəhənnəmlikdi.

- Ay rəhmətliyin oğlu, Şeyx Nəsrullaha görə yox e, "Danabaş kəndinin əhvalatları"na görə. Deyirlər ki, kişi cənnətdəymiş. Bu ağ "şestsot"u olan var e... cənnətə girən kimi axtarıb tapıb onu. Az qalıb ki, üstündən keçsin. O da qorxusundan qaçıb girib cəhənnəmə. Orda da hərarət yüksəkdir axı, maşın girə bilmir, pokrışkaları əriyə bilər.

- Əcəb eləyib "ağ şestsotlu" oğlan. Deyirlər ki, o bölgədə yedinka kənddir e... Heç kim bacarmır onlarla. Hətta V... (ağzını əliylə tutur)

- Lap reklama oxşadı e... "Ən yedinka kənd".

- Bəsdirin də onun-bunun qıybətini elədiz ... Yox bir "ən baxımlı kanal". Öz dərdinizi çəkin... Nə vaxtacan ayaqlarımız göydə qalacaq. Bizə bir yiyə duran olacaq, ya yox?

- YOX!

Jurnalist və mərhumlar İnkir-Minkiri görən kimi səslərini kəsirlər. Onların gözlərində yaş gilələrini görcək, daha danışa bilmirlər. Ümidləri bu dünyaya, İnkir-Minkirin mərhəmətinə idi. Son ümidləri də puça

çıxmışdı. İnkir-Minkir də ağlayırdısa day onlardan danışmağa dəyməzdi.

Beləcə İnkir-Minkir masalarının arxasına keçirlər. Solda Cənnətin, sağda isə Cəhənnəmin qapıları görünür. Artıq bir ildir ki, cəhənnəmin qapıları taybatay açıqdır. Qır tiyanı pıqqapıq qaynayır. Günahkarların iniltisi aləmi götürüb. Cənnətin qapısından isə qıfıl asılıb. Gülüş, musiqi səsləri aydın gəlir. Bu səslər cəhənnəmdən gələn iniltiyə qarışdıqca öz hökm saatını gözləyən mərhumların tükləri ürpəşir. Fani dünyada etdikləri günahlar bir-bir göz önündən keçir. Jurnalist də xəyala dalır: Görəsən haqq dünyasında axırım necə olacaq? Deməli, varlılar, vəzifəlilər burda da xod gedirlər...hə? Bəzən İnkir-Minkirin hökmünü də gözləmirlər, eləmi? Fani dünyada həmişə gözəl yaşadıqlarını, haqq dünyasında da bu həyata layiq olduqlarını dəlil-sübutla əsaslandırırlar. İnkir-Minkirə çox da izah vermirlər. Bircə "İnkir-Minkir, bizim Azərbaycanda belə bir məsəl var. Varlı olmaq yox, kasıb olmaq bağışlanmaz günah- qəbahət sayılır" desələr bəs edir. Deməli, mən jurnalist də ömrü boyu günah içində yaşamışam... hə?

Dörd aydır qıl körpüsündə növbədəyəm. Hamısını müşahidə edirəm. Amma yaza bilmirəm. Fani dünyada heç olmasa ürəyimi boşaldırdım. Nə olsun ki, döyürdülər, söyürdülər, qazamata basırdılar, qələmimi sındırıb gözümə soxurdular. Amma ki, ləzzət edirdi.

Əməyimin məhsulunu bu formada görürdüm. Oxum ünvanına dəymiş sayılırdı. Burda isə hər şeyi görürəm, amma yaza bilmirəm. Qalmışam partlaya-partlaya. Yanımdakılar da mənim kimi yoluq ölülərdir. Birini deyəndə onlar yüzünü gətirirlər. Ölüblər deyə azadlığa çıxıblar, demokratiya qazanıblar. Nə ürəklərinə gəlirsə dillərindədir. Amma heç kim onları vecinə də almır. Çünki insan deyillər. Sadəcə ölüdürlər. Mən də ölüyəm onlar kimi. Fani dünyada qələmimi sındırıb gözümə, ora-burama soxurdular. Haqq dünyasında isə qələmimi özüm sındırıb atmışam. Çünki burda mənim qələmimə ehtiyac da yoxdur. Hər şey əyandır. Lakin vəzifəlilər, varlılar burda da əvvəlki amplualarındadırlar. Deyirlər ki, fani dünyada Allahın sevimli qullarından, dövlət qulluqçularından olmuşuq. Belə olmasaydı varı, dövləti bizə nəsib eləməzdi ki... Bunu əsas gətirərək fani dünyada olanlarını haqq dünyasında da tələb edirlər. Bəs biz nəyi tələb edək – Xruşşovka binadakı ikiotaqlı mənzilimizi? Əsla! Güclə canımızı qurtarmışıq ondan.

Vay onda ki, varlı qohumlar "qruppovoy" ölə. İnkir-Minkiri divara dirəyirlər ki, bizə ayrıca kotec ver. Bunlar da ki, hey and-aman eləyirlər ki, bəs bura sizinçün Yer kürəsi deyil. Başa düşmürlər ki, düşmürlər. Arqumentlər o qədər güclü olur ki, İnkir-Minkir qarşılığında söz tapa bilmir.

O gün bir ailə yol qəzasında ölüb. Toydan çıxıb evə gedirlərmiş. Kişi də dəm imiş. Körpüdən aşıb. Arvadı, bacısı, anası, özü, iki uşağı ölüb. İndi İnkir-Minkir buna deyir ki, araq içməsəydin, belə də olmazdı. Sənin günahın böyükdür, yəni ki, cəhənnəmliksən. Anan, bacın, arvadın, iki qızın isə cənnətə gedəcək. Kişi bunu eşitcək İnkir-Minkiri saldı təpiyinin altına: "Nə? Siz istəyirsiniz ki, mənim ailəm orada lüt mələklərlə keyf eləsin, mən də buna dözüm? Qeyrətim bunu qəbul eləməz. Ay İnkir-Minkir, siz axı hardan biləsiniz ki, qeyrət nədir, namus nə?" deyib cənnətin qapısını açıb ailəsindən qabaq girdi içəri. İnkir-Minkir də ağızlarını açıb bir söz də deyə bilmədilər. Nə desinlər? Kişi onları "neprav" çıxartmışdı. Bir də ki, o kişidə taqsır yoxdur. Fani dünyada cənnəti elə qələmə veriblər ki, adı gələndə "priton" yada düşür.

Məsələn, keyf məclisindən qayıdan belə danışır: "Yedik-içdik. Sonra da zəng elədik masyalara. Biri bu tərəfimdə, biri o tərəfimdə" Axırda da əlavə edir: "Cənnətə düşmüşdüm e... heyf ki, arvad zəng elədi. Özü də gecə saat 1-də. Nə desə yaxşıdır: "Gələndə çörək alarsan". Səhər saat 4-də gedib evə çıxmışam, qapını açıb nə desə yaxşıdır? "A kişi, adam da səhər saat 4-də evə gələr?" Yandım-tököldüm. Dedim ki, ay köpəyin qızı, kişi səhər saat 4-də bəs hara gedər?"

İndi bu İnkir-Minkir başa düşmür, amma biz elə şeyləri çox görmüşük. Qonşumuz var idi. Oğraşın

biri idi. Məhəllədə sataşmadığı qız-gəlin qalmamışdı. Zorlamaya görə dörd dəfə türmədə yatmışdı. Yenə dərs olmamışdı. İndi bunda başa bax. Qocalıq vaxtında guya bunun ağlı yerinə gəlib. Neyləsə yaxşıdır? Gedib həkimə ki, bəs oramı kəs. Pul da basıb cibinə. Kəsdirdiyi cinsiyyət üzvünü isə qoyub spirt dolu bankaya, bankanı da soyuducuya. 3-4 gündən sonra isə ölüb. İnkir-Minkir də haqq-hesab çəkəndə başlayıblar bunun üzünə etdiyi oğraşlıqları sadalamağa. Utanmaz-utanmaz tumanını çəkib aşağı ki, bəs mən öz cəzamı fani dünyada özüm vermişəm. Kişi üçün ən əziz olan yeri - mənim başıma bu bəlaları gətirən bədən üzvümü kəsdirmişəm. İnkir-Minkir də kişidir axı... buna yazıqları gəldi. Dedilər ki, sən öz cəzanı özün vermisən, kişiyçün bundan ağır nə cəza ola bilər ki?! Get Cənnətə keyf elə. O da girib Cənnətə. Birinci sualı da bu olub: "Keyf elə. Axı nəylə?" Demə, hərif hər şeyi əvvəlcədən fikirləşibmiş. Girib oğlunun yuxusuna. Deyib ki, bəs əmin bu yaxında öləcək. Soyuducuda bir dənə şey qoymuşam, soxarsan əminin yoğun bağırsağına. Mənə çatasıdır. Burda yerinə tikdirəcəyəm.

Doğurdan e... biz azərbaycanlılar çox ağıllı xalq imişik. Mənim isə bütün bunlardan xəbərim olmayıb. Heyif ki, əlim çatmır fani dünyaya. Burdakı xəbərlərlə əla bir sayt yaratmaq olardı. Adını da qoyardım www.qanlıgün.cəncəh.

Hər dəfə bu İnkir-Minkir sual verəndə yanıb-tökülürəm. Bir qram da siyasi savadları yoxdur. Ərəbə, farsa, ləzgiyə və digər xalqlara verdikləri üç sualı biz azərbaycanlılara da ünvanlayırlar:

1. "Öləndə nə işləyirdin?" Axı, sənə nə var nə işləyirdim? Sən soruş necə yaşamışam? Həyatdan kam almışammı? Yoxsa sürünmüşəm?

2. "Özünü taqsırkar sayırsanmı?" A kişi, hansı azərbaycanlı işgəncə, ya da video- sübut görməsə özünü taqsırkar sayar? Qəribə sualdır e...

3. "Səncə yerin haradır? Cənnət, yoxsa Cəhənnəm?" Hansı azərbaycanlı deyər ki, Cəhənnəm. Biz ömrü boyu Cənnətə çatmaq üçün sürünməmişikmi? Aa, deyəsən, növbəm çatır. Axır ki... Deməli, sualları bilirəm. Nə desələr ağızlarından vurmalıyam. Ya da suala sualla cavab verməliyəm ki, çaşdırım. Lazım olsa fani dünya ilə paralellər aparmalıyam. Ən humanist cəmiyyətin məhz Haqq dünyası olduğunu konkret faktlarla əsaslandırmalıyam ki, xoşlarına gəlim.

- Qanlıgül.

- Bəli.

- Gəl irəli. Öləndə nə işləyirdin?

- Ay, İnkir-Minkir, mən o dünyada Allahın sevimli bəndəsi olmuşam. Ona görə də sorğu-sualsız cənnətə düşməliyəm.

- Bah. Bu da təzə çıxdı. Biz bundan soruşuruq ki, nə işləmisən? Cavab verir ki, cənnətə düşməliyəm.

Onu biz bilərik ki, kim cənnətə getməlidir, kim cəhənnəmə. Başa düşdün? Nə qabaqdangəlmişlik edirsən? Bizdən çox bilirsənsə, gəl otur yerimizdə, buralara başçılıq elə. Bir də ki, ay Qanlıgül, deyirsən ki, Allahın sevimli bəndəsi olmusan. Nə verib sənə Allah? Vəzifəmi?

- Yox.
- Var-dövlətmi?
- Yox.
- Firavan, xoşbəxt həyatmı?
- Yox.
- Bəs onda Allahın sevimli bəndəsi olmağını hardan çıxartdın?
- Ay İnkir-Minkir, bəs Ramiq Muxtarın şeirini bilmirsən:

Allah məni öldürmür ki,
Sonra mənsiz darıxacaq.
Pul da verib güldürmür ki,
Deyir hərif quduracaq.

- Boş-boş danışma. Cavablarında məntiqli ol. Ölmüsən e artıq. Allahın sevimli bəndəsi olsaydın, qırx beş yaşında qıymazdı sənə. Yəqin böyük qələtlər qaynatmısan. Eybi yox, hər şeyi ayırd edərik. Öləndə nə işləyirdin?
- Jurnalist.

- Konkret danış.

- Nə konkret deyim? Qəzetdə də işləmişəm, radioda da, televiziyada da. Batırmadığım kol dibi qalmayıb.

- Abırlı danış, qəzetə müsahibə vermirsən. Özünü taqsırkar sayırsanmı?

- Məhkəmə-zaddır bəyəm? Bəsdirin də... Fani dünyada az məhkəmə çəkişmələrinə, türməyə düşdüm? İndi də burda başlayıblar ki, "özünü taqsırkar sayırsan?" Onda mənə vəkil verin. Yupiter, Saturn, Mars və digər planetlərə müraciət qəbul etməliyəm ki, Haqq dünyasında insan hüquq və azadlıqları pozulur, azad sözə yer yoxdur. İkincisidə ki , ay İnkir-Minkir, bu "bəraət" sözünü sizin leksikonunuzdan çıxarıblar məgər? Elə kim gəldi günahkar çıxarırsınız. Fani adlandırdığınız dünyada türməyə basırdılar, burda da hərləyib cəhənnəmə soxmaq istəyirsiniz. Özü də ki, orda hakim bir nəfər idi, onunla da dil tapa bilmədim. Dedi ki, "yox e, tapşırıq belədir. Mənimçün növbəti müddətə hakim seçilməyim əsasdır, yoxsa sənin ədalətli mühakimən? Mən də bilirəm ki, filan vəzifəli korrupsionerdir, rüşvətxordur. Dinmirəm ki... Nə vacib idi ki, qəzetdə durub o boyda kişini biabır etdin. O da iddia qaldırdı. Bu da axırı. İndi ay başıboş jurnalist, sən onun rüşvətxor olmasını sübut edə bilmirsən. Əlində tutmamısan, şəklini çəkməmisən. Amma mən sənin böhtan atmağını həmən sübut edirəm. Çünki qəzet var, yazı var. Adın da ki, maşallah əzəmətli – Qanlıgün".

- Ay jurnalist, bu nə ləqəbdir - Qanlıgül. Gül satmaqla da məşğul olmusan?

- Gül yox! Gün. ləqəb yox, təxəllüs. Qaşınmayan yerdən qaşıyıb o qədər qan çıxarırdım ki, adımı Qanlıgün qoymuşdular.

- Aydın oldu. Bir mənə başa sal. Sizin məhkəmələr necə olur? Yaman ürəkdolusu, fəxrlə danışırsan. Guya ki, yaxşı iş görmüsən? Türməyə düşmüsən də...

- Yox, ay İnkir-Minkir. Mənim həyatımın ən gözəl anları məhkəmələrdə, türmələrdə keçib. Həyatı başa düşmüşəm, təmizlənmişəm, saflaşmışam. Hər dəfə azadlığa çıxanda sanki dünyaya yenidən göz açmışam. Amma heç vaxt həyatı dərindən başa düşməmişəm. Çünki çox qəliz məsələdir. Başa düşdükcə ucalmaqdansa, əksinə, quyunun dibinə gedirsən. Batırsan, qərq olursan, cəmiyyətin çirkinliklərinə uyğunlaşırsan, qaynayıb-qarışırsan, iyrənirsən, özünü öldürmək istəyirsən.

Məhkəməyə düşməyimə gəldikdə isə... Hər dəfə hansısa yüksək vəzifəlinin səni məhkəməyə verməsi jurnalist üçün böyük hadisə sayılır. Deməli, yazdığın məqalə hədəfə dəyib, cızdağını çıxarıb, atasını yandırıb ki, o boyda xərc töküb vəkil tutur, məhkəməyə müraciət edir. Bütün jurnalistlər də səni müdafiəyə dururlar. Adın, şəklin ilk səhifələrdə yazılır. Vəzifəlilərin vəkillərindən isə heç olmaz. "Yedinistvennı ekzemplyar"dırlar. Məhkəmə prosesi boyu məzələnirdim

onlarla. Deyirdim ki, iddianızdakı "şərəf və ləyaqəti alçaltdığına görə 10 min manat ödəsin" yerini çıxarın. Razılaşmırdılar. Dediklərində dururdular. Hakim də neyləsin axı? Hökm çıxarırdı ki, bəs vəzifəlinin şərəf və ləyaqətini alçaltdığına görə 10 min manat pul ödəməliyəm, üstəlik 2-3 il də içəridə yatmalıyam. Mən də içəri girən kimi başlayırdı dostlarım beynəlxalq təşkilatlara müraciətlər yaymağa ki, bəs "jurnalist Qanlıgünü türmədə incidirlər, öldürmək, zəhərləmək istəyirlər. Bütün məsuliyyət onu tutduranın boynundadır və sairə, və ilaxır. Vəzifəli də bu şeylərdən hürküb adam göndərirdi yanıma, cibimə pul basdırırdı, vaxtlı-vaxtında "peredaça"mı, azuqəmi çatdırırdı, mütəmadi ailəmə baş çəkirdi, türmədəki həyat şəraitimi yaxşılaşdırırdı. Sonra da mənim vaxtından tez azadlığa buraxılmağım üçün çalışırdı ki, birdən öz əcəlimlə ölüb eləyərəm – qalar bunun boynunda. Mən də türmədən çıxan kimi bilirsən nə edirdim, ay İnkir-Minkir? Gedirdim düz idarəsinə. İşçilərinin yanında sifətinə "şərəfsiz, ləyaqətsiz" deyirdim. O da çoşur, əsəbləşirdi. Ətrafındakıları özünə şahid seçərək "gördünüz, jurnalist Qanlıgün məni təhqir elədi. Şərəf və ləyaqətimi alçaltdı. Məhkəmədə hamınızı şahid çağıracağam" deyəndə... mən də "ay vəzifəli, sənin şərəf-ləyaqətin var ki? Düz iki il bundan qabaq vəkillərin bu ali insani xüsusiyyətinə 10 min manat qiymət qoydular. Mən də pulumu verib

almışam. Üstəlik iki il də içəridə yatmışam. Deməli, bu ali insani xüsusiyyətin mənimdir. Bu da məhkəmənin qərarı. Etirazın varsa, satışa çıxarıram, 50 min ver qaytarım şərəf-ləyaqətini" deyirdim. O da məcbur olub verir, üstəlik bəraət də alırdım. Ay İnkir-Minkir, bu an üçün iki il türmədə yatmağa dəyər. Elə deyilmi?

- Nəsə, çox qəliz danışdın. Daha çox gopa bənzəyir. İkinci suala cavab ver. Özünü taqsırkar sayırsanmı?

- Yox!

- Əsaslandır.

- İşə düşdük də. Mən də deyirəm ki, niyə bu boyda növbə var. Dörd aydır ölmüşəm, ayaqüstə gözləməkdən dabanlarım da çatlayıb. İndi də danışmağa başlasam üç-dörd gün çəkəcək. Orda da bir şirkət sədri var, barmağını silkələyə-silkələyə qalıb. Deyirdi ki, fani dünyada tutdura bilmədim, bu dünyada səni cəhənnəmə saldırmaq mənə borc olsun. Özü də ki, vəzifəli, varlı-hallı adamdır. İndi cənnətdədir. Söz verib ki, bir-iki günlük komandirovka götürüb gələcək cəhənnəmə. Mənim inləməyimə, sızlamağıma, tiyanda pıqqır-pıqqır qaynamağıma baxıb kayf tutmaq üçün.

- Neyləmisən ki, ona?

- Day, soruş neyləməmişəm? Mənən məhv elədim danqazı. Yuxudan duran kimi, əl-üzünü yumamışdan qabaq tez qəzetləri oxuyurdu ki, görsün onun haqqında bir şey yazmışam, ya yox? Nəşriyyatda işləyən birini tapmışdı ki, haqqında yazı gedəndə əvvəlcədən

xəbər tutsun. Bəlkə qarşısını ala bildi. Əvvəllər qəzeti səhərlər əldə edib oxuyardı, həmən şəkəri qalxardı. Sonralar isə gecə nəşriyyat növbətçisi zəng edəndə ki, bəs sabah sənin haqqında yazı gedir... bədbəxt səhərəcən yata bilmirdi. Şəkərin üstünə yuxusuzluqdan təzyiq, ürək ağrıları da gəlirdi. Qarşısını da ala bilmirdi. Sonra başladı məqalələri gecəylə telefonda oxutdurmağa. Xəbərə görə 100 dollar verirdisə, oxutdurmaq ona 200 dollara başa gəlirdi. Day xəbəri yox idi ki, nəşriyyat növbətçisi də mən özüm olurdum. Məqaləni oxuyanda, telefonun dəstəyindən ah-ufunu eşidəndə ikiqat zövq alırdım. Sonralar day oxutdurmadı. Öyrəşmişdi. Artıq fərq görmürdü. Çünki haqqında tənqidi məqalə olanda qorxudan, olmayanda isə sevincdən şəkəri qalxırdı.

- Axı nədən qorxurdu? Bir parça məqalədən də qorxarlar?

- Ay İnkir-Minkir, məqalə çıxan kimi onu təkcə camaat oxumur. Əlaqədar təşkilatlar da daimi oxucularım idi. Hazır faktlar idi də, verirdim əllərinə. Onlar da gedib yoxlayırdılar, dizin-dizin süründürürdülər, hətta inzibati orqanlarla qorxudurdular. Vəzifəli şəxs də xəyalən gedib bütün türmələri gəzib gəlirdi təzədən otağına. Görürdü ki, yox, kabinet yaxşıdır. Ödəyirdi cəriməsini, əl çəkirdilər. Bircə mən əl çəkmirdim. Nə pul alırdım, nə də yazmağımdan qalırdım.

- Niyə axı?

- Vallah, uzun məsələdir.

- Tələsən yerin var? Qırx beş ildir bu günü gözləmirdinmi? Hər gün gecələr ölüm səksəkəsiylə yatıb, səhər sağ-salamat yuxudan duranda Allaha şükür etmirdinmi? Ömrünün axırlarında ürək ağrılarından partlayıb, hər dəqiqə Əzrayılın gəlişini gözləmirdinmi? Öləndən sonra Cənnətə düşəcəyini ehtimal etmirdinmi? Həmin gündür də... Heç bir nigarançılığın yoxdur, azadsan. Danış, təmizlən. Biz onsuz da nə etdiklərini bilirik, sadəcə izahın ver. Bəlkə haqq qazandırdıq. Fani dünyada vəzifə almadın, bəlkə sənə burda yaxşı vəzifə də verdik. Özü də ömürlük, hörmətli. Sənin kimi prinsipial adamlara burda böyük ehtiyac var. Danış, layiq olsan götürərik səni sıralarımıza.

- Axı növbə var. Vallah söyüş yiyəsi olacağam...

- Danış. Qoy gözləsinlər. Fani dünyada az növbə görüblər? Qoy bir az da burada gözləsinlər. Özü də çoxu intihar edənlərdir. Guya ki, canlarını qurtarıb qaçıblar bura. Elə bil burda bal-zad paylayırlar. Qoy gözləsinlər. Bir də ki, hamısı cənnətə can atır. Orada isə yer yoxdur. Gözləmək istəmirlərsə yolları açıqdır. Çox güzəştə getdik insanlara – cənnət də doldu ağzınacan. Cəhənnəm isə bomboşdur. Getsinlər - qır tiyanı onları gözləyir. Çox isti deyil. Antalyanın, Dubayın qumlu sahillərindəki kimidir. Çimsinlər, qaralsınlar. Və desinlər: Oxxayy! Sənsə danış. Nəsə maraqlı adama oxşayırsan.

- Danışım da... nə deyirəm ki? Ay İnkir-Minkir, mən adi qəzetlərdən birində müxbir işləyirdim. Elə-belə məqalələr yazırdım – şairlərdən, bəstəkarlardan, bir sözlə mədəniyyətdən. Onlar da ki, pul verən deyillər. Maaşa, qonorara bir təhər dolanırdım. İctimai-siyasi proseslərə də maraq göstərirdim. Amma bu mövzulara girişmirdim. Redaksiyamız da "Azərbaycan" nəşriyyatında yerləşirdi. Binanın qonşuluğunda bir çayxana vardı. Müştəriləri əsasən jurnalistlər olurdu. Domino oynayırdıq. Uduzan qutab, araq alırdı. Süfrə arxasında fikir mübadiləsi aparırdıq. Müxtəlif televiziyalarda çalışanlar da bu çayxananın daimi müştəriləriydi. Media aləmində daxildə nə baş verirdisə, çayxanada xəbər tuturduq. Beləcə, günümüzü keçirirdik. Qardaşım da jurnalist idi. Televiziyada çalışırdı.

Günlərin bir günü dostlarla çayxanada oturmuşduq. Gördüm ki, qardaşım içkili, qanıqara vəziyyətdə girdi çayxanaya. Fağırın biriydi. İçkini də güclə tərgitdirmişdim ona. Əvvəl məzəmmət eləmək istədim ki, bəs niyə içmisən. Amma sonra məlum oldu ki, müdiri onu nahaqdan işdən çıxarıb. Təkcə işdən çıxarsaydı, yaxşıydı. Üstəlik hörmətsizlik də edib. Bu da hirsindən gedib bir dənə arağı təkbaşına boşaldıb.Yaman əsəbiləşdim. Amma nə etmək olardı? Müdirdir, özü bilər.

Bir saatdan sonra yaxın tanışım zəng etdi ki, bəs filan televiziyanın rəhbəri qonaqlıqda qürrələnirdi ki, Qanlıgünün qardaşını "belə-belə edib" işdən

qovdum. Hə... bu açıq bir çağırış idi. Məəttəl qaldım ki, qardaşımı işdən çıxarırsansa, day mənim adımı niyə hallandırırsan? Amma üç-dörd nəfərin yanında bu sözləri deməsi mənim intiqam hissimi gücləndirirdi. Ha fikirləşdim ki, nə edim... Hardan başlayım. Axı, əlimdən nə gəlirdi ki? Bircə qələmim vardı. Onu da çirkaba bulaşdırmalıydım. Ta o vaxtacan ki, həmin adamların yanında məndən üzr istəsin. Birinci zəng edib dedim ki, üzr istə. İstəmədi. Beləcə, fakt axtarışına çıxdım.

Faktı necə tapım, nə yazım? Prinsipi yaxşı bilirdim. Çətini bir tənqidi yazının üzə çıxması idi. Ondan sonra faktlar özü axıb gələcəkdi. Nə çox idi şirkət sədrini istəməyənlər. On nəfər tapılacaqdı ki, yerinə göz dikib, yüz nəfərə pislik edib, min nəfərin çörəyini kəsib və s. Təkcə bunlar bəsim idi. Üstəlik də ki, digər televiziyaların rəqabət dedi-qoduları. Amma mənə təkcə yazı kifayət etmirdi. Söz vermişdim ki, onu çökdürəcəyəm. Amma necə? Deməli, fakt toplamaq prinsipini bilirdim. İkinci bir prinsipi həyata keçirmək isə daha çətin idi. Ətrafındakı yaxın, inandığı adamları təmizləməliydim ki, tək qalsın. Bu, onun sonu olmalıydı. Necə ki, Ayaz Mütəllibovun yaxın ətrafını bir vertolyota mindirib məhv elədilər, mən də elə etməliydim. Əlbəttə ki, sivil yolla, öldürmək əlimdən gəlmir. Axı mən jurnalistəm, nəcib peşə sahibiyəm. Xalqın görən gözü, yazan əliyəm. Terrorçu deyiləm...

-Az təriflə özünü. Yaxşı tanıyırıq siz jurnalistləri. Davam elə.

- Nə isə. Başladım televiziya işçiləriylə sıx təmasa. Özüm də bir vaxtlar televiziyonşik olduğumdan məhrəm sayılırdım. Nə gəlirdi danışırdılar yanımda. Günlərin bir günü yaşlı bir adam gəldi çayxanaya. Onu tanıyırdım. Uzun illər arvadıyla televiziyada çalışmışdı. Yanırdı, partlayırdı. Sanki ürəyini boşaltmağa adam axtarırdı. O da mən oldum:

"Ay oğul, həyatımızı qoymuşuq bu televiziyaya. İndiki rəhbərimiz də orda mənim işçim kimi başlayıb əmək fəaliyyətinə. Qəynimlə dostluq elədiyindən mən də, yoldaşım da onu oğlumuz kimi qəbul eləmişik. Bağa gedəndə bizimlə gedirdi. Kasıb, yazıq, tərbiyəli, başıaşağı uşaq idi. O qədər kasıb idilər ki, anası şalvarına yamaq vururdu. Yuyulmaqdan topuğuna qədər qısalmışdı. Ayaqqabısı isə təmir olunmaqdan süzülüb deşilmişdi. Hərdən bağda qəynimlə birlikdə köməyimizə də çatırdı. Torpağı belləyər, ağacları budayardı. Qayıdanda hər ikisinin cibinə pul basırdım ki, gedib pivə içsinlər. Qonoraron da yüksək yazırdım. "Həmişə yaxşılığım keçib" desəm az olar, arvadım qardaşına bərabər tuturdu onu. Vaxt keçdi evləndi. Yaxşı qaynanası vardı. Bir yerdə işləyirdik. Onlar da arxa durdular. Beləcə, ucalmağa başladı. Sonda da gəlib rəhbərimiz oldu. Əmri verilən gün tort alıb işçilərimə şirinlik də payladım. Qurbanlıq boyun olmuşdum

– kəsdirdim. Bir də gördüm ki, yanına çağırıb bizi. Deyir ki, pensionersiniz, işdən uzaqlaşdırıram sizi. Gedin bağınızda dincəlin. Torpağı belləyin, ağacları budayın. Susayanda da pivə için. Soruşdum ki, ay bala, niyə belə deyirsən? Axı, sənə nə pisliyimiz keçib? Cavab verdi ki, hər dəfə sizi görəndə yamaqlı şalvarım, deşik ayaqqabılarım yadıma düşür. Ona görə də birinci sizi işdən çıxarıram. Yeni həyatımda mənim keçmişimi bilən sizlər üçün yer yoxdur". Kişi başına gələnləri danışıb ürəyini boşaltdı. Mən də tez bu faktları kağıza köçürüb, əlavə "bər-bəzək" də verdim.

Səhəri gün "Qınından çıxıb, qınını bəyənməyən tısbağa" adlı məqalə verdim qəzetdə. Bu insanın mənəviyyatca necə alçaq olduğunu göstərdim. Demə, bu rəhbər "bütün köhnələri işdən qovacağam" adıyla digərlərini də məngənəyə salıb alçaldırmış. Onlar da bu məqaləni oxuyub başladılar mənimlə yaxınlığa. Biri dedi ki, bəs şirkətdə gedən təmir işlərindən sonra metallom məntəqələrinə bütün günü dəmir-dümür daşıyırlar. Bu işlərə də rəhbərin yaxın bir qohumu rəhbərlik edir. Pul haqq-hesabına da o baxır. Ertəsi gün bir məqalə verdim ki, bəs qoymayın, şirkətin rəhbəri büdcəni bitirib, indi də dəmir-dümürü yeməyə başlayıb. Yoxlama gəldi. Az qalmışdılar ki, rəhbərin ən yaxın qohumunu bassınlar türməyə. Güc-bəlayla qurtardı yazığı. Sonra da işdən uzaqlaşdırdı ki, birdən ilişib eləyər, biabır olar bütün nəsildə. Beləcə,

dəmir-dümürü də gətirdim burnundan. Həm də əsas, inandığı dayaqlardan birincisini aradan götürdüm.

Səhəri yenə də çayxanadaydım. Gördüm ki, qonşu televiziyalardan biri hey giley-guzar edir. Deyir ki, bəs filan şirkət xarici futbol federasiyalarından birinin yayım hüququnu aldı əlimizdən. Özü də ağlasığmaz dərəcədə pul ödəməklə. Nə pul? Axı xaricdə rüşvət verib nəsə etmək mümkün deyil. Hər şey köçürmə yoluyladır. Nə qədər elədim dəqiq informasiya ala bilmədim. Amma tezbazar qəzetdə bir "xoruz" buraxdım. Yenə də səs çıxmadı. Amma faktım az idi. İnterneti, yazışmanı yaxşı bildiyimdən girdim həmin o federasiyasının saytına. Poçtunu öyrəndim. Yalandan yazdım ki, bəs mən özəl televiziya şirkətinin sədriyəm. Sizin liqaya azərbaycanlı azarkeşlərin böyük marağını nəzərə alaraq oyunlarınızın Azərbaycanda nümayiş hüququnu almaq istəyirik. Onlar da hardan bilsinlər ki, ilanı yuvasından çıxaranın biridir yazan. Rəsmi cavab verdilər: "Sizin bir Azərbaycan özəl televiziya şirkəti bizim liqanın oyunlarının yayım hüququnu yüz min dollara əldə etmişdi. Lakin sonradan daha bir şirkətiniz bu məbləğdən on qat artığını təklif etdiyinə görə biz yayım hüququnu bir illik ona vermişik. Bir ildən sonra yenidən müraciət edin". Bu da fakt. Amma ağlıma da gətirməzdim ki, bu faktla mən üç dovşanı birdən vurmuşdum.

- Necə?

- Ay İnkir-Minkir, birinci, dövlətin pulunu lüzum olmadan göyə sovurduğuna görə şirkətə yoxlama gəldi, çox "tərlətdilər" yazığı. İkincisi, bu məsələni özündən başqa bilən yaxın adamından şübhələnməyə başladı. Xəyanətkar bilib işdən qovdu. Əsas dayaqlarından ikincisini də belə aradan götürdüm. Üçüncüsü də ki, o gündən uzun və sonu bilinməyən bir ova çıxdı. Görəsən, bu məlumatları Qanlıgünə kim ötürüb?

Bu şübhəsi isə onu növbəti, güclü dayaqlarından birindən də mərhum etdi. Qəzetdə "xoruz" buraxdım və ehtimalla həmin adamın adını hallandırdım. Məqalələrdən ağlını itirən rəhbər onu da işdən uzaqlaşdırdı. Əsas dayaqlardan üçüncünü də belə aradan götürdüm. Ay İnkir-Minkir, bayaq dediyim kimi, ilanı yuvasından çıxarmaq qabiliyyətinə malik idim. Günortalar çayxanada otururdum. Axşam isə...

- Ay Qanlıgün, çox çayxana-çayxana deyirsən. Nə görmüşdün ki, orda?

Azərbaycanda kafe, restoran yox idi ki?

- Var idi. Amma Bakıda bütün məsələlər çayxanalarda həll olunur. Vəzifəlilər, varlılar çayxanaya getməyi özlərinə sığışdırmırlar. Əvvəl-əvvəl nahara evə gedirlər, sonralar isə iş yerində xüsusi mətbəx yaradırlar. Bir az əllərinə pul gələndən sonra başlayırlar axtarışa. Ki, onlara lazım olan daha yüksək vəzifəli adam günorta, axşam harda nahar, şam edirsə - o da ora getsin. Bəlkə rastlaşdı, onun da "şot"unu verdi,

daha isti tellər yarandı. Amma başa düşmürdülər ki, vəzifədə dedi-qodusuz fəaliyyət göstərmək üçün çayxana bütün restoranlardan, kafelərdən üstündür.

- Day gop eləmə də...

- Gop nədir. Bəs eşitməmisən? Xalq Cəbhəsi fəaliyyətinə harda başlayıb?

Bulvardakı "Nu, poqodi" çayxanasında. Sovet hökumətini çayxanada yıxdılar. Hakimiyyəti ələ keçirdilər. Pullandılar. Çayxanaları artıq bəyənmədilər. Başladılar kafe-restoranları gəzməyə. Amma başa düşmədilər ki, çayxanadakı yerlərini artıq digərləri tutub. Beləcə də hakimiyyətdən getdilər.

- Yaxşı davam elə, ay ilanı yuvasından çıxaran.

- Həəəə... Gündüzlər çayxanada oturardım. Axşamlar isə televiziyanın mühasibat otaqlarını və kadrlar şöbəsini təmizləyən xadiməylə mazaqlaşırdım. Qonaq edirdim, "Min bir gecə" nağılı oxuyurdum. Əvəzində isə yığdığı zibili ayrıca sellofan torbalarda mənə gətirməyini xahiş edirdim. O da belə edirdi.

- Düz deyirlər e, insan gündə bir təzə söz eşitməsə, qulağı kar olar. Bu da təzə çıxdı? Jurnalist hara, zibil hara?

- Ay İnkir-Minkir, xadiməyə demişdim ki, səhərlər yır-yığış öz yerində, zibil qutularını axşam işdən çıxanda təmizləsin və mənə gətirsin. İşçilərin cırıb atdığı qaralama kağız-kuğuzları bir-birinə yapışdırıb maraqlı faktlar əldə edirdim. Məsələn, demə, on beş

nəfərin işdən çıxarılmasıyla bağlı əmr hazırlanıbmış. Kadrlar şöbəsinin rəisi də tapşırığı özüyçün cızma-qara edib verib makinaçıya. O da yazandan sonra, əlyazmanı tullayıb qutuya. Bu yolla da gəlib düşdü əlimə. Səhər də şirkət rəhbəri qəzeti açıb görür ki, bəs siyahı olduğu kimi çap olunub. O saat kadrlar şöbəsinin rəisindən şübhələnməyə başladı. O da müavininin boynuna ataraq işdən çıxartdırdı. Beləliklə dayaqlardan biri də belə getdi.

- Yox e... çox qəliz danışdın. Başa düşmədim. Bu zibil məsələsi hardan ağlına gəldi? İzah elə.

- Ay İnkir-Minkir, xaricdə bu məsələ çoxdan həllini tapıb. Qaralama kağızları zibilliyə atmamışdan qabaq xüsusi makinalarda xırda-xırda, əriştə kimi doğrayırlar. Bizimkilərin ağılları isə hələ o səviyyəyə çatmayıb. Sizə bir sual verim. Sizcə, Azərbaycanın idarə və müəssisələrində ən mühüm vəzifə hansı sayılır?

- Əlbəttə ki, müdir.

- Yox. Tapmadınız. Əsas vəzifə xadimə və sürücülərdir.

- Çox maraqlıdır. Əsaslandır, Qanlıgün.

- Bax, həkimə gedirsən. Orqanizmdə hər hansı bir bədən üzvünün ağrıdığını deyirsən. Həkim sənə deyir ki, başına baxım, ya boğazını aç deyir? Deyir ki, sabah səhər tezdən ac qarnına gəl, sidik və qan analizi ver. Bununla bütün xəstəliyi, bədəndə gedən gizli prosesləri üzə çıxarır, müalicə edir, dərman yazır. İndi

cəmiyyətin də ac qarını sayılan xadimə və sürücülər işlədikləri yerin hər şeyini yaxşı bilirlər. Müdirdən də yaxşı. Sürücülər cəmiyyətin qanı, xadimələr isə cəmiyyətin sidiyidirlər.

Zibil yeşiyinə duxi qabı atılıb. Deməli, işçiyə kimsə hədiyyə verib. Zibil qutusundan işlənmiş prezervativ tapılır. Deməli, katibə müdirlə gəzir. Katibə ərdədirsə, bu yolla onu şantaj edib, rəisinin bütün addımlarını izlətmək olar. Başa sala bildimmi, ay İnkir-Minkir?

- Nə isə. Siz jurnalistlər dəhşət adammışsınız.

- Bir yaxın adamı da var idi. Yaman xod gedirdi. Gözü ayağının altını görmürdü. Buna da bir quyu qazdım. Bir fahişəni öyrədib saldım dalına. O da içəndən sonra oldu şir. Şirkət sədrini siçan edib qoydu məsxərəyə. Şanlı çıxışının stenoqrammasını çap edib verdik qəzetə. Yaxın adamı ayılmışdı. Amma artıq gec idi. Dördüncü dayaq da belə getdi. Artıq şirkət sədri hər yerdə deyirdi. Mənə nə gəlir, bu yaxınlarımdan gəlir. Həftə səkkiz - mən doqquz da beş-altı adamı işdən çıxarırdı. Bunlar da mənim potensial əlavə informasiya mənbəyimə çevrilirdi. Üstə də gəl maliyyə fırıldaqları. Day nə deyim? Nişangahda bütün deşiklər 10-luqda idi. Bu minvalla davam etdirirdim. Amma günlərin bir günü savaşımı dayandırdım. Bir də onun haqqında bir kəlmə də yazmadım.

- Niyə? İstədiyinə nail oldunmu? Səndən hamının yanında üzr istədimi?

- Yox, sadəcə mən yazdıqca, komissiya komissiyaya calandıqca onun da hörməti artırdı. Hamı da onu gözəl insan, məni isə pis, böhtançı çağırmağa başlamışdı. Mən yazdıqca o da özünə kənardan yeni dayaqlar axtarırdı, tapırdı, güclənirdi, kreslosunda möhkəmlənirdi. Dayaq yox e, dost qazanırdı. Həm pulu artırdı, həm də əlavə pul qazanmaq imkanları. Dairəsi genişlənirdi. Mənim tənqidi yazılarım sayəsində dörd yaxın dayağını itirsə də, kənarda onlardan da güclü otuz arxa qazanmışdı. Çünki verən əli vardı. Mən almırdım, yemirdim, prinsip aparırdım. Amma digərləri belə deyildi. Şirkət rəhbərinə "gözəl insandır" deyirdilər.

- Elə niyə?

- İnkir-Minkir, yadınızda saxlayın. Azərbaycanda pulunu əsirgəməyən, xərcləyən, bir deyəndə iki verən adama "gözəl insan" deyirlər. Bir də ki, təbiətin qanunlarını nəzərə almamışdım. "Bir budağı kəsəndə yerində dördü çıxır" prinsipini.

- Bəs pulu, çevrəsi belə güclüydüsə, niyə səni tutdurmurdu, yaxud da öldürtdürmürdü?

- Çünki yeganə düşməni mən idim. Bir şey olsaydı, ondan biləcəkdilər. Hamıya dost kimi özünü göstərsə də, amma insanlara pataloji nifrəti qüvvəsində qalırdı. Yamaqlı şalvarından, deşik ayaqqabısından, kasıb, yoluq vaxtı insanların ona zillənən həqarət dolu baxışlarından qaynaqlanan pataloji nifrəti. Nə olsun

ki, o öldürtmədi, əvəzində on ildən sonra Əzrail gəlib apardı. Uşaqlarım yetim qaldı. Məndən sonra o da dözmədi.

- Niyə? Əslində sevinməliydi ki, canı qurtardı sənin kimi qaniçəndən.

- Qoymursunuz e, sözümü axıra çatdırım. Gəlib ona çatdırıblar ki, bəs Qanlıgün infarkt olub. Öz əcəliylə ölüb. Bunu eşitcək sevincdən ürəyi tutub. Elə yerindəcə qalıb. Heyf, gör hələ neçə planım var idi. Onun haqqında məhkəmə zalından reportaj hazırlamaq, türməyə "peredaça" aparmaq. Arzularım ürəyimdə qaldı. Həm də başa sala bilmədim ki, adam adamın hissiyyatına toxunmaz. Çətin başa düşəydi, qoyun otaranın biri idi. Büdcəni talamaqdan, pul saymaqdan başqa heç nə bacarmırdı.

- Yaxşı, özfəaliyyətin elə bundan ibarət olub?

- Yox, ay İnkir-Minkir. Bu başlanğıc idi. Bu insana bilirsizmi nə qədər nifrət edirdim? Ona görə yox ki, məni təhqir etmişdi. Səbəb bu deyildi. Onun daxilinə vardıqca, çıxardığı oyunları gördükcə təkcə ona yox, bu qəbil insanlara, vəzifəli, hallı-pullu adamlara qarşı məndə antipatiya yaranırdı. Nifrət, qəzəb desəm, daha doğru səslənər. Artıq insanlıqdan çıxmışdım. Jurnalistliyim də öz məcrasını dəyişmişdi. Yeni macəralar axtarırdım. Qaşınmayan yerdən qaşıyıb-qaşıyıb qan çıxarmaq istəyirdim.

Artıq televiziyalardan birinə işə düzəlmişdim. Tikinti sektorunu mənə vermişdilər ki, süjetlər hazırlayım. Hara zəng vurub, material hazırlamaq istəyirdimsə, tikinti rəhbərləri imtina edirdilər. Tənqidlə hədələsəm belə veclərinə almırdılar. Beləcə, bir müddət davam elədi. İşdə də adımı yarıtmaz qoymuşdular. Axırda hirsləndim. Kameramı götürüb gedib dayandım üçəm 20 mərtəbəli göydələnin qabağında. Tikintisi başa çatmaq üzrəydi. Kameranın dayaq ştatifini elə qurdum ki, kamera bir az maili dayandı. Elə təsəvvür yaranırdı ki, binaları əyri tikiblər, bu saat uçulub dağılacaq. Müdirim də televiziyamıza qarşı tikinti şirkətlərinin laqeydliyindən xəbərdar idi. Materialı isti-isti verdi efirə. Qırğın qopdu, nə qopdu. Bizi saymayan, zənglərimizə cavab belə verməyən tikinti şirkətinin rəhbəri gəldi oturdu qapımızda ki, "nə qədər istəyirsiniz pul sayım, təkzib verin. Evi tikmişəm, mənzilləri də satmışam. Sakinlər gəliblər ki, bəs bizə zay bina lazım deyil. Qaytarın pulumuzu". Mən isə özümü naza qoymuşdum. Müdirlə əvvəlcədən danışdığımız kimi, üstümə qışqırıb "sənə demirəm get çək, təkzib ver" dedikcə, mən də etiraz edirdim. O da "ay filan müəllim. Yerazlar belədir də... Televiziyada heç kim bunlarla bacara bilmir" söyləyirdi. Tikinti rəisi də gedib qohum-əqrabamdan, dost-tanışımdan adam saldırıb məni yola gətirdi. Yüz minnət-sünnətdən sonra gedib təkzib süjetini çəkdim. Dedim ki, ay camaat, ev

düpbədüzdür, sadəcə operator kameranı əyri quraşdırıbmış. Çəkilişimizi bitirib geri qayıtmaq istəyirdik ki, altmış nəfər fəhlə məni əhatəyə aldı. Onlardan biri:

- Ay jurnalist, sənə nə etmişdik ki, bizi çörəksiz qoydun. İndi biz balalarımıza nə deyəcəyik. Hərəmizin də bir çətən külfəti, - dedi.

- Axı, kimin ixtiyarı nədir ki, sizi işdən qova. Müdiriniz də bax burda. Heç kim sizi işdən qova bilməz, - deyə üzümü tikinti rəisinə çevirdim. O da:

- Qanlıgün müəllim, mən heç kimi işdən qovmamışam. Sizin süjetdən sonra əlaqədar təşkilatlardan gəlib tikintini dayandırdılar. Mənə də sizin faş etdiyiniz, amma olmayan nöqsanlarımı aradan qaldırmağı tapşırdılar. Mənzil, obyekt alanlar da bu yandan gəlib pullarını geri götürdülər. Mən artıq müflisəm. Fəhlələrin də maaşını verməyə pulum yoxdur. Həm də ki, binanı "əyri" tikiblər. Tutduracağam onları!

Yerimdə donub qalmışdım. Özüm kasıb yaşayırdım. Ona görə də fəhlələri yaxşı başa düşürdüm. Mən guya ki, tikinti rəisinə laqeydliyinə, saymazlığına görə dərs vermək istəmişdim. Amma əvəzində... Mən kasıb-kusubun çörəyini kəsmişdim. Bir anlıq yerimdə qurudum. Heç bir cavab verə bilmədim. Televiziyaya qayıdıb süjeti efirə verdim. Və bir daha tikintilərə çəkilişə getmədim.

- Qanlıgün, sonra? Fani dünyada başqa nə işlər gəlib başına?

- Ay İnkir-Minkir, sonra televiziyadan ayrılıb qəzetə qayıtdım. Çayxana yenidən oylağıma çevrildi. Domino oynayıb, çay içirdim. Xırda məqalələr yazırdım. Cibimdə də siçanlar gəzirdi. Aqressiyam artırdı. Kiməsə pislik etmək, vəzifəli, varlı adamları tənqid edib hirsimi soyutmaq istəyirdim. Yaxın həmkarlardan biri dedi ki, bəs bir yüksək vəzifəlinin ailə həyatı ilə bağlı əlində tutarlı dəlillər var. Elə bil çiçəyim çırtladı. Əlindən qapıb redaksiyaya qayıtdım. Bir qəzet səhifəsi material hazırladım. Şəkliylə manşetə çıxartdım. Adını da "Əxlaqsız qızıyla bacarmır, bizə moizə oxuyur" qoydum. Səhəri gün qəzet çıxdı. Amma səs-küy qopmadı. Qulağım səsdə idi. Amma heç bir əks-səda yox idi. Beləcə, on gün, iyirmi gün keçdi. Növbəti günlərdən birində yenə çayxanada oturmuşdum. Gödəkçəmi də çıxarıb stulun başına salmışdım. Hərdən həyətə çıxıb telefonla danışır, siqaret çəkib yenidən stola qayıdırdım. Bu dəm içəri polislər daxil oldu.

- Qanlıgün müəllim?

- Bəli.

- Bizə etibarlı mənbələrdən daxil olan məlumata görə siz narkotik, uyuşdurucu istifadə edirsiniz.

- Nə?

- Anaşa çəkirsiniz.

- Nə anaşa, mən ancaq siqaret çəkirəm. Bəlkə deyəsiniz ki, narkotik alveri də edirəm?

- Yox. Məhz çəkirsiniz. Siz narkomansınız.

- Bunu hardan çıxartdınız.

- Nə olar. Yoxlayarıq, görərik.

Polislər hal şahidlərinin iştirakıyla ciblərimi stolun üstünə boşaltdırdılar. Gödəkçəmin yan cibindən kibrit qutusu çıxdı. Açıb içindəki otu stolun üstünə boşaldanda...

- Bu, mənim deyil. Xəbərim yoxdur bundan, - dedim.

- Neçə ildir polisdəyəm. Bir dəfə də olsun eşitməmişəm ki, kimsə nəşəxor olmasını boynuna alsın. Gedək, şöbədə aydınlaşdırarıq.

Hörmət əlaməti olaraq əlimə qandal vurmadılar. Qoluma girib maşına əyləşdirdilər. İdarəyə gətirib faktı aktlaşdırdılar. Nə qədər and-aman elədimsə inanmadılar. Qanımdan analiz götürdülər. Analiz də sübut etdi ki, demə, nəşəxormuşam. Saldılar kameraya. Axı bu nə demək idi? Anlaya bilmirdim. Kameranın divarları üstümə gəlirdi. Qaranlıq idi. Amma gözümə yuxu getmirdi. Görəsən, nəşəni cibimə kim atmışdı? Polisi kim çağırmışdı? Mənimlə domino oynayan jurnalist dostlarımmı? İnanmaram. Polislərmi? Qətiyyən. Orda polis nə gəzirdi ki? Hamısı özümüzünkülər idi. Bir də ki, qanımda bu zəhirmar necə tapıldı? Nə qədər edirdimsə məni içimdən ovan suallara cavab tapa bilmirdim. Səhəri gün müstəntiq gəldi. Məcəllənin maddələriylə tanış etdi. Onu da sual atəşinə tutdum. O da "Polisin sənlə bağlı heç bir qərəzi

yoxdur. Nəşə sənin cibindən çıxıb, şahidlər də bunu təsdiq edib. Yəqin düşmənlərin var da... Yaxşı fikirləş. İki-üç il vaxtın olacaq. Bir də ki, analiz də onu təsdiq edir ki, nəşəxorsan" dedi. Yazdığım məqalələri, çəkdiyim süjetləri bir-bir göz önündə canlandırdım.

- Tapdım, cənab müstəntiq. Bu, qızı qəhbə olan o oğraş Sadığın işidir. Susdu, susdu, ara soyuyandan sonra hücuma keçdi. Hiss eləmişdim ki, bu sükutda nəsə bir əmma olacaq. Tapdım. Odur.

- Kimi deyirsən? Sadıq müəllimi? Qızı qəhbədir? Boş-boş danışma. Onun heç qızı yoxdur. İki oğlu var. Biznesmendirlər.

- Nə? Qızı yoxdur?

- Yox. Mən onun ailəsini yaxşı tanıyıram.

Məni soyuq tər basdı. Belə çıxır ki, bu boyda kişiyə böhtan atmışam? Üstəlik ona "oğraş" damğası da vurmuşam? Deməli, jurnalist həmkarım məni zərbə altında qoyub? Təsadüfdənmi, yoxsa bilə-bilə? Nə isə, ay İnkir-Minkir, üç il iş kəsdilər getdim çala-çala. Türmədə də ki, iş yox, güc yox. Başladım məhkumlarla dərdləşməyə. Birinci məni sorğu-siala tutdular.

- Jurnalistəm, şərləyiblər. Vəzifəlilər, varlılar haqqında açıq, tənqidi yazılar verdiyimə görə cibimə nəşə atıb tutdurublar.

- Nəşəni polislər cibinə atıb?

- Yox.

- Dünya, dağıl. Axır ki, bir nəfər tapıldı ki, polisləri günahlandırmadı. Ay jurnalist, biz belə şeyləri çox görmüşük. Əgər bu işdə polisləri günahlandırmırsansa, deməli, nəsə pis bir iş tutmusan. Yaxşı jurnalist olsaydın, həqiqət yazsaydın nəşəni cibinə... Deməli, şərçisən, böhtançısan. Hə, tutaq ki, yazdın bu vəzifəli, varlı adamlardan, sonu nə oldu?

- Heç nə, görmürsünüz nə oldu? Türməyə düşdüm.

- Bunu bilirik. Onlara nə etdin? Bunu soruşuruq? Vəzifədən çıxartdılarmı?

- Yox.

- Həbs etdilərmi?

- Yox.

- Var-dövlətlərini əlindən alıb dilənçi gününə saldılarmı?

- Yox. Əksinə. Allah ruzularını artıra-artıra, hər şey qaydasında davam edirdi.

- İndi sən yoluğ jurnalist Allahdan çox biləcəksən? Niyə sənin ruzunu bol eləmir, amma onların başından tökür? Çünki boş-boş danışanı Allah da sevmir. Atalar sözü də var: "Kasıbdan Allah da bezardır". Adı nə idi, o vəzifəli, varlı adamın?

- Neyləyirsiniz ki?

- Necə yəni neyləyirik? Biz boş-boş danışmağı sevmərik. Bayırdakı uşaqlara xəbər verəcəyəm, gedib talan eləsinlər onu. Paylasınlar kasıb-kusuba. Bəlkə

bizə də Koroğlu kimi gələcəkdə şəhərin mərkəzində heykəl qoyalar.

- Demirəm. Mən işverən-zadam sizinçün?

- Qəzetdə yazanda, komissiyaları uc-uca düzəndə işverənlik sayılmır, bizə deyəndə... Onda sox içinə, otur yerində. Az danış. Bura sənin çün bayır deyil. Burda namus-qeyrət üstündə adam öldürənlər, varlıların var-dövlətini talan edənlər, düzü-haqqı yazanlar kişi sayılır, sənin kimi boşboğazlar yox.

Ay İnkir-Minkir, ilk dərsimi belə aldım. Jurnalist fəaliyyətimin üstünə bir xaç çəkmişdim. Düzün desəm "jurnalistəm" deməyə xəcalət çəkiridim. Hərəsi bir şey üstündə düşmüşdülər ora. Amma onlardan birinin həyat hekayəsi mənə böyük dərs oldu. Köhnə bakılılardan idi.

Məhlələrinə qaçqın rayonların birindən ailə köçüb. Demə, bunların kəndlərində də "oğraş" sözü dillərinin əzbəriymiş. Balaca uşaqlarını qucaqlarına götürüb "ay, oğraş, ay oğraş" deyə əzizləyərmişlər. Bakılılarda isə bu söz ən pis söyüşlərdən biri yox, birincisi sayılır. Anası, bacısı, arvadı qəhbə olana oğraş deyərlər. Günlərin bir günü bu rayonlu bakılının yanından keçəndə mehribancasına "Salam. Ay oğraş, necəsən?" deyə hal-əhval tutub. O da "oğraş sənsən, sənin nəslindir" deyərək çıxarıb bıçağı soxub qarnına. O da yerindəcə keçinib. Tutub on iki il iş veriblər. Deməli, bir sözə görə türmədə on iki il yatanlar varmış, xəbərim

yoxmuş. Aman Allah, deməli, mən yenə yaxşı qurtarmışam. O boyda vəzifəli, varlı-hallı insanı, özü də qızı olmaya-olmaya oğraş çıxarmışam, qəzetimdə bütün Azərbaycana car çəkmişəm, digər müxalif mətbu orqan və saytlar da istinad edərək bütün ölkəyə yayıblar. Bütün bunlara baxmayaraq, bir kəlmə də ağır söz deməyib mənə. Vicdan əzabı məni boğurdu.

Amma neyləməliydim ki? Üç ilimi yatmalıydım. Özü də ki, etmədiyim cinayətə görə. Taqsırım olsaydı, çox da yandırmazdı məni.

Burda hər cür tale vardı. Çox qəribəydi ki, bayırdakı kimi qapalı deyildilər. Danışmağa, ürəklərini boşaltmağa meylli idilər. Heç nədən qorxmurdular. Açıq danışırdılar. Çünki həyatlarının müəyyən hissəsinə artıq qiymət verilmişdi. Kimisinə beş, kimisinə on, kimisinə də on beş il. Ən aşağı qiymət mənimki idi – "3".

Bir-iki aydan sonra həbsxanaya yeni məhbuslar gətirildi. Biri çox tanış idi. Aaa, bu ki, Şoran rayonunun icra başçısıdır. Nə yaman arıqlayıb. Lap skeletə oxşayır. Bunlar belədir də... Vəzifədə olanda piylənirlər, çıxan kimi başlayırlar əriməyə. O, nə əcəb düşüb bura? İnkir-Minkir, gözümə elə bil işıq gəldi. Vəzifəli adam görmüşdüm axı... Nə kaznitləyəcəyəm bunu. Neyləyə bilər ki, mənə? Artıq vəzifəsi yoxdur. Lap istəyirsən dalına təpik vur. Durub qoyun kimi üzümə baxacaq. Day qışqıra bilməyəcək ki, "ay prokuror, ay

polis rəisi, tutun bu oğraşı, basın qoduqluğa". Gör necə sakit, yazıq-yazıq baxır? Elə bil bütün rayon camaatının "qəssab Gülmalı" çağırdığı adam deyil.

- Salam, Gülmalı müəllim. Sən hara, bura hara? Nə xoş təsadüf. Gözlərimə inanmadım. Tarix yazmısan e, tarix. Sən Azərbaycanda ilk icra başçısısan ki, türməyə düşmüsən. Bunu bilirsənmi? Yox, heç vaxt inanmaram ki, icra başçılığına görə səni bura salalar. Səndən də beşbetərləri, qaniçənləri var. Gül kimi işləyirlər özləriyçün. Nəsə burda başqa bir şey var.

- Yox, dövlət əmlakını talamaq, korrupsiya üstündə həbs etdilər məni - haqq da etdilər.

- Day mənə yox da. Maddən bu ola bilər. Amma səbəb yox. Bir mənim sifətimə bax... Loxa oxşayıram? Ya qulaqlarım eşşək qulağı kimi uzundur? Get onları özünə de. Sən canın, danış görüm niyə damladılar səni?

- Sən Allah, yadıma salma. Xatırlayanda tüklərim biz-biz durur. O gündən yeməyə də həsrət qalmışam.

- Yeməyə, yoxsa kababa? Yaxşı öyümə, öyümə. Kabab vermədim ki, öyüyürsən. Adın çəkdim də...

- Adını da çəkmə. Ümumiyyətlə, yemək adı çəkmə, ürəyim bulanır.

- Düz deyirsən. Səhər-səhər kabab nədir e... dedim. Xaş, kəllə-paça. Yanında sirkə-sarmısaq, dənələnmiş nar, boyat təndir çörəyi, yüz qram da zoğal arağı. Bax, səhərin yeməyi budur.

İnkir-Minkir, bunu demişdim ki, Gülmalı müəllim başladı öyüməyə. Birtəhər sakitləşdirdik. Əl-üzünə su vurduq. Özünə gələndən sonra bir də yaxınlaşdım.

- Yaxşı, Gülmalı müəllim, yemək adı çəkmərəm day. Amma məni başa sal görüm işdən çıxarılmağının yeməklə, kababla nə əlaqəsi var axı?

Ha illah elədim, danışmadı. Özünə qapanıb bir küncdə çömbəlib otururdu. Hərdən ağlayıb başını divara da vururdu. Alnı qara-qançır idi. Kinolarda gördüyüm ruhi xəstələrə oxşayırdı. Yanına tez-tez baş çəkməyə gəlirdilər. Görüş otağına getməkdən imtina edirdi. Qohumları da naəlac qalıb gətirdiklərini qoyub gedirdilər. Keyf edirdik hesabına. Bircə qara kürü olmurdu. "Malbro" siqaretinəcən gəlirdi. Gözünün ucuyla da baxmırdı peredaçalara. Yediyi isə yalnız qatıq və qara çörək idi. Küncə qısılıb bu təamlardan ləzzət alan bizlərə baxa-baxa "nuş....nuş..." deyirdi. Nəyə ehtiyacımız olurdusa bir kağıza yazıb, altından da öz razılığı ilə icra başçısının imzasını qoyub göndərirdik yanına gələnlərə. Səhəri gün nədir, həmin dəqiqə gətirib çatdırırdılar.

Hərdən deyirdi ki, ay Qanlıgün, bilirsən nə qədər adama yardım, kömək etmişəm? Sən isə dayanırdın qıraqda, elə hey söyürdün bizləri. Gəlmirdin, getmirdin ki, sənə də bir görüm-baxım edim. Eləcə hürürdün. Amma kimlərə ki, hörmətim keçib bu gün biri də yadına salmır, gəlmir yanıma. Yalnız ailəmdir.

Onların da üzünə bu sifətdə çıxıb ürəklərini ağrıtmaq istəmirəm. Öləndə görərlər.

- Düz eləmirsən, ay Gülmalı müəllim. Sonra da ailən elə başa düşəcək ki, sənə burda işgəncə veriblər, döyüblər, ac saxlayıblar. Verəcəklər tibbi ekspertiziyaya. Onlar da bunu təsdiq edəcəklər. Həkimlər nə bilsin ki, başını özün divara vurursan, özünü özün ac saxlayırsan, çimməyə getmirsən, paltarını dəyişmirsən. Sonra da başlayacaqlar hüquq müdafiəçilərinə külli miqdarda pul töküb beynəlxalq təşkilatlara müraciət etməyə. Özün bilirsən də... bu hökumət də böhtanı sevmir. Hüquq müdafiəçilərinə heç nə etməyəcəklər. Amma uşaqların yazıqdır. İncidərlər. Axı ac qalmaqla, başını divara vurmaqla nəyə nail olmaq istəyirsən? Bu yolla təmizləndiyinimi sanırsan? Yanılırsan, Gülmalı müəllim, yanılırsan. Nə vaxtdı burdayam da... Bir dəfə də yanıma gəlməyiblər. Qoca adamdırlar. Kasıbdırlar. Pensiyaları yeməklərinə, dərmanlarına güclə çatır. Necə gəlsinlər? Amma sən sevinməlisən ki, ailən var, səni sevən, gözləyən var. Ölüvü yox, dirivi gözləyən var.

Elə bil yuxudan ayıltdım Gülmalı müəllimi. Həmən yerindən dirçəldi. Hamama gedib çimdi, üzünü qırxdı. Evdən gətirilən təzə paltarları geyindi. Üstünə fransız odekolonu vurdu. Güzgüyə baxıb üzünə gülüş ifadəsi verməyə başladı. Birinci dişlərini ağartdı. Gördü ki, yox. Şit alınır. Sonra barmaqlarıyla

dodaqlarının hər iki qırağından yanağına doğru dartıb özünə tamaşa elədi. Əlini buraxan kimi yenə sifəti bədbin, yazıq vəziyyətinə qayıtdı.

- Çox da çalışma, Gülmalı müəllim. Dodağını qaçırtmaq, dişlərini göstərməklə ailəni aldada bilməyəcəksən. Hamısı gözlərində yazılıb. Sadəcə deyərsən ki, soyuqlamışdım. Çörək yeyə bilmirdim. Ona görə də arıqlamışam. İkincisi də ki, bura sanatoriya deyil ha... türmədir.

Beləcə, Gülmalı müəllimə ürək-dirək verib görüş otağına yola saldım. Qayıdanda isə tanıya bilmirdik onu. Tamam dəyişmişdi. Otağa girən kimi hamımızı qucaqlayıb öpdü. Yanımızda oturub siqaretdən domino, kart oynamağa başladı. İki siqaret dənəsi udanda uşaq kimi sevinərək hoppanıb-düşürdü. Məhbus dostları ona gətirilən şokolad-konfetləri bəh-bəhlə dişləyib pürrəngi seylon çayından içəndə ləzzət alırdı. "Sağlıq olsun, azadlığa çıxaq. Sizə elə qonaqlıqlar verəcəyəm ki" deyirdi. Ertəsi gün gördüm ki, məni görüş otağına çağırırlar. Qulaqlarıma inanmadım. Getdim. Atamla-anam idi. Altı ay idi ki, görmürdüm onları. Yaxşı azuqə də gətirmişdilər mənə. Yemək, təzə paltar, alt paltarı. Dedim ki, niyə əziyyət çəkmisiniz. Hər şeyim var. Narahat olmayın. Anam cavab verdi ki, sən bizə yox, azadlığa çıxanda Gülmalı müəllimə minnətdarlığını bildirərsən. Zəng etdi. Dedi ki, Qanlıgünün dostuyam. Sonra oğlu evimizə gəldi. Bizim

qayğılarımızla maraqlandı. Şoferini göndərdi ki, bizi bura gətirsin. Pay-puşu da o aldı. Hələ cibimizə də bir paçka pul qoydu. Dedi ki, nə ürəyiniz istəyir alın. Mən də o saat gedib üç paçka "Snikers" şokolad aldım. Hər dəfə televizorda göstərəndə ağzımın suyu axırdı. Əlbəttə ki, üzünü görməsək də yaxşı, insan adamdır, vəfalı dostdur. Çıxan kimi burdan get düz yanına. Razılığını bildir.

Görüşü bitirib geri qayıtdım. Gülmalı müəllim məni xoşbəxt görüb sevincindən uçurdu. Demə, oğluna tapşırıb ki, onun adından zəng eləsin və atamla, anamla görüşümü təşkil etsin. Onu da əlavə etdi ki, "evdən heç narahatçılığın olmasın. Uşaqlara tapşırmışam. Hər həftə dəyib bütün problemlərini həll edəcəklər".

Gülmalı müəllim bir günün içərisində tamamilə dəyişmişdi. Amma yenə eyni açılmırdı. Ha soruşurdum, demirdi. İçində saxlayırdı. Fikirləşdim ki, yəqin vəzifəsini itirdiyinə görədir. Zarafat deyil... Ömrün boyu vəzifədə işləyəsən, kef görəsən, yaşının bu vaxtında gəlib türməyə düşəsən. Əvvəl Gülmalı müəllimə qarşı aqressiv olsam da, yavaş-yavaş münasibətimizdə istilik yaranırdı. Söhbətimiz tuturdu. Hərdən icra başçısı kimi elədiklərini yadına salıb cırnadırdım onu. İstəyirdim ki, həyata inamını yenidən özünə qaytarım.

- Ay Gülmalı müəllim, pulun var?

- Var.

- Hələ də vəzifədə dost-tanışın, yanlarında hörmətin var?

- Var.

- Gəl gündə bir məhbusu söhbətə tut. Elə bil ki, icra başçısısan, o da qapına köməkçün gəlib. Dindir. İmkanın olsa kömək də elə. Həm başın qarışsın, həm də savab qazan.

Bu söz ağlına batdı. Məhbuslarla ünsiyyət qurmağa başladı. Ayrı-ayrılıqda söhbət edirdi. Ailə həyatlarıyla, nə səbəbdən bura düşdükləriylə maraqlanırdı. Məni də yanında otuzdurub, qabağıma kağız-qələm qoymuşdu ki, qeydlər aparım. Sanki yenə icra başçısıydı, mən isə onun müavini. Məhbus yoldaşları da onun suallarına həvəslə cavab verirdilər. Sevinirdilər ki, onları da insan yerinə qoyarlarmış. Problemləriylə maraqlanarmışlar. Nə olsun ki, keçmiş icra başçısıdır. Böyük adam sayılır.

- Gülmalı müəllim, Allah sizinkiləri də saxlasın - üç uşağım var. Biri də xəstə idi. Dərmanları da baha. Firmada fəhlə işləyirdim. Güclə çatdırırdım. Günlərin bir günü uşağa təcili əməliyyat lazım oldu. Mən də qohum-əqrabadan istədim – vermədilər. Firmanın direktoruna dedim – vermədi. Bankdan kredit almaq istədim – zaminə mal-mülk istədilər. Məndə də qızıl-mızıl nə gəzir? Naəlac qaldım. Başladım yeşiklərin içindən bir-iki dənə lampa oğurlayıb satmağa. Ağzını

da səliqəylə skotçla bağlayırdım ki, bilinməsin. Bir azdan müştərilər də başladılar şikayətə ki, bəs yeşiklər əskik gəlir. Firmanın da müdiri də başa düşürdü ki, almanlar belə şey eləməz. Güddürüb axırı məni iş başında yaxaladı. Polis çağırıb həbs elətdirdi;

- Gülmalı müəllim, uşaq oxumağa həvəsli idi. Həkim olmaq istəyirdi. Boğazımızdan kəsib müəllim də tutmuşduq. Axır ki, imtahan verib 550 balla Tibb İnstitutuna girdi. Amma pullu şöbəyə düşdü. Getdim ki, bəs imkan verin xırda-xırda ödəyim. Dedilər ki, belə qanun yoxdur. Məcbur olub kredit götürdüm. Vədəsində qaytara bilməyəndə isə, faizlər artırdı. Götürdüyüm məbləği ödəmişdim. Amma faizləri qaytara bilməyəndə, bank verdi məhkəməyə. Ədliyyə məmurları pulun əvəzinə evdə olan televizor, xolodilnik, pula gedən əşyaları müsadirə etməyə gələndə dözmədim. Onlarla əlbəyaxaya çıxdım. Tutub soxdular dama;

- Ay Gülmalı müəllim, məhlədə futbol mərci qoşulan "TOPAZ" məntəqəsi açmışdılar. Uşaq da gedib dadanmışdı ora. Axır evdən pul da oğurlamağa başlamışdı. Bir ultimatum verdim ki, yığışdırın qumarxananı burdan – yığışdırmadılar. İki dedim. Axırda üzümə qayıtdılar ki, "qanunsuz iş görmürük ki, dövlətin icazəsilə yer açmışıq da. Tutaq ki, biz bağladıq. Oğlun gedib başqa yerdə oynayacaq da. Öyrəncəlidir" deyəndə dözmədim. Saldım onu təpiyimin altına. Polis çağırıb, həbs elətdirdilər;

- Yoldaş katib. Kəndçi adamam. Torpaq becərib, məhsul yığıb, başımı saxlayırdım. Kanal da düz torpaq sahəmin yanından keçirdi. Münbit ərazilər idi. Günlərin bir günü gəldilər ki, bəs burdan hansısa boru keçəcək. Torpağı sat. Ya da ki, bunun əvəzində kəndin ayağındakı, daşlıq, şoran yerdə sənə torpaq ayıracağıq. Get orda eşələn. Dedim ki, bəs nəylə dolanım? Ac qalım? Bir sözlə, razılaşmadım. Səhər gördüm ki, sahəmdə çətənə kolları bitib. Adımı nəşə alverçisi qoyub basdılar dama;

- Gülmalı müəllim, xozeyin şoferiydim. Kiçik idarələrin birində işləyirdim. Bununla da ailəmi saxlayırdım. Atam rəhmətə getmişdi. Anamla qalmışdım. Dağlı məhləsində, ikiotaqlı həyət evimiz vardı – cəmi 20 kvadrat metr. Bir dənə də balaca mətbəx. Bacım ərdə idi. Məni də hey fırlayırdılar ki, bəs evlən, evlən... Mən də qulaq asmırdım. Nəhayət, "yoldan çıxartdılar". Özümüzə babın alıb arvad elədim. Çox mehriban idik. Anam da sevindiyindən uçurdu. Beləcə, üç-dörd ay keçdi. Məhləmizdə Alışan adlı bir dəli var idi. Vəhşiliyi yox idi, sadəcə ağzına nə gəlirdi deyirdi, söyürdü. Xəstə olduğunu bildiyimiz üçün heç kim ona dinmirdi. Yola verirdik. Necə deyərlər, alnında yazılmışdı ki, "Yola ver!" Günlərin bir günü arvadla gəzməkdən qayıdırdıq. Hamilə idi. Alışan birdən qabağımıza çıxdı. Dişlərini ağartdı. Arvad da onu tanıyırdı. Bir-iki söyüş söydü. Dinmədim. Çünki

tanıyırdım, uşaqlıqdan bir yerdə böyümüşdük. Yolumuza davam etdik. Düşdü dalımızca. İndi day söyüş söymürdü, əl-qol atırdı. Təsəvvür edin də... Təzə gəlinə əl-qol atmaq. Bu dəfə dözmədim... Heç nə də demədim. Tələsik evə girdim. Alışan yekəpərin biri idi. Bir dənə vursaydı on gün posteldə yatardım. Mən də sısqa, zəif uşaq. Amma namusuma toxunmuşdu. Bilirdim ki, dəlidir, amma dözə bilmirdim. Çünki belə hal bir-iki dəfə də olmuşdu. Qardaşına, anasına demişdim. Amma çifayda?!.. Arvadı evə saldım, mətbəxdə iri çörək bıçağını götürüb çıxdım küçəyə. Durub üzümə hırıldayırdı, söyüş yağdıra-yağdıra. Məni söysəydi dərd yarıydı, arvadımı söyürdü. "Qəhbədir, gəzəyəndi". Yaxına gəldim, bıçağı çıxarıb soxdum qarnına. Hay-küy düşdü. Səhərdən məni söyəndə heç kim yaxına gəlmirdi. Qanı görən kimi hamı başladı şivənə. Anası dedi ki, bəs oğlum öldü "başı qızıldan". Qardaşı da "can qardaş, sənin qanını yerdə qoymaram" deyə başladı üstümə xoruzlanmağa. Qonşular güclə aldılar əlindən. Polis də ki, həmən gəlib məni apardı şöbəyə, Alışanı da xəstəxanaya. Başlandı istintaq. Məni dindirən başa düşürdü ki, təqsirim yoxdur. Amma bunu bilərəkdən elədiyimi yazdığıma görə işləri korlamışdım. Günlərin bir günü anam və arvadım gəldilər ki, bəs narahat olma müstəntiqlə danışmışıq. 5000 dollar pul istəyib ki, işi bağlasın. Alışan da yaxşı ki, ölməyib. Üzü bu yanadır. Qardaşı şikayəti geri

götürmək üçün 2500 dollar istəyib. Nə isə, hər şey qaydasında gedir. Evi də beş minə satmışıq. Təki canın sağ olsun. Çıxıb, qazanıb təzəsini alarsan, Alışangilin də pulunu verərsən. Bircə bu sualı verdim ki, bəs siz harada qalacaqsınız? Anam dedi ki, hələlik mən bacıngildə olacağam, gəlin də atası evinə gedəcək. On gün keçdi, iyirmi gün keçdi, iki ay keçdi. Amma mən yenə də məhbəsdə idim. Günlərin bir günü gəldilər ki, bəs məhkəməndir. Dedim ki, yəqin oradan azad edəcəklər. Məhkəmə zalına gülə-gülə girdim. Prokuror da, hakim də məni suallarla divara dirəmişdilər. Alışan da, anası da, qardaşı da üzümə durmuşdular. Məəttəl qalmışdım. Anam deyən nə idi, bu nə idi? Yazıq arvad məhkəmə salonunda yumağa dönmüşdü. 5 il kəsdilər mənə. Üstəlik dedilər ki, Allahına şükür elə ki, Alışan ölməyib. Yoxsa ömürlük gedəcəkdin. Kolonda anam yanıma gəldi. Soruşdum ki, ay ana, bəs bu nə məsələdir axı? Deyirdin ki, arxayın ol, bəs nə oldu? Dedi ki, "ay bala, evi satdıq. 5000 dolları gətirib verdik müstəntiqə. Hər şey yaxşı gedirdi. Beş gündən sonra gəldim ki, bəs nə oldu? Oğlum hələ də türmədədir. Gördüm ki, otaqda tamam bir başqa müstəntiq oturub. O birini soruşdum. Dedi ki, xala onu rüşvət aldığı yerdə tutub basdılar dama. Oğlunuzun işini mən aparacağam. Dedim ki, a bala, nə aparacaqsan, hər şeyi o biri oğlana çatdırmışam. Düz 5000 dollar. Dedi ki, ay xala, həmin adamın işi istintaqdadır.

Nə şikayətiniz var ora edin. Mən də ki, avam adam qorxumdan getmədim. Təzə müstəntiq də dedi ki, oğlunuz bilərəkdən bu hadisəni törədib. Özü də etiraf edib. Nə olsun ki, sataşan dəlidir - adam sayılır. Oğlunun yeri türmədir, vəssalam. Dedim ki, evi satmışıq, başqa pulumuz yoxdur. Qovdu məni otaqdan ki, "mənə rüşvət təklif edirsən? Bu dəqiqə tutduraram səni" Mən də gedib köhnə müstəntiqi axtarmadım. Başa saldılar ki, bəs səni də göndərərlər oğlunun yanına. Çünki rüşvət verən də, alan da cinayətkar sayılır. Bir sözlə, a bala, oturdum kirimişcə yerimdə. Ara yerdə evimiz də getdi".

İndi, ay Gülmalı müəllim, anam yeznə qoltuğunda, arvadım da atası evində. Namusumu qorumaq istədim, ara yerdə oğraş oldum – namuslu, qeyrətli oğraş.

Bütün bu həyat hekayətlərinə Gülmalı müəllim diqqətlə qulaq asırdı. Mən də qeydlərimi edirdim. Ailəsiylə görüşə gedəndə bloknotu məndən alıb özüylə aparırdı.

Əvvəllər evdən məktub gələndə və məhbuslar məktubda yazılan problem, tale yüklü yazıları oxuyanda qanlarının qaraldığını, hətta ağladıqlarını müşahidə edirdim. Gülmalı müəllim kolona gələni hər şey dəyişmişdi:

- Ay uşaqlar, məktub almışam. Səhiyyə Nazirliyindən evə gəliblər ki, bəs uşağın müalicəsini dövlət öz

üzərinə götürüb. Sağ olsunlar. Bir ildi ki, ərizə yazmışdım. Ümidimi də üzmüşdüm. Diriltdilər yenidən məni;

- Ay uşaqlar, işimi apelyasiyaya göndəriblər. Futbol mərci qoşan məntəqənin işçisi də şikayətini geri götürüb. Sabah da məhkəməmdir. Yuxarılara məktub yazmışdım. Axır ki, xeyri oldu;

- Sizin qadalarınızı alım. Beynəlxalq məhkəmədir, nədir – bilmirəm. Hardansa xəbər tutub məndən. Qərar da çıxardıb ki, filan beynəlxalq şirkət mənə şər atıb – torpağımı əlimdən almaqçun. İndi mənə torpaq da ayıracaqlar, avrodur, nədir, ondan da verəcəklər. Üstəlik azadlığa da buraxacaqlar;

- Anam yazıb ki, bəs "Ahıllara Kömək Fondu"nun xəttiylə tənha qocalara, o cümlədən də mənə birotaqlı mənzil ayırıblar. Ünvanı da göndərib ki, birdən çıxanda tapa bilmərəm. Qonşular da şikayətlərini geri götürüblər, işimə yenidən baxılacaq;

- Ay uşaqlar "Təhsil Fondu" adlı qurumu tanıyan var? Sağ olsunlar uşağın təhsil haqqını götürüblər boyunlarına. Bank da gəlib ailəmdən üzr istəyib ki, bəs faizləri düz hesablamayıblarmış. Demə, onların borcunu artıqlamasıyla ödəyibmişəm. Üstəlik üzrxahlıq kimi təzə televizor, xolodilnik də alıb qoyublar yerinə;

Gülmalı müəllim bunları gördükcə gözləri sevincdən alışırdı. Mənə isə xüsusilə ləzzət edirdi. Çünki özümə də bu cür hörmət görmüşdüm. Dönə-dönə də

tapşırmışdı ki, "nəbadə hiss elətdirəsən ki, mənəm bu işləri görən. Canıvu alaram".

Gülmalı müəllim əvvəllər olduğu kimi şikayətçini, ona pənah gətirən rayon sakinlərini qapısından qovmurdu. Əksinə, öz problemləriylə içində qovrulan, fiziki olaraq heç yana əli çatmayan bu məhbusların qabağına gedirdi. İcra başçısı kimi yox, onlardan biri olan məhbus kimi danışdırırdı, ürək-dirək verirdi. Dolayı yolla problemlərini həll edirdi. Bəzən cibinin də ağzını açırdı. Uydurduğum "İcra başçısı oyunu" yaman xoşuna gəlmişdi. "Heç həqiqi icra başçısı olanda vəzifəmdən belə ləzzət almamışdım" deyə etiraf da edirdi.

Günlərin bir günü hündürboy, idman qamətli, itibaxışlı bir məhbus bizə yaxınlaşdı.

- Mənim də sizdən bir xahişim var.

- Buyurun. Dinləyirik səni.

- Mən böyük bir bölüyün komandiri olmuşam. Polkovnikəm...

- Dünya, dağıl,- deyə Gülmalı müəllim əlini-əlinə vurdu. - Sən də problemdən danışırsansa, day bu yazıqlar neyləsin?

- Əsla. Mənim həll olunası bir problemim yoxdur. İyirmi il yüksək hərbi vəzifələr tutmuşam. Bayırda da bütün işlərim qaydasındadır. Maşallah, hər şeyim var. Oğul-uşağı da yerbəyer eləmişəm. Sadəcə, neçə vaxtdır sizə göz qoyuram. Burdakılar başa düşməsə

də gözəl anlayıram ki, savab işlə məşğulsunuz. Hər şeyi siz edirsiniz, amma adını başqalarının üstünə yazırsınız ki, başa düşməsinlər. Məni də götürün öz komandanıza – bəlkə mənim də kiməsə köməyim dəydi.

- Sən birinci məni başa sal ki, bura necə düşmüsən? Eşidib, bildiyimə görə təmiz hərbiçi olmusan, – deyə Gülmalı müəllim soruşdu.

- Danışım da... Amma bura düşməyimin professional fəaliyyətimə dəxli yoxdur.

KOMANDİRİN HEKAYƏTİ

Mən sovet ordusunun yetirməsiydim. Milli orduya gələndə qarışıqlıq idi. Qərargaha girəndə heç "çest" də vermirdilər. Hər şeyi yoluna qoydum. Qayda-qanun yaratdım. Neçəsini türməyə saldırdım. Hamı məndən qorxurdu. Çox sərt idim. Təmiz idim. Ona görə də heç kim qabağımda söz deyə bilmirdi. Əllərində pul yana-yana qalırdılar. Rüşvət almırdım. Heç bir sövdələşməyə getmirdim. Bütün günü də işdə olurdum. Nə gecəm var idi, nə gündüzüm. Qohum-əqraba düşmən olmuşdu mənimlə. Günlərin bir günü bir yaxınım gəldi ki, bəs pula ehtiyac var, 100 min dollar borc ver. Sınıq-sallax bir "06 Jiquli"m vardı. Açarlarını verdim ki, götür sat. Bundan başqa heç nəyim yoxdur. Durdu ayağa. Dedi ki, "məni dolamısan?

O boyda komandirsən". Heç kimə sübut edə bilmirdim ki, təmizəm. Qapıma kim gəlirdisə əliboş qayıdırdı. Yemirdim də, yedizdirmirdim də.

Günlərin bir günü yaxın bir adamım dedi ki, məni təchizat üzrə müavin götür özünə. Dedim axı orda nə var ki, can atırsan. Kartoşka, soğan, qara çörək, yağ, paltar, sapoq, bir də avtomat-patron. Neyləyəcəksən axı bunlarla? Əsgərin yeməyini kəsəcəksən, yoxsa paltarını satacaqsan? Vallahi tutduraram səni. Dedi ki, sən məni ora qoy. Nə əsgərin yeməyini kəsəcəyəm, nə də paltarını satacağam. Yollar var da, sən bilmirsən. Kağızda da, reallıqda da hər şey təmiz olacaq. Razılaşdım. Başladı əlimə pul gəlməyə. Mütəmadi də təhcizat üzrə müavini yoxlatdırırdım. Hər şey təmiz idi. Fikir məni götürmüşdü. Hər şey qaydasında. Bəs pul hardan gəlir? Üstəlik mən də varlanıram, o da, hətta qohum-əqrabası da. Lənkəranda işləyəndə baş verən bir hadisə yadıma düşdü.

Bir nöyütçü Kərim var idi. Həyətində sisterna qoyub nöyüt satırdı. Pulunu balta kəsmirdi. Kim də yoxlamaya gəlirdi kor-peşman geri qayıdırdı. Çünki camaata nöyütü qaydasında satırdı, tərkibinə də əlavə bir şey qatmırdı. Axırda dəfələrlə yoxlamaya gələnlərdən biri bezir. Deyir ki, Ay Kərim, məni yorma. Kişi kimi söz verirəm, bir də sənin qapına heç kim gəlməyəcək. Məni bu işindən hali et. Necə olur ki, həm

qaydasında işləyirsən, həm də varlanırsan. Kərim kişi də bir qruşka nöyütü ağızınacan doldurur və soruşur:

- Ay revizor, burada nə qədər nöyüt var?

Müfəttiş də yoxlayıb görür ki, bir litr. Kərim kişi əlavə edir ki, bax, sən yoxlayanda baş barmağımı qruşkanın içərisinə salmışdım, nöyütün səviyyəsi qalxmışdı. Bəs mənə qalan o baş barmaqdır.

Amma müavinimdə heç "baş barmaq" da üzə çıxara bilmirdim. Sonradan mənə məlum oldu ki, müavinim "kim ərzağı, paltarı ucuz satsa onda alacağam" adı ilə elan, indiki dildə desək, tender elan edirmiş. Əvəzində isə kim əlavə və çox pul, yəni ki, "şapka" boyun olurmuşsa ondan da malı alırmış. Özünüz başa düşürsünüz də, o qədər əsgərin yemək-içməyi nə deməkdir. Sonradan müavinim bir az da "irəli getdi". Artıq elan vermirdi. Bir holdinq yaratmışdı. Qardaşının adına firma açmışdı. Ərzağı özü gətizdirir, paltarları da özü tikdirirdi. Bu da ikiqat qazanc idi. Bir az keçdi müavinim bir az da "irəli getdi". Başını digər işlərə də soxmağa başladı. Dedi ki, təlimlər üçün güllə, suxoy payok, konserv alırıq, avtomatları silmək üçün yağ. Təlimlərin sayını artır, guya ki, şəxsi heyətin döyüş hazırlığını qaldırırıq. Amma əslində təlimləri az keçirək. Artıq qalanları da satdırım bazarda. Qulağını çəkib yerində otuzdurdum. Qudurduğuna görə göndərdim istefaya. O da gedib bütün sirləri faş etməyə başladı. Məndən xoşları gəlməyənlər, marığa yatanlar

hücuma keçdilər. Elə bilməyin ki, həqiqət, qanun tərəfdarı idilər. Əksinə. Deyirdilər ki, ərzağı da, paltarı da bizim qohumların firmalarından almalısınız. Mən də onların hamısını rədd edirdim.

Günlərin bir günü dağlıq bölgədə keşik çəkən əsgərlərdən biri öldü. Elə yer idi ki, nə maşın yaxınlaşa bilirdi, nə də vertolyot. Ratsiyayla əmr verdim ki, cəsədi üç kilometr daşlı-kəsəkli yollarla, bellərində "A" nöqtəsinə gətirsinlər. Biz də onları orda qarşılayaq. Öz avtomatları, üstəlik də ölənin döyüş-sursatını bellərinə alan əsgərlərin, demə, cəsədi daşımağa gücləri çatmayıb. Döyüş yoldaşlarını yerə uzadaraq, hərəsi bir ayağından yapışıb. Düz üç kilometr yolu sürüyə-sürüyə gətiriblər "A" nöqtəsinə. Mən də orda durub gözləyirdim. Cəsədə baxanda özüm də dəhşətə gəldim. Təsəvvür edirsiniz də. Üç kilometr daşkəsəyə dəyən, sürtülən baş, bədən nə günə düşə bilər? İlk dəfəydi ki, belə halla rastlaşırdım. Yoxsa köməyə adam göndərərdim. Nə isə uşağı tabuta qoyub göndərdik evlərinə. Sizcə, öz balasını bu şəkildə görən ana, ata, bacı, qardaşın ağlına birinci nə fikir gələ bilər?

- Əlbəttə ki, əsgərə işgəncə verib öldürüblər, – deyə Gülmalı müəllim dilləndi.

- Ata-ana da başladılar şikayət verməyə, o qəzetə yazmağa, bu qəzetə yazmağa. Hüquq müdafiəçiləri də o yandan. İctimai fikir də tam onların tərəfindəydi.

Ekspertiza da bu fikirləri təsdiqlədi. Ara qarışdı. Vəziyyəti sakitləşdirmək üçün məni vəzifəmdən uzaqlaşdırıb, işi verdilər tribunala. Ona görə də indi burdayam.

-Hə, komandir, yaman tələyə salıblar səni. Eybi yox. Şair Qabil burda nə deyib?

"İnsanın başına nə desən gələr,

Təki can sağ olsun, hər şey düzələr".

Qanlıgün, yadından çıxmasın. Rəssama pul verərsən, bu misraları plakat kimi yazıb bütün otaqlara vursun. Qiymətli misralardır. Nə deyirsən, Qanlıgün, polkovniki də özümə müavin götürümmü?

- Necə istəyirsiniz, Gülmalı müəllim. "Başçı" bilən məsləhətdir.

İnkir-Minkir, yaman ləzzət edirdi ona başçı deyəndə. Ürəyinə yağ kimi yayılırdı. Vərdiş etmişdi bu sözə.

Amma yenə də bura düşmə səbəbini, öz sirrini açmırdı ki, açmırdı. Elə "yeyinti, rüşvət almaq üstündə həbs ediblər. Haqq da ediblər" deyib dururdu. Mən dəqiq bilirdim ki, gördüyü işlərin hamısını öz vəsaiti hesabına edir. Əgər bu maddələrlə tutulubsa, çoxdan hər şeyini müsadirə etməliydilər. Oğul-uşağını da vərəzan günə qoymalıydılar. Amma hiss olunurdu ki, bunların heç biri baş verməmişdi. Gülmalı müəllim vəzifədən yıxılsa da, həbs edilsə də, maliyyə baxımdan ayaq üstə idi. Hörməti də ki, hörmət. Sədaqət baxımdan da bütöv adam idi. Amma nə eləsəm

də dilini açа bilmirdim ki, bilmirdim. Nəhayət, bir gün boğaza yığdım onu. Axır ki, razı saldım. Ürəyini boşaltdı:

- Gəl, Qanlıgün müəllim, gəl danışım. Uzun məsələdir. Bir də ki, məni burda yalnız sən başa düşərsən. Nə vaxtsa ilhamın gəlsə dediklərimi yazarsan da.

İCRA BAŞÇISININ HEKAYƏTİ

Qanlıgün, sən bilirsən də... Mən əvvəl-əvvəl icra başçısının müavini işləyirdim. Pis deyildi. Başımı birtəhər dolandırırdım. Rayon yeriydi. İcra başçısını isə şəhərdən göndərmişdilər. Təbii olaraq rayon rəhbərliyinə də can atırdım. İcra başçısı olmaq istəyirdim. Amma indi peşmanam. Ay Qanlıgün, bilirsənmi nə qədər can atmışam bu vəzifəyə? Nə qədər quyular qazmışam, torbalar tikmişəm? Müavin olanda nə tövr edirdimsə, yıxa bilmirdim başçını. Arxası möhkəm idi. Çalıb-talayırdı rayonu. Gördüm ki, yazmaqla, demaqoqluqla yıxa bilmirəm. Əksinə, kişinin hörməti qalxır. Hətta başqa icra başçılarına nümunə göstərirlər onu. Fəndi dəyişdim. Keçdim yaltaqlığa. Tərifladikcə kişi xoşhallanırdı. Ləzzət eləyirdi ona. Bir də gördüm ki, 1-ci müavinini vəzifəsindən çıxarıb məni qoydu onun yerinə. Bütün işləri də yıxdı üstümə ki, bəs səndən yaxın adam ola bilməz mənə. İndi camaatla

üz-göz də mən olurdum, hörmətsiz də, söyülən də. Qazanan isə o. Əksinə, hörməti bir az da qalxmışdı. Rayon əhalisi deyirdi ki, icra başçısının xəbəri yoxdur, bütün bu işləri edən bu köpəyoğlu 1-ci müavindir. İcranın qabağına gələndə, mitinq keçirəndə icra başçısını söymürdülər, məni söyürdülər. Hələ mənə şeir də qoşmuşdular: "Üçdü, dörddü, götdü, bizim Gülmalı". Əvəzində aldığım isə tula payı, yəni "paket" idi. Amma icra başçısı olmaq arzusu beynimdən çıxmırdı. Nə eləyirdimsə yıxa bilmirdim onu. Yoxlama gələndə də yedizdirib yola salırdı. Bununla da məsələ bağlanırdı. Günlərin bir günü bir məclisə düşdüm. Ziyalı adamlar idi. Denən axı, ay Gülmalı, sənin ağıllı adamların içində nə işin var? Nə olsun ki, icra başçısının 1-ci müavinisən. Ziyalılıq başqa şeydir. Necə deyərlər:

Meyxanəyə girəndə mən
Alqışlaram yerbəyerdən.
Ayıqlarçın mən sərsəməm,
Sərxoşlarçın peyğəmbərəm.

Mən nə danışaydım axı onların yanında. Torpaq satmağımdan? İki arvad saxlamağımdan? Villa tikdirməyimdən? Ev yıxmağımdan? Onlar mənəviyyatlı adamlar idi. Onlar intellektlərini, mənəviyyatlarını nümayiş etdirirdilər. Mən isə çalışırdım ki, mənəviyyatsızlığım üzə çıxmasın. Lətifə lətifə dalıyca gəlirdi.

Hamısı da mənalı. Bunlardan biri məni yaman tutdu. Daha doğrusu, dadıma çatdı.

Sovetlər dönəmində bir gürcü qış vaxtı Moskvaya gedir. Bir rus xalasının evində otaq kirayələyir. Səhər durub Nataşaya deyir ki, ay Nataşa, bəs mənə kanadski dublyonka lazımdır, görəsən, hardan ala bilərəm? Nataşa da deyir ki, Giya, başın xarabdır? Qışın oğlan çağında da dublyonka tapmaq olar? Özü də kanadski. Giya da deyir ki, bəs mən taparam. İstəyirsən, birini də sənə alım. Gedir. Qayıdanda iki dənə dublyonkayla qayıdır. Arvad məəttəl qalır. Soruşur. Cavabında Giya deyir: "Girdim univermağın müdirinin yanına dedim ki, müdir, mənə on dənə kanadski dublyonka lazımdır. O da başladı məni söyməyə ki, bəs başın xarabdır? Dur rədd ol burdan. Dedim ki, ay kişi, hamısını özümçün istəmirəm ki, səkkizi sənin, ikisi mənim. O da dərhal dublyonkanı gətirib qoydu stolun üstünə". Ertəsi gün gürcü yuxudan durur ki, bəs bu gün Böyük teatrda Çaykovskinin "Sonalar gölü" baleti gedəcək. Görəsən bileti haradan tapım? Özü də birinci sıra, orta yer. Axı gözüm zəif görür. Nataşanın təzədən qışqırığı çıxır: "Sən hələ amfiteatra bilet tap, deyim kişisən. Yoxsa ki, birinci sıra". Giya gedir, əlində birinci sıra, orta yerə iki bilet qayıdır ki, bəs Nataşa, getdik. Soruşanda ki, Giya bunu necə əldə elədin? Cavab verir ki, girdim Böyük Teatrın müdirinin yanına. Dedim ki, birinci sıranın əlli yeri mənim.

Əlbəttə ki, direktor məni söydü. Amma mən deyəndə qırx səkkizi sənin, ikisi mənim...

Nə isə üçüncü gün Giya yenə yuxudan ayılır ki, bəs, ay Nataşa, sizdə Movzoley deyilən yer var e, oranı ziyarət etmək istəyirəm. Nataşa deyir ki, stop. Movzoley bir aylıq təmirə bağlanıb. Giya da başlayır əsəbiləşməyə ki, necə yəni, Moskvaya gələsən, Movzoleyi, Lenini görməyəsən, deməli, Moskvada olmamısan da. Mən belə Gürcüstana qayıda bilmərəm. Biabır olaram qohum-əqrabanın yanında. Gəl gedək. Mən Lenini hökmən görməliyəm. Nataşa əyləşir Giyanın maşınına, gəlirlər Qızıl meydana. Maşını saxlayırlar. Giya düşür maşından, fəhlələri haylayır:

- Burada başçı kimdir?

Bir bədheybət rus çıxır ki, mənəm.

- Mən Lenini görmək istəyirəm.

- Qələt eləyirsən, görmürsən təmirdir? Rədd ol burdan, çornomazı!

- Sizi bir dəqiqə olar?

Giya fəhlələrin böyüyünü çağırır maşının arxa tərəfinə və baqajı açır. Maşındakı bir yeşik araq, bir yeşik konyak, bir yeşik çaxırı göstərərək:

- Bunlar hamısı sizindir, – deyir.

Fəhlələrin başçısı da nə cavab versə yaxşıdır?

- Həəəə?! Lenini bura gətirək, yoxsa Siz əziyyət çəkib Movzoleyə girəcəksiniz.

Ay Qanlıgün, bu lətifə məni çox düşündürdü. Növbəti dəfə icra başçısının quyruğu qapı arasında qalanda şəhərdən gələn hörmətli qonağı avtomobilinəcən mən yola salmalı oldum. Bağlamanı maşına qoyanda utandım, qızardım, guya yerə girdim. Soruşdu ki, nə olub? Dedim nə olacaq, bu boyda rayon, obyektlər, torpaqlar, nələr-nələr... amma verdiyinə bax. Özü 10 yeyir, Sizin kimi hörmətli adama 1 verir. Mən onun yerində olsaydım 9-u verərdim, özüm 1-ə qane olardım. Axı hər şeyə görə o sizə minnətdar olmalıdır. Siz olmasaydınız, çoxdan barmaqlıqlar arxasındaydı.

Hörmətli adamın rəngi boğuldu, amma heç nə demədi. Maşına oturub getdi. İki gündən sonra aydın oldu ki, icra başçısı öz vəzifəsinin öhdəsindən gələ bilmir. Mənim kimi perspektivli, yeni kadra ehtiyac var. Bir də ki, bütün işləri onsuz da mən görürdüm. Bu, mənim halalca haqqım idi. Arzuma çatmışdım. Bakıya təsdiqə gedəndə yolda on dənə maşın dəyişdim. Dedim birdən qəzaya salarlar, terror edərlər. Artıq mən Gülmalı müəllim idim. Hara gedirdim, el-oba ayağa qalxırdı. Bir barmağımla ev yıxırdım. Mənə şeir qoşanların qələmini qırmışdım. Lakin sehrli sözlərim həqiqətə dönməliydi. Heç olmasa on beş qazanmalıydım ki, doqquzu verməyə ürəyim gələydi. İkincisi və ən vacibi də özümü özüm kimisindən qorumalıydım. Birdən o da həmin anekdotu eşidər, bilər. Onda mənim də evim yıxılar, rayonun da. Ya təzə anekdot çıxar,

xəbərim olmaz. Axı ətrafımdakılar da özüm kimilər idi. Başı dolu, cibi boş ziyalılar isə mənim ranqımda deyildilər. Zəmanə dəyişmişdi. Cəmiyyətin qaymağı mən, ayranı isə onlar sayılırdılar.

İşə başlamağımı gördüm. Bütün qohumların yadına düşdüm. Qonşu kəndçiləriməcən gəldi ki, narahat olma, sən tək deyilsən, biz səninləyik. İdarəetmə aparatı da ağzını açıb yem istəyirdi. Bunların hamısını dolandırmaq lazım idi. Birinci sərəncamımla məndən əvvəlki icra başçısının bütün sərəncamlarını qeyri-qanuni elan etdim. İnzibati orqanları bu işin araşdırılmasına cəlb etdim. Rüşvəti dayandırdım ki, həm stavkaları qaldırdım, həm də müvəqqəti olsa da hörmətimi. Vallah-billah mən pul qazanmaq istəyirdim. Əvəzində nə oldu? Əvvəlki icra başçısı həbsə atılacağından qorxub infarkt keçirtdi, on gündən sonra isə öldü. Sevincimin həddi-hüdudu yox idi. Sərəncamları ləğv olunanlar deyəndə ki, bəs bir ətək pul verib sərəncam almışam... cavabım tutarlı olurdu: "Get kimə vermisən, ondan da al". Bu minvalla sərəncamları təzələdim, normanı da artırdım. Bununla da köhnə icra başçısına rəhmət oxutdurdum. Hamı deyirdi ki, Allah Xuduşa rəhmət eləsin, təzə lap qaniçəndi ki...

Ailəmi şəhərə köçürdüm. Beşotaqlı novostroyka, dəniz sahilində bağ aldım. İki dənə ev maşını təyin etdim. Uşaqlarıma tapşırmışdım ki, sinifdə yalnız ziyalı övladlarıyla dostluq edin, onlardan öyrənin.

İstəyirdim ki, böyüyəndə ataları kimi cibi dolu, başıboşun biri olmasınlar. Ciblərini onsuz da mən dolduracaqdım, başlarını doldurmaq isə öz əllərindəydi. Onları musiqi məktəbinə qoydum, rəqs dərnəyinə yazdırdım, ingilis dili təmayüllü məktəbə düzəltdim. Amma özüm çaq-çuqumdaydım. Maşallah, yaxşı da qazanırdım. Yeyirdim də, yedirirdim də. Onu da yaxşı bilirdim ki, vəzifənin bir düsturu var. Əvvəl-axır başıma gələcək. Buna görə də nə qədər bacarıramsa bəhrələnmək istəyirdim.

- O nə düstur idi ki?

- Düstur deyəndə ki... lətifə. Günlərin bir günü bir naziri işdən çıxarırlar. O, otağı, möhürü təhvil verir. Otaqdan çıxanda təzə nazir görür ki, köhnə nazirin seyfdə üç dənə zərfi yaddan çıxıb qalıb. Haylayır ki, ay kişi bunlar yadından çıxıb. Köhnə nazir də deyir ki, bunları sənin üçün saxlamışam. İşin çətinə düşəndə zərfləri növbəylə açarsan.

Bir müddət keçəndən sonra təzə nazirin işləri çətinə düşür. Birdən zərfləri xatırlayır. Birincini açır. Görür ki, yazılıb: "Bütün günahları yıx özündən əvvəlki nazirin boynuna". Elə də edir. Təhlükə sovuşur. Bir müddətdən sonra qara buludlar yenidən başının üstünü alır. İkinci zərfi də açır: "Günahı yıx işçilərinin boynuna". Elə də edir. Təhlükə yenə də sovuşur. Bir müddətdən sonra işi yenidən çətinləşir. Nazir isə arxayındır. Çünki bir zərf hələ ehtiyatdadır axı. Üçüncü

zərfi açır. Görür ki, yazılıb: "Sən də üç zərf hazırla". Bilirdim ki, əvvəl-axır çıxarıb atacaqlar bayıra. Vəzifə boyuma ölçülməyib ki... Ona görə də bacardığım qədər çox yığırdım. Həm də ki, bu, mənim ruzum idi. Qismətim idi. O qədər pul, dövlət yığmışdım ki, nəinki ailəmə, hələ dünyaya gəlməyən nəvə-nəticələrimə də bəs idi. Hələ qohum-əqrabamı demirəm. Yüz qohumum ev-eşik, var-dövlət sahibi oldu. Onların da ailə üzvlərini saysaq, beş yüz edir. Kəndçilərimə çörək verdim, hərəsi bir kişi oldu. Savadsız, yoluğun biriydilər. İndi "Mersedes"də gəzirlər. Antalyada rus qızlarıyla kef edirlər. Deməli, mən min, iki min adama çörək verdim. Mən vermədim. Bu, Allahın hökmüydü ki, mən icra başçısı olum və mənim əlimlə yüzlərlə adam çörəyə çatsın, qismətini tapsın. Bütün bunları artıq həyata keçirmişdim. Vəzifəmi itirsəydim belə, ömrümün sonuna qədər həyat şəraitimi qurmuşdum.

- Bəs birdən-birə nə oldu ki? "Quş" buraxdın?

- Qələt eləyərəm, pox yeyərəm bütün nəslimlə, əgər dövlətimizin, rəhbərimizin əleyhinə bir söz desəm. Əksinə, belələrinin gözünü özüm bu əllərimlə oyaram. Yox, Qanlıgün, belə şeylərdə möhkəm, əqidəli adamam. Sədaqətliyəm.

- Bəs nə oldu ki?

- Bir kasıbın evi rayon mərkəzində yerləşirdi. Yanında da mehmanxana idi. Oranı da bir hörmətli şirkət qəşəng təmir elətdirmişdi. Bu, həm də rayonun

adı idi. Gəldilər yanıma ki, otelin qabağında birmərtəbəli köhnə həyət evi var. Yaratdığımız gözəlliyə xələl gətirir. Yiyəsinə də yüksək kompensasiya, hətta Bakıda ev də təklif edirik ki, "sat bizə buranı". Razı olmur ki, olmur. Deyir ki, dədə-baba yurdumdur, niyə çıxmalıyam ki... Mən də əsəbiləşdim. Birinci müavinin məsləhətinə qulaq asıb o ailəni kabinetimə gətizdirmədim. İşi operativ həll edim deyə polis rəisini də götürüb getdim ora ki, məsələni yoluna qoyum, söhbət edim. Ki, bəs sizinçün çalışırıq da, gözəllik yaradırıq da. Siz də bizə kömək etmək əvəzinə, əksinə, mane olursunuz. İstəyirdim ki, torpaq sahəsi verim, otel də pul ayırsın. Onlar da təzə bir ev tikib köçsünlər ordan. Birinci dəfə idi ki, icra başçısı kimi qətiyyətimi, hökmranlığımı kənara qoymuşdum. Kabinetimdən çıxıb sakinin ayağına gedirdim.

Ora çatanda elə qapını döymək istəyirdik ki, ər-arvad ev paltarında çıxdılar küçəyə. Başladılar hay-haray salmağa ki, "qoymayın, kömək eləyin, bəs icra başçısı evimizi sökür, bizi çölə atır. Özümüzü yandıracağıq, öldürəcəyik, Prezidentə şikayət edəcəyik". Özüm də buna məəttəl qalmışdım. Amma məsələnin nə yerdə olmasını başa düşmürdüm. Kişi bir əlində benzin, o birində isə alışqan tutmuşdu. Ən çox qışqır-bağır salan isə arvad idi. Saçlarını yolurdu, paltarının yaxasını cırırdı. Ağ mərmərə bənzər sinəsi, döşlərinin dik durmuş giləsi aydın görsənirdi. "Dəli

Kür" filmindəki meyxana məclisində Cahandar ağanın bacısı Şahnigarın rəqs səhnəsi gəlib dayanmışdı göz önümdə. Mən də sanki Molla Sadıq idim. Gəlin dövrə vurub hay-həşir saldıqca, qışqırdıqca ehtirasa gəlirdim. Şəhvət gözlərimi tuturdu. Dözürdüm. Bura niyə gəldiyimi artıq yadımdan çıxarmışdım. Amma sonda özümü saxlaya bilmədim. Üzümü polis rəisinə tutub "Naçalnik, bomba şeydir, hə? Nə bunu əmib, əmib Həbəş qızına çevirərdim?!" dedim. Bunu ətrafdakılar da açıq-aydın eşitdi. Mənə xoş olsun deyə dişlərini ağardıb başladılar hırıldamağa. Bunu qadın da eşitdi. Həmən səsini kəsdi. Yaxasının qabağını əliylə bağladı. Gəlib qarşımda dayandı. Gözünü gözlərimə zillədi. Bir müddət beləcə donub qaldı. Sonra bağıraraq ərinə tərəf qaçdı, əlindən benzini alıb üstünə tökdü, alışqanı çəkdi. Alovlandı. Hamı yerindəcə donmuşdu. Bir nəfər də, o cümlədən əri də yanan qadına kömək etmək üçün tərpənmirdi. Alova bürünmüş bədən qarşımızda dövrə vurub rəqs edirdi. Birinci saçları, qaşları, kirpikləri ütülür, paltarı alovlanırdı. Sonra isə dümağ bədəni lopa-lopa yanaraq köz üstündə çızıldayan kabab kimi saralmağa, qaralmağa başlayırdı. Gözlərini yumsaydın belə təsəvvür yaranardı ki, kimsə kəllə-paça, dırnaq ütür, xaş bişirəcək. Sonra isə burnuma kabab iyi gəlməyə başladı. Qadın yanmış cəsədiylə dövrə vuraraq gəlib düz qarşımda yerə sərələndi. Bu dəhşətli mənzərədən ürəyim

bulandı. Özümü saxlaya bilmədim. Qadının yanmış cəsədi üzərinə qaytardım. Huşumu itirdim. Gözümü xəstəxanada açdım. Qapımda polis oturmuşdu. Əvvəlcə başa düşmədim. Prokuror yanıma gələndə dedi ki, həbsimə qərar verilib. Səlahiyyətlərimin də icrası birinci müavinə tapşırılıb. Prokuror yaxşı adam idi. Məni başa saldı ki, "bəs sənin torbanı müavinin tikib. Qadına da, kişiyə də pul veribmiş ki, belə oyun çıxarsınlar. Amma qadının özünü yandırmağı heç onun da ağlına gəlmirmiş. Qıraqdan da videokamera çəkibmiş". Şükür, yenə də yaxşı qurtardım.

- Nəyə şükür edirsən ki?

- Ay jurnalist, təsəvvür elə də... belə çıxır ki, icra başçısı, yanında da polis rəisi, müavinləri hücum çəkib yazığın birinin evinə ki, sökdürüb, ailəsini atsın çölə. Bu dəm onlar da başlayıblar özlərini müdafiə etməyə. İcra başçısı da üstəlik qadının namusuna sataşıb. Bu sözlər də kameranın yaddaşına yazılıb. Daha sonra qadın benzin töküb özünü yandırıb. Ətrafdakılardan da heç kim icra başçısının qorxusundan ona kömək əlini uzatmayıb. Qadın da ölü, köməksiz vəziyyətdə gəlib uzanıb icra başçısının qabağında. O da nə etsə yaxşıdır? Bilə-bilə ölünün üstünə qusaraq, üstəlik onu bu hərəkətiylə təhqir edib. Bütün bunlar da saytlarda olduğu kimi nümayiş etdirilib. İndi sən Qanlıgün, mənim izahlarımı, təfərrüatları eşitməsəydin, adi bir

vətəndaş kimi videoya baxsaydın nə fikirləşərdin? Hansı cəzanı vermək ürəyindən keçərdi?

- Öz əllərimlə güllələyərdim səni, Gülmalı müəllim.

- Mən də buna şükür edirəm ki, güllələmədilər, həbs elədilər. İkicə kəlmə söz - qadına sataşmağım -- məhv etdi həyatımı. Hə, Qanlıgün müəllim, indi bildinmi? Mən bura icra başçısı olduğuma görə yox, oğraşlıq etdiyimə, xalxın arvadının namusuna sataşdığıma görə düşmüşəm. O gündən də heç nə yeyə bilmirəm. Arıqlaya-arıqlaya gedirəm. Yeməyin, ət qızartmasının iyini duyan kimi o intihar səhnəsi gəlib durur göz önümdə. İnsan ətinin yanıq iyi burnumdan getmir ki, getmir. Yerimə də kimi qoysalar yaxşıdır?

- Kimi?

- Birinci müavinimi. Mən birinci müavin kimi nəvaxtsa başçıya necə quyu qazmışdımsa, mənə də elə quyu qazdılar. Arvad-uşağın da yanında biabır oldum.

Ay İnkir-Minkir, elə bir aləmə düşmüşdüm ki, lap başımı itirmişdim. Bu qədər ziddiyyətlərin içində itib batırdım. Bir insan haqqında qəti qərar verə bilmirdim. Bilmirdim söyüm, yoxsa öyüm. Bilmirdim ki, oğraş, yoxsa kişi adam deyim. Bilmirdim ki, dalına təpik vurum, yoxsa əlindən öpüm. Fikirləşirdim ki, görəsən bu həyat dərsini almaq üçün mənə hökmən türməyə düşmək lazım idimi?! Amma demə, yanılırmışam. Görməli günlərim hələ qabaqdaymış.

Gülmalı müəllim isə öz xeyirxahlıq missiyasını həyata keçirməkdə davam edirdi. Türmə nəzarətçilərini də qəbuluna dəvət edirdi. Hətta bir-iki dəfə rəisin də otağına gedib çıxmışdı. Amma bircə özünə, bir də mənə kömək etmirdi. Söhbətimiz, xasiyyətimiz tuturdu. Azadlığa can atmırdım. Xasiyyətim dəyişirdi. Tənqid, təhqir etmək, insanların şəxsi həyatlarına qarışmaq, yalnız pislik etmək kimi şakərimdən, keçmiş jurnalistlik həyatımdan uzaqlaşırdım. Gülmalı müəllimi dəyişdirməklə, özüm də yaxşılığa doğru addımlayırdım. Təmizlənirdim, paklaşırdım.

Ay İnkir-Minkir, bizə təkcə kasıblar yaxınlaşmırdı. Üzünü belə tanımadığımız insanlar da kömək diləyirdilər. Deyirlər ki, azərbaycanlılar müsəlmandır, islam dininə sitayiş edirlər, amma türmədə buna şəkk gətirməyə başladım. Sanki əvvəlki həyatlarında katolik imiş bu insanlar. Xristianlar necə ki, kilsəyə gedib, ürəklərini açıb, danışıb- danışıb, sonra da bağışlanmalarını xahiş etmirlərmi? Bunlar da mənimlə Gülmalı müəllimə ürəklərini açırdılar, ürəklərini boşaldırdılar. Yüngülləşirdilər. Sanki gözlərində bağışlanmaqlarını xahiş edirdilər. Hamısı mənən əzilmişdilər. Elə günahlar işlətmişdilər ki, bunun Cinayət Məcəlləsində maddəsi yox idi. Ay İnkir-Minkir, sizin hüzurunuza gələnəcən bir yüngüllük tapmaq istəyirdilər. Ona görə də bizə tapınmışdılar.

Vaxt keçdikcə məhbuslar azadlığa çıxır, yerinə başqaları gəlirdi. Tanışların da sayı artırdı, "şikayətçi"lərin də...

- Gülmalı müəllim, tanımadız məni?

- Yox.

- Mustafayam da... nazir müavini.

- Bıy, a Mustafa, sən hara, bura hara? Sən ki, sakit bir vəzifə adamı idin? Bura necə düşmüsən?

- Xəbərin yoxdur? Kollegiyada papkanı keçirtdim nazirin başına. O da tutub saldırdı məni bura.

- Bu nə cürət? Vallah inanmaram. Gör indi nə edib sənə ki, bunu etmisən. Neyləmişdi ki sənə?

- Heç nə. İclasda hamının yanında söydü məni. Dedi ki, "oğraşsan". Mən də dözmədim, papkanı götürüb çırpdım başına. Vəssalam. "Za xuliqanstvo" basdılar məni türməyə bu yaşlı vaxtımda.

- Ay Mustafa, mən sənin nazirini yaxşı tanıyıram. Boş-boşuna söz deməz. Sən Allah, hadisənin məğzini anlat.

- Vallah, Gülmalı müəllim, uzun məsələdir.

- Ay rəhmətliyin oğlu, türmədəyik e. Hara tələsirsən. Tələsən yerin var? Ay Qanlıgün, sən Allah, təzə pürrəngi çayla şokoladdan gətir. Deyəsən, Mustafa müəllimin hekayəti uzun olacaq.

Tez çay gətirdim. Mustafa müəllim çaydan bir qurtum vurub başladı söhbətinə.

NAZİR MÜAVİNİNİN HEKAYƏTİ

Qanlıgün müəllim, mənim adım Mustafadır. Familiyam İsgəndərli. Adımdan çox da xoşum gəlmir. Bu nə addır e, atam-anam qoyub mənə? Ad qoyanda baxmazlar ki, bunun qafiyəsi var, ya yox? Bağçada bir şair oğlu vardı. Adımı eşidən kimi başladı mahnı oxumağa:

Mustafadı, Mustafa,
Əlində də aftafa.

Bu mahnı məni həyatım boyu təqib etdi. Məktəbdə, institutda, hətta əsgərlikdə də... Dedim ki, bəlkə işləyəndə qurtular canım bu təqibdən. O da alınmadı.

Sovet vaxtı gənc mütəxəssis kimi bəxtim gətirdi. Nazirliklərdən birinə təyinat aldım. Əlbəttə ki, biliyimə görə. Amma nə edim ki, xasiyyətim pis idi. Dilimi dinc qoymurdum. Sanki ürək xəstəsiydim, kardioloq da mənə "ay Mustafa, ürəyində nə var saxlama, de qarşındakının üzünə. Yoxsa infarkt olarsan" demişdi. Mən də "deməsəm ölləm, desəm öldürərlər" misalını əldə bayraq edərək, başladım nazirlikdəkilərin iç üzünü açmağa. Nə əyintilər, yeyintilər var başladım deməyə. Hətta işdə sevgi macəralarını da faş etdim. İlk günlərdə iş yoldaşlarımdan biri şillə vurub məni uzatdı yerə, xeyri olmadı. Qapını arxadan bağlayıb, idarə rəisinin otağında min oyundan çıxan Ceyla ərini

çağırıb, yaxşıca çırpdırdı məni, yenə də əsər etmədi. Yox, ərinə bir kəlmə də demədim. Qana bulaşmış ağız-burnuma, qırılıb yerə düşən dişimə baxıb özümə yox, ona yazığım gəldi. Amma bir şeyi başa düşmürdüm ki, onun namusuna sataşan idarə rəisi olduğu halda, bu, niyə məni döyür. Ceyla da elə şivən salmışdı ki, məəttəl qalmışdım. Sonralar bildim ki, "təmiz ad"ını, sovet ailəsini qoruyub saxlamaq üçün ərinə tutarlı səbəblər gətiribmiş. "Neyləyim... 90 rubllıq katibə maaşına dolana bilərəm? Kabinetində müdirə həm də pul saymaqda kömək edirəm də... Qapını açıq qoyaydıq? İşçilər də girib görəydilər?" Evə gətirdiyi 50 rublu ərinə verəndən sonra "qeyrətli" həyat yoldaşı onun "həm də" ifadəsinə əhəmiyyət verməmişdi. 50 rublun gücünə bax a... Həm müdirçün Ceylanın "qapı"larını açdırır, həm də məni döydürür.

Nəyisə. Amma mən danışmağımdan qalmırdım. Söysələr də, döysələr də bu şakərimdən əl çəkmirdim. Sonradan gördülər ki, yox, mən Mustafa, demə, çox unikal adamam. Şillə vururlar, şikayət etmirəm, döyürlər milisə getmirəm. Nə deyirəm, nazirliyin içində deyirəm. Qırağa heç nə çıxarmıram. Yuxarılara yazmıram. Ətlərini yesəm də, sümüklərini çölə atmıram. Demoqoq deyiləm. Sadəcə hürürəm. Hürən it isə tutmaz, deyərlər.

Elə o vaxtdan mənə münasibətləri dəyişdi. Day sözlərimdən əsəbiləşib vurmurdular. Sadəcə bir-birlərinə

qarşı qaldırıb məzələnirdilər. Ceyla da mənimlə dostlaşmışdı. "Musik, ay Musik. Sən canın düzünü de. Bu nazirlikdə başqa kim müdiriylə kabinetdə "pul sayır"? Hə?!"" Hələ üstəlik üzümdən maç da edirdi. Mən də tez otağa gəlib həmin yerə "Şipr" odekolonu vurub dezinfeksiyalayırdım.

Nazirlikdə hamı məndən çəkinsə də, qorxmurdular. Mənə dəqiq olmayan məlumatlar verə-verə, otaq-otaq gəzdirib başlayırdılar meymun kimi oynatmağa. Əlbəttə ki, köhnə mahnım da öz yerində:

Mustafadı, Mustafa,
Əlində də aftafa.

Beləcə, mən Mustafa nazirliyin təlxəyinə çevrilmişdim. Artıq nə desəm də onu ciddiyə almırdılar. Dediyim doğru olsa belə. Gülüb, qəşş edirdilər. Hətta nazir də mənim ona yazdığım ərizələrə ciddi yanaşmırdı. "Mustafadır da. Yazıb yazıb da. Dəlidir, işiniz olmasın. Qoy işləsin... yaxşı mütəxəssisdir. Şöbənin bütün yükünü o daşıyır. Qoyun fəhləliyini eləsin".

Beləliklə, nə vəzifədə irəli çəkirdilər, nə də işdən uzaqlaşdırırdılar.

Sovet dövründə nazirliyə necə , sıravi əməkdaş kimi gəlmişdimsə, bu vəzifədə də qocala-qocala gedirdim. Sovet dövründən müstəqilliyə də elə "Mustafadı, Mustafa, əlində də aftafa" kimi adlamışdım. Yerimdəcə sayırdım.

Bilmirəm ki, ailəm olmasaydı neyləyərdim. Rahatlığımı evdə tapırdım. Arvadım doğmaca xalam qızıydı. İki bacıydılar, ikisi də kifir. Evdə qarıyıb qalacaqdılar. Xalalarım, dayılarım araya girib bəh-bəhlə birini mənə, birini də o biri xalam oğlu Rahibə sırıdılar. Sonradan başa düşdüm ki, xalaqızı nə deməkmiş? Xalaqızı, yəni ki, nə döyə bilirsən, nə də boşaya. Amma artıq gec idi. Arvadım kifir, itxasiyyət olsa da, qızımız Nazlı dünya gözəliydi. 8-ci sinifdə oxuyurdu. Məni də çox istəyirdi. Evə gələndə ayaqlarımı suya qoyurdu, saçımı sığallayırdı. Çayımı, yeməyimi verirdi. Bir sözlə, atasının ürəyi, həyatı idi. Sevmədiyim mahnını mən yalnız evdə eşitməzdim. Arvadın "zəhirmar, ağrı, sən nə vaxt evə pul gətirəcəksən?" kəlmələri mənə daha çox xoş idi, nəinki bu mahnı. Bəlkə də arvadım o mahnını bilmirdi? Yaxşı ki, kollektivin tədbirlərinə, toylara aparmırdım. Bayıra çıxarılası bir sir-sifəti, xarici görünüşü də yox idi. Yoxsa ki, bizimkilərdən kimsə içib dəm olub bu mahnını oxuyacaqdı. Arvad da bilsəydi, acığa gündə on dəfə diringə tutacaqdı.

Mustafadı, Mustafa
Əlində də aftafa.

Bu mahnının əlindən tualetə də girə bilmirdim. Sanki qırmızı aftafa idi bu mahnını yazan. Bir-iki dəfə gizlətmişdim unitazın dalında. Amma nə olsun ki, onsuz yaşamaq mümkündürmü?

Balaca, ikiotaqlı mənzildə yaşayırdıq. Gənc mütəxəssis kimi sovet hökuməti vermişdi mənə. Demişdilər ki, bir oğlun olsa üçotaqlıya dəyişərik. Amma sonralar arvada nə olmuşdusa uşaqlığını bütövlükdə çıxarıb götürmüşdülər. İyirmi səkkiz yaşında matkasız qalmışdı. Bu da onun psixikasına pis təsir etmişdi. Acığını tökməyə isə məndən başqa yer tapmırdı. Günümü göy əskiyə bükmüşdü. Mən isə oğlan istəyirdim. Axı, oğlan soyun davamçısıdır, düşmən çəpəridir, qocalanda atasına da, anasına da, bacısına da arxadır. Amma neyləyim. Demə, ilahidən bircə övlad payım varmış. Qızın qeyrətlisi oğlandan da irəlidir, deyiblər. O gündən Nazlı mənim həm ilkim, həm də sonbeşiyim idi. Həm də ki, oğlum. Dərslərini yaxşı oxuyar, əlavə olaraq ingilis dili, kompüter kurslarına gedərdi. O, "atam nazirlikdə işləyir" deyə mənimlə fəxr edər, mən də "qızım əlaçıdır" deyə qürrələnərdim.

Nazirlikdə, bir şöbədə adi vəzifədə işləməyimə davam edirdim. Maaşa baxırdım. Hərdən çaq-çuqum da olurdu. Amma "danışmağ"ımdan da qalmırdım. Artıq hamı üzümə "dəli" deyirdi. Prikola tuturdular, "hürdürürdülər". Özləri də karvan kimi qarşımdan o yana, bu yana keçirdilər. "Hürmək" isə mənə qalırdı. Bir sözlə, veclərinə də almırdılar. Çünki tıxsız balıq idim. Mən də acığımı soyutmaq üçün hər işçiyə bir ad qoymuşdum. Məsələn, Məmməd Məmmədova "MMM", şöbə müdirinə "keyfiyyətsiz", nazir

müavininə "danqalaz", departament sədrinə "beynəmaz". Necə ki, mahnı oxuyub məni cırnadırdılar, mən də ətrafımdakılardan bu adlarla qisas alırdım.

Şöbə müdirinin əlindən isə xüsusilə yanıqlıydım. Allah bilir səlahiyyətim olsaydı nələr edərdim. Amma çox da cınqırımı çıxara bilmirdim. Axı, necə olsa müdirim idi.

Strukturların adı dəyişsə də, idarələr departament adlandırılsa da, mahiyyətcə heç nə dəyişməmişdi. Ceylanı zavodlarımızdan birinin direktoruna katibə göndərmişdik. Nə olsun yaşlaşmışdı, canı suluydu. Zavodun direktoru da fəxrlə "hər direktora nəsib olmur e departament sədrinin katibəsiylə "pul saymaq"" deyə qürrələnirdi. Amma Ceylanın 18 yaşlı qızı Gülya nazirlikdə - bizim şöbədə işləyirdi. Anasından fərqli olaraq başıaşağı, tərbiyəli qız idi. Bir söz deyəndə qızarırdı. Nə desəydin "başüstə", "bəli", "xeyr" deyə cavab verirdi.

Şöbə müdirindən isə zindeyi zəhləm gedirdi. Özü iqtidar partiyasından olmasına baxmayaraq müxalifət mətbuatına abunə yazılmışdı. Qəzetləri son nöqtəsinə qədər oxumamış, işinə başlamırdı. Hər dəfə də sonuncu cümləni oxuyub qurtarandan sonra deyirdi: "Oğraşlar, şərəfsizlər". Başa düşmədim. Belədirlərsə, day qəzetə niyə pul verirsən? Hər gün axıracan niyə oxuyursan? Adam da "oğraşın, şərəfsiz"in yazdığını oxuyar? Qorxmursan ki, oxuyub, oxuyub axırda... Nə isə...

Bir dəfə bu sualı özünə də verdim. Dedi ki, "bilmək lazımdır ki, düşmən nə fikirləşir, sabah hansı siyasi addımlar ata bilər ki, biz buna lazımi cavab vermək üçün hər an hazır olaq". Mən də dilimi dinc qoymayıb "ay müdir, bizim qonşu, əri azərbaycanlı olan erməni Hayastanın uşaqları, nəvələri də evdə bütün günü ermənicə danışırlar ki, düşmənlərinin dilini unutmasınlar? Belə çıxır ki, onlar da düz edirlər?" Mənim şöbə müdirimdən zəhləm gedirdi. O isə sadəcə mənə nifrət edirdi. Əlində imkan olsaydı əmrimi çoxdan vermişdi.

Günlərin bir günü işə gəldim. Nazirliyin qapısından içəri girəndə gördüm ki, hamı sakit dayanıb. Heç mənə mahnı oxuyan da yoxdur, ilişən də. Elə bil rəngləri qaçıb. Yox, bozarıb. Yox e.... rəngi nəsə ifadə edə bilmədim. Çox qəribə sifətlər görürdüm. Elə bil ki, iyirmi beş il bir yerdə işlədiyim adamlar deyildi. Məni görəndə ağızları qulaqlarının dibinə gedirdi. Amma indi nədənsə susmuşdular, donmuşdular. Nə olmuşdu bunlara? Bu dəm liftin qapıları açıldı. Nazir göründü. Başa düşmədim. Nazir gələndə "qaçın, gizlənin" deyən, xalçanın üstünü süpürtdürən, "çest" verən polislər də nədənsə bizi qovmurdular. Nazir bir-bir bizə yaxınlaşdı. Hamımızla görüşdü. Başa düşmədim. Bu nədir? Nazir xarici səfərə gedir bəyəm? Bu da təzə protokol qaydasıdır? Bu hardan çıxdı? Nazir hamıyla görüşüb maşına mindi və getdi. Hamı ah çəkib, köks ötürdü. Departament sədrlərindən biri "bu

canını yaxşı qurtardı. Bir dənə də orden taxdılar döşünə, hörmətlə yola saldılar. Bəs bizim axırımız necə olacaq?" deyəndə mənə çatdı ki, xəbərim yox imiş, demə, nazirimizi işdən azad ediblər. Onda başa düşdüm ki, bunların rəngi-rufu niyə qaçıb. Yox, ona görə yox ki, naziri belə çox istəyirdilər, xiffət eləyirdilər. Əsla. Öz aqibətlərini fikirləşirdilər.

Mənim də qanım qaralmışdı. Yox, ona görə yox ki, itiriləcək böyük bir vəzifəm vardı. Sadəcə köhnə nazir heç olmasa məni tanıyırdı, dəli kimi qəbul edirdi. Maaş az olsa da birtəhər dolanırdım. Heç olmasa adım vardı. Arvad-uşaq da fəxr edirdi ki, atamız nazirlikdə işləyir. Necə deyərlər, quru adım vardı. Özü də ki, qarşıda uşağın xeyir işi ola bilər. İndi elçi gəlsə nə deyəcəyəm: "Mən bezrabotnıyam, arvad da evdar qadın?". Vaxt tapdılar da naziri dəyişməyə. Nə idi, özümüzküydü. Ətimizi yesə də, sümüyümüzü çölə atmırdı. Bilsəydim əvvəldən boşboğazlıq etməzdim. Dilimi farağat qoyardım. İndi gedib "sukalıq" edəcəklər ki, bəs bu xatalı adamdır, yəni ki, danışandır. Danışan adamı da hansı nazir sevər ki? Deyəcək ki, elə canımı birinci bundan qurtarsam yaxşıdır.

Görəsən, təzə nazir bilikli adamdır? Biliklidirsə başa düşər məni. İndiki zamanada düz danışana dəli desələr də, keşmişdə Bəhlul Danəndə deyib tarixə salırmışlar axı. Nazir hardan bilir e, Bəhlul Danəndə kimdir, Kefli İsgəndər haralıdır? O bura "Ölülər"

əsərini oxumağa gəlməyib e, dirilməyə gəlib. Görəcəksən, birinci elə məndən başlayacaq.

Nə isə. Dəhlizə çıxdım. Heç kim yox idi. Otaqlara girdim. Hamı yerindəydi. Sakit, dinməzcə hərə öz yerində oturmuşdu.

- Nə olub? Nazirdir də... getdi getdi də... nə olsun ki, sabah siz də gedəcəksiniz. Burda nə var ki? Vəzifə boyunuza biçilməyib ki? Siz hələ sevinin ki, işdən çıxarılmaqla canınızı qurtarasınız. Bayıl türməsi bomboşdur. Əlinizdən, ayaqlarınızdan öpür.

- Mustafa, sən Allah çıx get. Zarafat eləmək hayında deyilik.

- Nə zarafat? Sizinlə məzələnirəm e... Mırt tuturam. Mırtlaşıram. Mırtlayıram. Dalını da deyim? Əvvəllər məni görəndə gülürdünüz, hoppanıb düşürdünüz. Nə oldu? Mənəm də... Mustafa. Həmin Mustafayam da.

Mustafadı, Mustafa,
Əlində də aftafa.

Siz də mənimlə birgə təkrar edin.

Mustafadı, Mustafa,
Əlində də aftafa.

Amma heç kim mahnımı oxumurdu. Çünki öz mahnılarının çalınmağını gözləyirdilər. Qulaqları səsdə, gözləri də telefonda. Hərdən-bir ora-bura zəng edirdilər.

- Salam, xala. Bizə təzə nazir gəlib. Nəsrulla Şeyxzadə. Xarmusludandır. Sənin böyük qudanın kəndçiləridir. Kəndçi deyəndə ki, aralarında beş-altı kənd var. Nə olsun ki? Qonşu sayılır.

Yaxud da:

- Papa, sən universiteti neçənci ildə bitirmisən? 70-də? Tanımamış olmazsan bizim naziri. Nəsrulla Şeyxzadə. O, 72-də qurtarıb. Yataqxanada qalıb. Yaxşı, yaxşı... gələndə şəklini gətirərəm. Görüm hardan tapıram.

- Ay ma. Deyirlər ki, nazirin arvadı da sən gedən gözəllik salonuna gedir. Tanımırsan? Sən Allah, soraqlaş. Yerlər boşalır. Birinə də məni dürtər.

Nazirin də qəribə adı vardı - Nəsrulla Şeyxzadə. Hər dəfə adını çəkəndə Şeyx Nəsrullah yadıma düşürdü. O, ölü dirildirdi, bu, görəsən, kimi dirildəcək. Adına görə yaxşı yerə göndəriblər. Nazirlikdəkilərin əksəri elə ölü kimi şeydi də... Elə mən özüm də...

Nazirlikdə iş dayanmışdı. Yalnız belə söhbətlər eşidərdin. Hətta biri nazirin hansı bərbərxanada saç qırxdırdığını da öyrənmişdi. Kimsə işdən azad ediləcəyini gözləyirdi, kimsə də yeni vəzəfəyə keçməyini. Mənim isə dünya-aləm vecimə deyildi. İki yolum vardı. Ya işdən çıxaracaqdılar, ya da ki, çujoy poxmel türməyə göndərəcəkdilər. Çünki hesabatların altında mənim də imzam gedirdi.

Səhəri gün işə gəldim. Dedilər ki, kadrların təzə rəisi səni axtarır. Nazirin də bir nömrəli adamıdır. Özüylə gətirib. Demişdim axı, birinci məndən başlayacaqlar. Qurbanlıq qoyunam da. Qapını döyüb otağına girdim:

- Salam.

- Salam. Gəlin əyləşin. Deməli, Mustafa İsgəndərli.

- Bəli. Şöbəmizin adi işçisiyəm. Yüksək ixtisaslı mütəxəssisəm.

- Bilirəm. Sizin Rahib Alışov adlı bacanağınız var?

Fikrə getdim. Bacanağımın bura nə dəxli?

- Var.

- Nəsə həlləm-qəlləm şeylər yazır. Müxalifətçidir. Mənim belə bacanağım olsaydı, çoxdan boşayardım arvadı. Gör bir nələr yazır? "Azərbaycanda inkişaf yoxdur. Bu hakimiyyət devrilməlidir. Xalq ayağa qalxmalıdır". Sənin bunlardan xəbərin var?

- Yox. Mən iqtidar nümayəndəsiyəm. Müxalifət mətbuatını oxumuram.

- Amma, sənin şöbə müdirin oxuyur. Bizi də, sağ olsun, o duyuq saldı. Bəlkə bir qohum kimi söhbət edəsən Rahib müəllimlə. Qoy düz yola qayıtsın. Bir də ki, bunun sizə də ziyanı dəyə bilər. Zarafat deyil. Bu boyda nazirliyin baş mütəxəssisi, dövlət qulluqçususunuz.

Rəisin otağından çıxdım. Həmin an şöbə müdirini əlimə versəydilər, dişlərimlə çeynəyərdim. Gör

haramdan yapışıb e. İşimdə bir şey tapmayıb məsələni keçirib siyasi müstəviyə. Yaxşı. Nə olar? Eybi yox. 1-0 sənin xeyrinə, şöbə müdiri.

Otağma gəldim. Yerimdə oturdum. Kinimi biruzə vermədim.

Səhəri bazar günü idi. Bacanağa zəng etdim.

- Necəsən? Nə var, nə yox? Nə itib-batmısan, xalaoğlu? Görsənmirsən.

- Bu iş qoyur ki, başım açılsın? Qəzet çox məsuliyyətli yerdir, xalaoğlu. Özü də müxalifət qəzeti. Ayağımı qırağa ata bilmirəm. Bu gün "kakraz" bağa gedirik. Rayondan ət göndəriblər. Hazırlaşın. Gəlib sizi də götürüm. Kabab çəkək. Bir az dincələk.

Doğrusu, ürəyimdən oldu. Bacanağın balaca bağı vardı. "Bəylər" hakimiyyətdə olanda hansısa icra başçısı bağışlamışdı ona. Böyük bəyin sevimlisi olduğuna görə. Nəsə siyasi fəaliyyətində mən onu fanatik, sədaqətli adam kimi tanıyırdım. Amma hakimiyyətə qarşı bu cür sözlər yazmağını da qəbul edə bilməzdim.

Nə isə, maşına oturduq. Elə ağzımı açmağımı gördüm. Kükrəyib coşmağa başladı:

- Nə hakimiyyət-hakimiyyət salmısan? Sən indi nazirlikdə işləyirsən deyə, mən ağzıma su alıb oturmalıyam? O cür prezidenti devirib, gör kimi gətirdiniz.

- Kim onu devirdi? Özü qaçmadı ki?

Elə bil bacanağıma od qoydum.

- Nə qaçdı, hara qaçdı? Kələkiyə getmişdi də. Kələki Amerika- zaddır ki, qaça. Naxçıvandaydı da. Naxçıvan Azərbaycan torpağı deyil? Nə olmuşdu, hara tələsirdiniz? Qayıdacaqdı da.

- Neyləmişdi e sənə bu bəylər? Jurnalist adamsan da. Heç vəzifə də, pul da verməmişdilər. Bir evin var, onu da qayınatan sağ olsun, cehiz kimi verib. Yəni, sən belə korsan ki, ovaxtkı dövrlə indiki dövr arasındakı fərqi görmürsən? Heç olmasa məni nəzərə al da... Xalaoğluyuq axı.

- Guya sən yaxşısan? Nə olsun ki, nazirlikdə işləyirsən? Düz danışdığına görə adını dəli qoyublar. Sən söyəndə olar, mən yox?

Bacanaq yaxşı yerdə tutmuşdu məni. Sualının qarşısına cavab qoya bilmirdim. Xalaqızları da arxadan bizi dümsükləyib sakitləşdirməyə çalışırdılar. "Biz istirahətə gedirik, yoxsa mitinqə?" deyirdilər. Bu, azmış kimi bacanaq maşını düz Mahnı Teatrının qabağında saxlayıb, yerə düşdü və "ay camaat, mən bu hökumətə nifrət edirəm. Bu hakimiyyət devrilməlidir..." deyə qışqırmağa başladı. Bilmirdim nə edim. Guya ki, bacanağı islah etməyə gəlmişdim. Amma, əksinə, odun üstünə nöyüt tökmüşdüm.

- Yaxşı, Rahib, otur maşına, ayıbdır. Gedək. Tutub basarlar içəri, balalarına kim baxacaq?

Rahib mənim acığıma bir-iki "antisovet" söz də qışqırıb maşına oturdu. Yola düzəldik. Bağda da

baş-beynimi apardı. Bilmədim istirahətə getmişdim, yoxsa müxalifətin mitinqinə.

Səhər tezdən işə gəldim. Amma kadrların rəisi çağırsa, nə deyəcəyimi bilmirdim. Oturub işdən çıxarılma əmrimi gözləyirdim. Şöbə müdiri də o yan-bu yana keçərək mənə baxıb bığının altından gülümsəyirdi. Hərdən bir də "Mustafa, necəsən?" deyə soruşurdu.

Üç gündən sonra kadrların rəisi məni yenidən çağırdı. Qapını döydüm:

- Gəl, Mustafa, gəl. Necəsən?

- Yaxşıyam. Mən siz deyən kimi bacanaqla görüşdüm...

- Nə bacanaq?

- Bacanaq da. Qəzetdə yazı yazmışdı ye...

- Boş ver. Əsas sən özünsən. Dövlətimizə ürəklə, sədaqətlə, namusla, qeyrətlə xidmət edirsən. Bacanaqdır da... qoy nə yazır yazsın. İt hürər, karvan keçər. Biz belələrini vecimizə alsaq, adlarını çəksək çox böyük qiymət vermiş olarıq onlara.

- Axı siz...

- Mən yox... şöbə müdirin. Gəldi səni şeytanladı. İndi 37-ci il olsaydı, özün başa düşürsən də harda-dın? Ya KQB-nin padvalında, ya da ki, Nargin adasında qarğalara yem olmuşdun. Sənin şöbə müdirin kimi oğraşlar verib də xalqımızı bada. Bu gün də sənin işdən çıxmağınla bağlı raportu yazıb, qoyub qabağıma. İnanmırsansa oxu. Mən də danladım ki, sən kimsən

təqdimat yazırsan. Departament sədrin ölüb? Bacanağa gəldikdə... Amma sənə keçən dəfə demişdim də... yerində olsaydım boşayardım arvadı, çıxarardım onu bacanaqlıqdan.

- Boşaya bilmərəm. Xalam qızıdır. Bacanağım da xalam oğludur. Həm də xalam qızının əridir.

- Çox qəliz danışdın. Bu məsələni day yadına salma. Şöbə müdirinə də heç nə demə. Sən yaxşı adama oxşayırsan. Özü də ki, iyirmi ildən çoxdur ki, bu nazirlikdə işləyirsən. Bizim sənin kimi kadrlara böyük ehtiyacımız var. Boş-boş danışanlara baş qoşma. Sən mütəxəssissən. Özü də yaxşı mütəxəssisən. Sadəcə qədrini bilməyiblər. Qul kimi işlədiblər, özləri isə əlləri ciblərində gəziblər. Get otağına. Sənə üç gün vaxt verirəm. Keçmişdə necəydi, indi necə olmalıdır? İnkişaf konsepsiyası, nazirliyin gələcəyini necə görürsən, beynəlxalq təcrübədən istifadə, bu günəcən buraxılan səhvlər, bunların yaranma səbəbləri, səbəbkarlar. Gözəl bir hesabat yazıb hazırlayırsan. Gətirib verirsən şəxsən mənə. Şöbə müdirinə, departament sədrinə də heç nə demirsən. İşdən çıxarılma haqqındakı bu raportu da verirəm sənə - yadigar saxla. Dediklərimi yüksək peşəkarlıqla, canla-başla yerinə yetirsən, səni nazirimizin qəbuluna da salacağam.

Aman-Allah, qulağım nələr eşidirdi? Mənə qiymətmi verirdilər? Bəlkə bu da mənimlə məzələnir. Yox. Ciddi adama oxşayır. Mahnımı da oxumadı.

Çoxdandır başqaları da oxumur. Özümün də yadımdan çıxır yavaş-yavaş.

Mustafadı, Mustafa
Əlində də aftafa.

Otağa gəldim. Müdirə heç nə demədim. Oturub mənə verilən tapşırığı yerinə yetirməyə başladım. Birinci elə səbəbkarlardan - şöbə müdirindən başladım. Hansı qanunsuzluqlara yol verib, dövlət büdcəsindən nə qədər pul yeyib, köhnə nazirə nə qohumluğu çatır, hansı vəzifələrdə öz adamlarını yerləşdirib, oğurladığı pullarla aldığı evlərin, villaların, maşınların ünvanlarınacan, markasınadək yazdım. Sonra keçdim departament sədrinə. Onu da yudum sərdim. Nazir müavinləri, day kim qalmadı ki... "Mustafadı, Mustafa, əlində də aftafa" mahnısı oxuyanların hamısını ifşa etdim. Sonra isə keçdim mətləbə. Öz ixtisasım üzrə nazirliyin inkişaf konsepsiyasını hazırladım. Hesabatı iki yerə böldüm. Birinci hissədə mahnımı oxuyanlar barədə şəxsi məlumatlar, ikinci hissədə isə tezislər, planlar yer aldı. Beş gündən sonra kadrların rəisinin qapısını tıqqıldadıb kabinetinə girdim.

- Hazırdır, cənab rəis.

- Hə? Nə tez? Afərin sənə. Demişdim də, gözəl mütəxəssissən. Dediyimdə yanılmamışam.

- Cənab rəis, birinci papka işçilərlə bağlıdır, ikinci hissə inkişaf konsepsiyasıdır.

Rəis birinci papkanı həmən açdı. Oxumağa başladı. Mənimçünsə çay gətizdirdi. İki saat ərzində 30 səhifəlik birinci papkanı oxudu. Əlavə suallar da verdi. Cavablandırdım. İkinci papkanı heç açmadı da. Qıraqdakı stola tulladı.

- Afərin. Çox gözəl. Get otağına gözlə. Heç yana da çıxma.

Otağa gəldiyimi görmüşdüm, şöbə müdiri həyəcanlı vəziyyətdə gəldi ki, bəs nazir səni çağırır. Müdirim mənə hələ məsləhət də verdi:

- Bax a... orda gicləyib eləmə. Bu sənin çün biz deyilik. Sukalardan xoşu gəlmir.

Qəbul otağına girdim. Bir saat gözlədim. Nəhayət çağırdılar. İyirmi beş ildir ki, burda işləyirdim. İlk dəfə idi nazirin otağına qədəm basırdım. İki addım atıb dayandım. Mənim hesabatlarım qabağındaydı. Təpədən dırnağacan süzdü məni.

- Neçə yaşın var?

- 48.

- Bəs bu nə geyimdir? Qoca kişilər kimi geyinmisən. Cavan oğlansan. Özünə fikir ver. Camaat sənin yaşında evlənir e. Sən isə...

- Cənab nazir, maaşım aşağıdır. Evin xərcini güclə çatdırıram. Ona görə.

- Eybi yox. Bu, düzələn problemdir. Hesabatların yaxşıdır. Oxudum. Bizə sənin kimi kadrlar çox

gərəklidir. Hələlik isə, - üzünü kadrların rəisinə tərəf çevirib, - ver bunun əmrini, getsin.

Ayaqlarım əsdi. Səhərdən tərifləməyi nə idi, əmrimi verməyi nə? Kabinetdən çıxdım. Özümü söyürdüm. Şöbə müdirim düz deyirmiş də... Nazir sukaları sevmirmiş. Axı, Mustafa, sənin nəyinə lazımdır ki, filankəsin üç evi var, dörd villası var, maşını var. Bax, sənə nə? Bacarana can qurban. Elə et ki, sənin də olsun.

Arxamca kadrların rəisi də çıxdı. Birlikdə otağına getdik. Qabağıma kağız, qələm qoydu.

- Yaz!

- Başüstə.

- Sabahkı tarixlə yaz. Nazir tapşırıq verdi ki, sənin əmrini sabahdan verim.

- Axı, nə pis iş gördüm ki? Siz dediniz, mən də yazdım. Nə təqsirim var axı?

- Nə təqsir. Yazmısan, lap düz də eləmisən. Təbrik edirəm səni, şöbə müdirinin müavini Mustafa İsgəndərli. Amma öz aramızdır, qəşəng familiyan var a... Kefli İsgəndərin nəticəsi-zad olarsan a birdən?! Eşitmişəm. İşçilərə Kefli İsgəndər sayağı yaman ilişməyin var. Amma bütün bunları qoyuruq bu gündən kənara. Sən sabahdan şöbə müdirinin müavinisən. Dolanışığını da departament sədrinə tapşırdıq. Özünə yaxşı əyin-baş al. Yadında saxla ki, sən nazirimizin o şöbədə görən gözü, eşidən qulağı, lazım olsa vuran əlisən.

Bundan sonra da diqqətli ol, ayıq ol. Dostunla düşmənini tanı. Nə sözün də olsa, istənilən vaxt qapımı aç, gir, mənə de. Bildin?

- Bildim, cənab rəis. Mən də çalışacağam ki, cənab nazirin, sizin...

- Yaxşı, get işlə. Şöbə müdirindən də çəkinib eləmə. Nəsə ondan gözüm su içmir. Ümidim sənin kimi adamlaradır. Haqsızlıq eləsə, xətaya yol versə, çıxart gözünü.

İyirmi beş il bir kollektivdə işləyəsən, "Mustafadı, Mustafa, əlində də aftafa" mahnısından başqa söz eşitməyəsən. Təzə nazirsə gələn kimi işdən çıxartmaq əvəzinə sənə vəzifə, pul verə? Hələ də gözlərimə, qulaqlarıma inanmırdım. Elə bil istidən soyuğa düşmüşdüm. Nazir gözümdə böyümüşdü. Sevinirdim. İlahi, 48 yaşında məni də qiymətləndirən tapılmışdı.

Səhəri gün evdə, daha doğrusu, tualet-hamamda təmirə başladım. Sovet dövründən qalan kafelləri, boruları, nə var idi hər şeyi zibilliyə atdım. Su-kanalizasiya sistemini yenidən qurdurdum. Təzə ispan kafeli vurdurdum. Tualetə müasir aftafa-smestitel qoydurdum. Həm isti, həm də soyuq suyu vardı. Bu günəcən bilmirmişəm. İsti suyun başqa ləzzəti varmış. Köhnənin qırmızı aftafasını son dəfə əlimə aldım. "Mustafadı, Mustafa, əlində də aftafa" mahnısını oxuya-oxuya həyətə düşdüm. Heç nə demədim. Bircə "əlvida" deyib, vızıldatdım zibilliyə.

Bazar ertəsi təzə kostyum, ayaqqabı, paltoda işə gəldim. Hamının gözü kəlləsinə çıxmışdı. Şöbə müdiri məni görəndə qaraldı. Mən də ona heç diqqət də vermədən müavin otağımın qapısını açdım. Köhnə stolumun üstündəki kağız-kuğuzu yığışdırıb kabinetimə gətirdim. Kompüter sexinin rəisinə zəng edib təzə kompüter tələb etdim. O saat da əməl elədi. İnternetə də qoşdular. Ağızları nə idi ki, eləməsinlər. Axı, mən nazirin adamı sayılırdım. Şöbə müdiriylə otaqlarımız üzbəüz idi. Qəbul otağımız isə eyni. Ceylanın qızı isə ortaq katibəmiz. Tez-tez otağıma girib çay, qəhvə təklif edirdi. "Bu kostyumu hardan almısınız? Sizə çox gözəl yaraşır. Şık göstərir" deyirdi. Bu da mənim ürəyimə yağ kimi yayılırdı. Yoxsa ki, arvadım. Səhər işə gələndə "mübarəksən. Təzə vəzifən uğurlu olsun" söyləməkdən nə desə yaxşıdır: "Mustafa nə geyinib-keçinmisən? Bazlığa gedirsən?"

Nəsə yeni sözlər eşidirdim. Amma nazir tapşırdığı kimi özümü çox ciddi aparırdım. Bəzən ifrata da varırdım. İşçilərin üstünə qışqırırdım. Şöbə müdirinin həyatını isə elə həmin gündən göy əskiyə çevirdim. Bir sənədə də mənim razılığım olmadan qol çəkə bilmirdi. Nazirin yanında keçirilən iclaslara onu yox, məni çağırırdılar. İşçilərinin yanında da hörməti qalmamışdı. Bu günəcən elədiklərini hamının yanında, nümayişkəranə bir-bir açıb deyirdim. Yığdıqlarını, aldıqlarını faş eləyirdim. Yemək-içməyini karvalolla,

insulinlə əvəzləmişdim. Ərizə də yazırdı, işdən çıxarmırdılar. Yalvarırdı, pul da təklif edirdi - əl çəkmirdim. Nə qədər çalışırdımsa, yazdığı raport gözümün önündən getmirdi. Stolumun üstündə qoymuşdum ki, birdən ürəyi yumşaqlıq edib yazdığını, şərləməyini yadımdan çıxararam. Axı mən ona neyləmişdim? Tıxsız balıq idim də. Mərdi qova-qova namərd eləyərlər? Nazir də bundan ləzzət alırdı, həm də cibin doldururdu. Hər iclası şouya çevirirdim. Kimsə cürət edib "Mustafadı, Mustafa, əlində də aftafa" mahnısını oxumurdu. Boğazlarını üzərdim. Amma nə edirdimsə aftafadan uzağa gedə bilmirdim. Bu dəfə adımı başqa cür çağırırdılar: "Biz demə 25 ildir ki, Mustafanı tanımırmışıq. Əli pula, vəzifəyə çatdı, gördün necə dəyişdi? Burda deyiblər e ..."aftafa görməyən göt..."

Nəhayət, bir gün şöbə müdirini çərlədib öldürdüm. Bu posta yeganə namizəd isə mən oldum. Artıq Ceylanın qızı yalnız mənim katibəm idi. Katibə yox e... sağ əlim. Tapşırıqların çoxunu ona verirdim, mühüm işləri ona həvalə edirdim. 18 yaşı olmasına baxmayaraq bacarıqlı, qabiliyyətli uşaq idi. Özü də çox gözəl idi. Ədəb qaydalarına riayət edirdi. Mədəniyyətli idi. Başqaları kimi, telefonda, feysbukda itib-batmırdı. Türk seriallarından danışmırdı. Məqam tapan kimi, test tapşırıqları edirdi. Ali məktəbə hazırlaşırdı. Nazlıyla yaşıd olduğundan qızım kimi baxırdım ona.

Amma hər dəfə anası Ceyla və namus üstündə məni döyən biqeyrət atası yadıma düşəndə az qalırdı ki, işdən qovum. Amma əsəblərimi cilovlayırdım. Fikirləşirdim ki, anasının günahlarına görə axı bu uşaq niyə cavab verməlidir? Bir də ki, mənim məqsədim, məramım tam başqadır axı. Birinci, nazirin etimadını doğrultmaq, ikincisi də irəli getmək.

Növbəti hədəf isə nazirin məsləhətiylə departamentimizin sədri idi. O, şöbə müdiri kimi deyildi, savadlı, həm də arxalı idi. Onun üzünə durmaq da çətin idi. Zibillərini sən deyən bilmirdim. Böhtan atmalıydım, ləkələməliydim. Axı nazir belə tapşırıq vermişdi. Mənim isə nazirə mənəvi borcum vardı. Axı kimiydim, Allahın bədbəxt bəndəsi. O məni bataqlıqdan çıxartdı. Nəinki işdə saxladı, şöbə müdiri qoydu. "Aylıq" təyin elədi. Hökumət maşınım da öz yerində. Məişət qayğılarımla da maraqlanırdı. Yeni mənzillə təmin olunmuşdum. Evdar qadın olan arvadımın səsi artıq gözəllik salonları, sauna, fitness-zallardan gəlirdi. Ev işlərini qulluqçu görürdü. Mən də öz işimdə idim. Departament sədrinin özünü də, kölgəsini də qamçılayırdım. Sanki qanına susamışdım. Necə də susamayaydım. Axı nazirin əmri belə idi. Nazir yox e, xeyirxahım, çörək verənim. Axı mən hara, şöbə müdirliyi hara? Evdar qadın arvadım hara, fitnes-salon hara? Departament sədrinin mənə nə yaxşılığı dəymişdi, nə də pisliyi. Amma mən mərdi qova-qova

mənəviyyatımı məhv eləmişdilər. Zombiləşmişdim. Günlərin bir günü departament sədrinin də torbasını tikdim. Nazirlikdə xüsusi hörmətə malik idim. Deyirdilər mən şeytana papış tikirəm, arxasında da balaca bir deşik qoyuram. Əvvəllər "danışmağ"ıma görə məni ələ salanlar, "hürdürənlər", indi sadəcə mənimlə ünsiyyətdən qaçırdılar, qorxurdular. Çünki artıq "hürmürdüm", "tuturdum". İştahım yaman artmışdı. Aftafamı gizlətsəm də, yenə də adımdan təmizləyə bilmirdim. Addım-addım izləyirdi məni. "Mustafadı, Mustafa, əlində də aftafa" mahnısını unutdurmuşdum. Adımdan atmışdım. İndi də "Aftafa görməyən göt" adlandırırdılar məni. Aftafasız qalmışdım, görəsən ona görəmi? Axı inkişaf etmişik. Ən kasıbı mən idim, mən də evi təmir elətdirib, aftafanı atmışdım. Bəs indi nə istəyirlər məndən? Olanda da vay, olmayanda da. Qərara aldım ki, belə şeylərə fikir verməyim. Axı məqsədim tam başqa idi.

İllər ötürdü. Artıq Ceylanın da qızı universitetə daxil olmuşdu. Qiyabi oxuyurdu. Bilmirdim pulu hardandır. Amma çox zövqlə, brend mağazalardan geyinirdi. Fransız parfümünün ətri bütün mərtəbəni götürürdü. Babalına girə bilmərəm, pis hərəkətini görməmişdim. Əvvəlki qaydada işinə davam edirdi. Qızım isə ali məktəbə girə bilməmişdi. Boş qalmasın deyə Nəsrulla Şeyxzadədən xahiş etmişdim ki, Nazlını nazirlikdə hər hansı bir şöbəyə komputer işinə

götürsün. Sağ olsun, etiraz etməmişdi. Babat da maaşı vardı. Nazirin etimadını da qazanmışdı. Xüsusi yazıları ancaq ona tapşırırdı. Çünki Nazlı həm savadlı idi, həm də sürətlə yazırdı.

Bacanağımgil də yaxşı yaşayırdılar. Deyəsən, haqq yoluna qayıtmışdı. Artıq bu hökuməti söymürdü. Əksinə, tərifləyirdi. Televiziyaların birində yaxşı iş vermişdilər ona. Cəmiyyətin hörmətli adamına çevrilmişdi. Yenə də adəti üzrə söyürdü. Amma iqtidarı yox, müxalifəti. Niyə də söyməsin. İqtidarı söyəndə ac gəzirdi, müxalifəti söyəndə tox. Qırx yaşında axır ki, haqqın yolunu tapmışdı. Bilmirəm, bəlkə də islah eləmişdilər. Bəlkə də demişdilər ki, "biz sənə demirik ki, hürmə. Hür. Amma qonşu həyətə".

Mən daha bir ev almışdım. Maşınım, bağım da vardı. Bədheybət arvadım isə öz işindəydi. Gözəllik salonlarını gəzir, sauna, fitnes zallarına gedir, guya dəyişmək, gözəlləşmək, müasirləşmək istəyirdi. Amma nə etsə də alınmırdı. Yenə də gəlib hirsini mənim üstümə tökürdü.

Bütün bunlara görə isə mən nazirimiz Nəsrulla Şeyxzadəyə borcluydum. Məni adam yox e... kişi eləmişdi. Özü də bu yaşımda.

Qulağım isə səsdə idi. Gözləyirdim ki, nazir çağıracaq və məni departament sədri qoyacaq. Lakin nə telefonum zəng çalır, nə də departamentə sədr qoyulurdu. Sadəcə şöbə müdiriydim.

Ceylanın qızı da son vaxtlar məni özünə yaman çəkirdi. Sənədləri imzalatdırmağa gələndə, başını masamın üstünə əyəndə saçları üzümə dəyirdi, parfümünün ətrindən bihuş olurdum. Az qalırdı ki, boynundan öpüm. Amma özümü saxlayırdım. Çalışırdım ki, ona tərəf gözümün ucuyla da baxmayım. Axı mənim öz missiyam var idi. Mən nazirin adamıydım. Belə işlərlə adıma ləkə yaxa bilməzdim.

Günlərin bir günü peşə bayramımız idi. Hamını arvadıyla çağırmışdılar. Mən də arvadı vurdum qoltuğuma gəldim şadlıq sarayına. Düzünü desəm, arvadım çox kifir idi. Evdəkilər məsləhət görmüşdülər. Atama dedim ki, ay kişi, axı kifirdir. Mən isə yaraşıqlı... Heç yaraşmırıq. Dedi ki, "bəs bilmirsən? Kişinin arvadı kifir olmalıdır ki, qıraqdan o-bu baxmasın". Mən də razılaşdım. Axı o vaxt nə biləydim ki, kənd uşağı olan mən nəvaxtsa şəhərə gələcəyəm, nazirlikdə işləyəcəyəm. Yüksək vəzifə tutacağam. Cəmiyyətin ayranından qaymağına çevriləcəyəm.

Bayram şənliyində başladılar bizi qəribə-qəribə süzməyə. Gözlərindən oxuyurdum: "Buna bax e... o boyda nazirliyin o boyda vəzifəlisidir, arvadı meymuna oxşayır". İnsafən düz deyirdilər. Amma dəxli yox idi. O, mənim arvadım, namusum idi. İkincisi də, nə deyirlər desinlər... dəxli yoxdur. Bunu görüb, bunu başa düşürdüm. Amma hadisələr hansı məcraya gedirdi, bunu bilmirdim. Heç ağlıma da gətirmirdim.

Yenə də nazir mənim gözümdə, əstəğfürullah, Allah idi. İllər isə ötürdü. Departament sədri olmasam da nazirin yaxın adamı kimi bütün işləri mən aparırdım. Amma "VRİO" – departament sədrinin vəzifəsini icra etmək – səlahiyyəti üzürdü məni. Günlərin bir günü nazir axır ki, bu mövzunu açdı.

- Səni departament sədri qoymaq istəyirəm, amma...

Ortaya bir sükut çökdü. Görəsən nə olub, nə xəta çıxarmışam? Bu zaman kəsiyində nə qədər fikirləşdimsə heç nə tapa bilmədim: "amma..." Nə "amma?" Nazirsə susurdu.

- Nə isə... Milli Məclisin seçkidən sonra daimi komissiyasının ilk iclası var, sənin adını vermişik. Get ekspert kimi iştirak elə. Sonra danışarıq. Mən də Aparata getməliyəm.

"Amma" beynimi qazırdı. Başa düşə bilmirdim ki, bu "amma" nə əmmadır. Heç nə anlaya bilmirdim. Heç nə fikrimdə deyildi. Departament sədrliyinə bir addımlıqda bu nə "amma" idi ortalığa çıxmışdı, bilmirəm.

Milli Məclisə getdim. Özümü çəkib oturdum. Hələ televiziya operatorlarından birinin cibinə pul da basdım ki, məni yaxşı çək-göstər. Bir də gördüm ki, bacanaq da ordadır.

- Bacanaq, sən hara, bura hara?

- Belə qohumsan da. Vəzifəyə keçəni böyümüsən, pulun artıb. Bacanaq-zad hərrəmirsən. Demirsən

sağdır, ya ölüb? Adam vəzifəli olanda nə olar? Biz rəiyyəti də bir yadına sal da.

- Boş-boş danışma. İşdən başım ayılır ki? Nazirin kəbinsiz arvadına dönmüşəm. O qədər iş tapşırır ki, bəzən adımı da yaddan çıxarıram.

- Get nazirlikdə də fəxr elə. Bacanağın deputatdır.

- Nə? Deputat? Nə əcəb seçdilər səni? Sən bu hökumətin özünü də, kölgəsini də qamçılamırdın? Açıq-aydın söymürdün? Nə oldu bəs? Necə çatdın bu mərtəbəyə?

- Bu hökuməti söyə-söyə.

- Başa düşmədim.

- Söyə-söyə. İqtidar da gördü ki, səhv yoldayam. Yolumu çox azmışam. Çox söhbət apardılar. Mənə partiyanın, dövlətin siyasətini başa saldılar. İş verdilər, pul verdilər, ev verdilər. Dolanışıq üçün yer düzəltdilər. Mən də tövbə etdim, qayıtdım haqq yoluna. İslah olundum. Sonradan yaman həvəsləndim. Başladım cəbhəçi silahdaşlarımı söyməyə. Özü də iqtidarın əlində olmayan, ancaq mən bildiyim faktlarla söyməyə. Axı necə olsa daxili mətbəxlərini, zəif yerlərini bilirəm. Mustafa, mən tək deyiləm, çox adam düz yola qayıtdı. Sağlıqlarına qismət, indi vəzifə, mal-dövlət sahibləridir. Mənim qismətimə də deputat olmaq yazıldı.

- Bəs əvvəldən tərifləyənlər, bu hakimiyyəti ürəkdən sevənlər nə oldu?

- Ay Mustafa, sən görmüsən ki, molla dinli-imanlı adamı düz yola çəkə? Tövbə elətdirə? Yox. İçki içəni, nəşə çəkəni, narkomanı, əyyaşı düz yola çəkərlər. Tövbə elətdirərlər. Sən dediyin o tərifləyənlər onsuz da düz yoldadırlar. Acından ölsələr də dediklərini deyib duracaqlar. Amma mən səhv yoldaymışam. Bu cür hökuməti də söyərlər? Sən onda haqlıydın. Gərək sənə onda qulaq asaydım. O vaxt haqq yoluna qayıtsaydım, bəlkə də nazir idim. Amma buna da şükür. Xəbərin var da... Xalan qızını da boşayıram.

- Nə?

- Boşayıram. Qəti qərarımdır. Səncə, mən onunla dövlət tədbirlərinə getsəm camaat nə deyər mənə? Küçəyə çıxmağa utanırdım, deyirsən ziyafətlərə aparım? İmtina etmirəm ki, uşaqlara nə kömək lazımdır, edəcəm. Milli Məclisdə birini gözaltı eləmişəm. Bir nəfərin referentidir. Özü də çox gözəldir. Düzdür, ulu nənəsi ermənidir. Amma atası tərəf köklü nəsildir. Xarici maşın firmaları var.

- Deməli, söyə-söyə gəlib bu mərtəbəyə çatdın. Qınından da çıxdın, qınını bəyənmədin. Xalaqızını da bu yaşda bədbəxt edirsən. Eləmi?

- Guya sən bu vəzifəyə söyə-söyə gəlməmisən? Bircə müxalif qəzetlər yazmırdı sən deyənləri. Nazirlikdə hamının zibilini üzlərinə demirdin?

- Deyirdim. Üzlərinə. Amma hökumətə, dövlətə toxunmurdum. Deyirdim ki, nəticə çıxarsınlar.

- Yaxşı da... Day bizə də yox da... Sonda da təzə nazirə sukalıq elədin. O da səni böyütdü. Sən nazirlik səviyyəsindəsən, mən isə respublika. Fərqimiz bircə budur. Çox danışma.

Ayaqlarım yerə dirənmişdi. Bacanaq elə bil həmin adam deyildi. Deputat olmuşdu. Amma yenə də irəli getmək istəyirdi. Qarşısında isə heç nə görmürdü. Lap Çingiz Aytmatovun manqurtu kimi deməydilər ki, ananı öldür, öldürəcəkdi. Yazıq xalam qızı. Müzakirələrdə iştirak edib geri qayıtdım.

* * *

Nazir bir gün məni yenə yanına çağırdı. Əsəbi idi. Dedim yəqin nəsə eləmişəm. Amma elə şeydən başladı ki, heç ağlıma da gətirməzdim. Uzun söhbətdən sonra belə məlum oldu ki, mən bu vəzifəyə layiqəm, amma arvadım bu vəzifəyə layiq olan mənə yaraşmır. Kifirdir. Eyham da vurdu ki, bəlkə boşayasan? Dedim ki, "ay kişi, birincisi yaşım əlliyə çatıb. İkincisi, qızım böyükdür. Üçüncüsü də, mən ailəmdən razıyam. Dördüncüsü də, kimdir axı mənə gələn..." Təki dördüncünü deməyəydim. Nazir də elə bunu gözləyirdi. Dedi ki, a kişi, elə nazirlikdə neçəsi ölür sənincün. Bir dənə papaq eləsən, dava edərlər üstündə. Elə biri sənin şöbəndəki o kompüterçi Gülya... Sən də başlamısan ki, 50 yaşım var. Bəs uşaq böyüyüb. Sənə kim

deyir ki, uşaqlarını at. Dolandır, evləndir. Arvada da görüm-baxım elə. Amma mənimlə razılaşarsan ki, sənin kimi adam, özü də ki, departament sədri olsan... sənin kimi vəzifəli adama qəşəng, cavan qız layiqdir. Məşədi İbada baxmamısan? Ömrü boyu əziyyət çəkmisən. İndi keyf elə, nə qədər mən nazirəm. Dayanmışam arxanda. Gülyayla evlənsən şəhərin mərkəzində bir dənə dördotaqlı mənzil də məndən hədiyyə, xanımına da bir maşın.

Otaqdan suyu süzülə-süzülə çıxdım. "Departament sədri olsan..." Deməli, deyilənlər şərt idi. Əlbəttə ki, razılaşmazdım. Nə olsun ki, nazirimdir. "Axırıncı aşırımda"kı Kərbəlayı demişkən, "namusumuz, qeyrətimiz var, bəy". Özü də ki, bu nə şərtdir e... evlənməyin mənim işimə nə dəxli var axı?.. Özü də cavan qızla. Kabinetimə girdim. İstədim ərizəmi yazım. Amma əl saxladım. Dedim ki, olmasın departament sədri, olsun şöbə müdiri. Bura da mənim üçün pis deyil. Ərizə yazsam, həm də hörmətsizlik olar axı?! Nazir deyər ki, bu qədər yaxşılığım keçib, indi bir sözdür də dedim, hər şeyin üstündən xətt çəkdi. Nə isə oturdum yerimdə. Heç kimə də cürət edib danışa bilmirdim. Sanki donmuşdum. O gündən sonra kompüterçi qız da elə bil daha çox nəzərimi çəkməyə başlamışdı. Elə bil nazirin sözü məni bir az yerimdən oynatmışdı. Qız da məni görəndə qımışırdı, qızarırdı. Kabinetimə girəndə ürəyim atdanırdı. Fikirləşirdim ki, görəsən

bu cür gözəl, cavan qız məndə nə görüb axı? Amma birtəhər qara fikirləri qəlbimdən uzaq qovurdum. Amma demə vəzifə, pul mənəviyyatımı aşındırıbmış. Aşındırmaq nədir, məhv eləyibmiş. Departament sədrliyinin bir adımlığında idim. Digər "zirvə"lərə də tamahım düşürdü. Biliyimlə, bacarığımla da böyük vəzifələrə layiq sayılırdım. Beynim kompüter kimi işləyirdi.

Beləcə, iki ay keçdi. Əvvəlki kimi şöbə müdiri, "VRİO" sədr idim. Amma departament sədrinin yeri əvvəlki kimi boş idi. Hiss edirdim ki, nəsə oyun gedir. Görən-görən də soruşurdu ki, "a kişi, nə vaxt sədr olacaqsan?" Və ya "ehtiyatlı ol a, yer əlindən çıxar". Ya da ki, " nə durmusan, hərəkət elə".

Bu sözlər məni lap əsəbiləşdirirdi. Həyatımda çox görmüşdüm belə şeyləri. Əvvəlcə baş-beynimi aparırdılar ki, evlən, evlən! Nəhayət evləndim. Görən-görən başladı soruşmağa ki, ata olmamısan? Deyirdim ki, yox. 2-ci sual verirdilər ki, gözləyirsən, ya yox? Yəni ki, arvadın hamilədir, yoxsa yox? Uşaqlar olandan sonra dedim ki, yəqin canım qurtardı. İndi soruşurdular:

- Nəyin oldu?

- Qızım.

- Yox, bir dənə də oğlan hökmən lazımdır. Qocalanda kim sənin çün çörək alacaq? Bekar dayanma. İşlə!

Bu yolları keçmişdim. Lakin bu dəfə əsəblərim dözmədi. Nazirin yanına girdim:

- Böyüyümsən. Nəinki evlən, öl də desən, ölərəm sənin bir sözünlə. Ağsaqqalımızsan.

Nazirin kabinetindən çıxdım. Evə gəldim. Qapını qızım açdı. Həmişə olduğu kimi, ayaqqabılarımın bağını boşaltdı. Pencəyimi çıxartdı. Arvadın heç vecinə də deyildi. Böyük otaqda oturub televizora baxırdı. Paltarımı dəyişib, əl-üzümü yuyub mətbəxə keçdim. Qızım çay süzdü. Yeməyi qızdırdı. Qaba çəkib qabağıma qoydu.

- Ata, nə olub? Nəsə qayğılı görünürsən? Bir hadisə baş verməyib ki?

- Heç nə.

- Görürəm, axı, nəsə olub?

- Sənə heç bir dəxli yoxdur. Mən qərar verdim ki, anandan ayrılam.

- Nə?!

- Anandan boşanıram. Bu gün buna qərar verdim. Daha sən böyüksən. Məni başa düşərsən. Ananın mənə bu laqeydliyinə dözə bilmərəm.

- Ata, axı mən varam.

- Sən də bu gün-sabah ərə gedəcəksən. Çıxıb gedəcəksən.

Qızımla qısa söhbətdən sonra yataq otağıma keçdim. Şəxsi əşyalarımı, pal-paltarımı yığışdırmağa başladım. Səsə arvadım da gəldi.

- Gedirsən? Belə cərə get, cəhənnəmə get. Səni saxlayan var? Kimə lazımsan axı, ay qoca kaftar? Mən

idim e, bu uzun illər sənə dözən. Başqası olsaydı çoxdan qayıtmışdı atasının xarabasına. Pulun artdı, dilin çıxdı. Qınından çıxdın, qınını tanımadın? Tısbağanın biri tısbağa.

Nə? Tısbağa? Demə, Mustafanın aftafa qafiyəsindən başqa da qafiyəsi varmış? Arvad hey söysə də cavab vermədim. Pal-paltarımı yığışdırıb evdən çıxdım. O biri mənzilimə gəldim. Amma ürəyimdə bir nigarançılıq vardı. Qızımdan narahat idim. Anası kimi heç nə demədi. Məni qınamadı da...

Beləcə, rəsmi olaraq arvaddan boşandım. Günlərin bir günü nazir məni maşınına otuzdurub Gülyagilin evinə gəldik. Bizim gəlməyimizdən xəbərdar idilər. Yaxşı süfrə açmışdılar. Stolun bir tərəfində nazirlə mən, o biri tərəfində isə Ceylayla əri oturmuşdu. Ona baxdıqca Ceylanın idarə rəisinin otağından qan-tər içində, priçoskası dağılmış, pamadasının rəngi üzünə yaxılmış, "pul sayan" vaxtları gözlərimin önünə gəlirdi. Ərinə baxdım. Namusunu qoruyaraq nazirliyin qabağına gəlib məni küçədə tutub yerə sərməyi, "Ay oğraş, sən mənim arvadıma böhtan atırsan? Mənim namusumu ləkələyirsən?" dediyi o günlər yadıma düşdü. İndi isə mən onların qabağında gələcək kürəkənləri kimi kirimişcə, utana-utana oturmuşdum. Yatsaydım, yuxuma da girməzdi. Nazir isə danışırdı. İsmətdən, abırdan, həyadan. Bir qızın bir oğlanın olmasından. İlhamə Quliyevanın "Yaşın nə fərqi var ki"

mahnısından sitat da gətirirdi. Onun xeyir-duasıyla arvadını boşayan məni tərifləyirdi, bir də qız uşağı olan Gülyanı. Ceylayla əri də eləcə durub qulaq asırdılar. Ləzzət edirdi onlara nazirin bu sözləri. Ortaya çay gəldi. Ceylanın əri əlini qənddana apardı. Razılıq əlaməti olaraq çaya qənd saldı. Xeyir-dua verdi. Hələ qayınata kimi "Mustafa, axır ki, ağıllandın" dedi. Kiçik bir kampaniya keçirib Ceylanın qızıyla evləndim.

Qızım isə heç nə demirdi. İşdə rastlaşırdıq. Həminki münasibətini yenə saxlamışdı. Artıq departament sədri idim.

Üstündən altı ay keçdi. Erkən bir oğlumuz dünyaya gəldi. Adını da nazir qoydu - öz şərəfinə - Nəsrulla. Allahdan oğul payı istəyirdim, o da oldu. Ceylanın qızı bəxş etdi onu mənə. Nazir onu bizdən də çox istəyirdi. Evimizin əziz qonağına çevrilmişdi. Bundan sonra departament sədri kimi xarici səfərlər də mənə həvalə olundu. Müqavilələr bağlayırdım. Ayın iyirmi gününü xaricdə olurdum. İşçilər məni görəndə nəsə qımışan kimi olurdular. Səbəbini anlamırdım.

Milli Məclisdə keçirilən komissiyaların iclasına da mən gedirdim. Xalaoğlu-bacanaqla da orda rastlaşırdım. Oğlundan giley-güzar edirdi:

- Ay Mustafa, oğlum xaricdə institutu bitirib gəlib. Açıq fikirli adamdır. Ağzına nə gəlir danışır. Hökumətin atdığı bəzi iqtisadi addımları pisləyir. Deyirəm ki, ay bala, söymə. Aton deputatdır. İqtidar adamıdır. Nə

desə yaxşıdır? “Ata, söyəcəm, lap o yana da keçəcəm. Sən söyə-söyə bu mərhələyə çatmadınmı? Mən də söyürəm ki, sənin yaşına çatanda deputatdan-zaddan olum. Ay Mustafa, bacarmıram onunla. Deyirəm ki, o boyda xarici universitet qurtarmısan. Qalıb orda bir iş tapa bilmirdin? Elə bil ki, anasının acığını çıxmaq istəyir məndən. Anası da ki, beynini doldurur. Deyir ki, cavanlıqda mənim atamın şotuna kişi oldu, indi də nənəsi erməni olanın.

Mən isə qızımdan narahat idim. Nəzarətimdən çıxmışdı. Məni saymırdı. Günlərin bir günü yenə xaricdəydim. Zəng elədilər ki, bəs birinci arvadım ölüb. Səfəri yarımçıq qoyub geri qayıtmalı oldum. Çox pis olmuşdum. Bir il yarım idi ki, ayrılmışdıq. Sanki özümü taqsırkar sanırdım onun ölümündə. Naziri xəbərdar etməyi belə unutmuşdum. Evə gəlib paltarımı dəyişdim. Heç kim yox idi. Aşağı düşüb taksiyə minəndə, gördüm ki, nazirin maşını dayanıb. Yaxına getdim ki, bəs məsələdən hali edim. Arvadım maşından düşdü. Mənimlə görüşüb bloka tərəf getdi. Naziri dal oturacaqda görəndə elə bil məni ildırım vurdu. Heç nə deyə bilmədim. Maşına yaxınlaşmağa belə qorxdum. Cürətim çatmadı. Nə baş verir? Anlamırdım. Elə bil yuxudan oyanmışdım. Amma bugünədək oynanılan oyunları hələ də anlamırdım.

Hüzürü yola verdim. Qızım da məndən incik idi. Yeni arzularım da puç olmuşdu, keçmişim də. Deməli,

belə çıxır ki, arvadım nazirlə gəzir? Onda bir kişi kimi ya arvadı boşamalı, ya öldürməli, ya da oğraşlığı boynuma almalıydım.

Bəs vəzifə? Boşasaydım, nə deməliydim? Naziri arvadımla maşında bir görmüşəm? Deyəcəkdilər, nə olsun ki, yataqda tutmamısan ki. Tutsaydın bu, başqa məsələ. Nazirə böhtan atma. Üstəlik nazirin gözündən də düşəcəkdim. Bəs vəzifə? Belə çıxır, vəzifəmdən də olacaqdım? Üstəlik Nazlını da çıxaracaqdılar. Yox, nə edirlər etsinlər, bircə vəzifəmə toxunmasınlar. Axı bu vəzifəyə görə ailəmi dağıtmışdım... Dağıdıb vəzifə almışdım. Amma bu dəfə vəziyyət başqa cür idi. Ailəmi dağıtsaydım, vəzifəmi itirəcəkdim. Hətta qanun pozuntularına görə tuta da bilərdilər. Məhv edilmiş mənəviyyatımı artıq dəfn eləmişdilər. Ona görə də sadəcə olaraq dözürdüm. Lakin məsələnin əsl mahiyyətini anlamırdım. Sadəcə, nazirlə arvadımı maşında görməyi xəyanət kimi qiymətləndirirdim. Amma bunları nazirin üzünə vurmaqdan, ona biədəb söyüşlər yağdırmaqdan qorxurdum. Anasız qalan qızım da gözümün qabağındaydı. Üzdə narazılığını biruzə verməsə də, içini gözlərindən oxuyurdum.

Günlərin bir günü departament sədrlərindən birini işdən çıxartdılar. Bir şöbə müdiri var idi... yoluğun biri idi. Vəzifəni ona həvalə etdilər. Hamı məəttəl qalmışdı ki, bu nə məsələdir? Bunun əlindən bir iş gəlmir axı? Ailəsini də tanıyırdıq. Özündən fərqli olaraq

ataman arvadı vardı, bir dənə də xəstə oğlu. Bir gün xəbər gəzdi ki, bəs bu yazıq adam arvad-uşağı boşayır. Sonra da xəbər yayıldı ki, bəs nazirlikdə katibə qız var, hərif bəs ona vurulub. Fikirləşirdim ki, axı burda nə var? İnsandır da, vurulub. Məhəbbət azaddır. Qısa bir vaxtdan sonra bu yoluğu departament sədri təyin etdilər. Günlərin bir günü nazir mənə zəng edib dedi ki, axşam sizə gələcəyəm, evdə ol. Öz-özümə fikirləşdim ki, bu nə əcəb məni xəbərdar edir. Ya da ki, sözü varsa otağına çağırıb desin də. Nəsə dalağım sancdı. Axşam gələndə isə tək deyildi. Yeni departament sədri yanında idi. Nazir isə söhbətə "Bir qız bir oğlanındır" sözü ilə başlayanda sanki başıma qaynar su tökdülər. Nazlımı departament sədrinə istəməyə gəlmişdi. Razılıq verdim, ağzım nə idi ki, verməyim. Cavab verməyə sözüm yox idi. Qız da üzümə durmuşdu ki, "gedəcəm ona". Dedim ki, yaşlıdır, sən cavan. Dedi ki, sən də yaşlıydın. Dedim ki, axı ailəsi var. Uşağı da xəstə-əlil. Dedi ki, sənin də ailən var idi, mən vardım. Nəhayət, dedim ki, deməli qızım, sən nazirin məşuqəsisən, hə?... Dedi ki, burda nə var ki, cavan arvadın da elə əvvəldən nazirin məşuqəsi olub da... Guya ki, tikdirib altına girməyini bilmirsən? Bu qədər avamsan? Altı aylıq, amma əslində doqquz aylıq oğlun da ondandır. Yaxşı ki, razılıq verdin onu almağa, yoxsa nazirin el içində biabır olacaqdı. Guya ki, xəbərin yox idi? Özü də ki, mənə minnətdar olmalısan. Arvadını

onunla bir yerdə tutandan sonra işdən çıxartmaq istəyirdi səni. İndi sənin arvadın onun üçün maraqlı deyil. Yeni "ceyranlar"ı var. Hamısı da sütül-sütül, özü də ailə uşağı. Zar-zar ağlayırlar ki, atamız xəbər tutsa ki, sən nazir mənim bakirəliyimi pozmusan, batdıq. Bəs rəsmiləşdirməlisən əməllərini. Onlar çox, nazir isə tək. Nazirlikdə də departament az. Səni çıxarıb yerinə başqasını qoyacaqdı. Qızlardan da birini yeni departament sədrinə sırıyıb həm canını qurtaracaq, həm də keyfini çəkməkdə davam edəcəkdi. Mənə görə əl dəymədi sənə. Ata, get yaşa, keyfini çək. Bəlkə səni nazir müavini də təyin etdirdim. Bir də ki, hər yerdə qürrələn, fəxr elə ki, oğlun da nazirin qanını daşıyır, gələcək nəvən də...

Güzgüyə baxdım. Üç buynuzum var idi. Demə, birini arvadımı boşayanda, ikincisini isə nazirin məşuqəsini alanda qoydurubmuşam. Üçüncünü də qızım qoymuşdu – nazirin altına yıxılmaqla. Qızım tərbiyə görmüşdü. Amma bu yolla anasının heyfini aldı məndən.

Artıq nazir müavini də olmuşdum. Pensiya yaşıma da iki il qalırdı. Amma heç könlüm açılmırdı. Hərdən birinci arvadımın qəbrini ziyarət edirdim. Qara qranit başdaşına baxanda, əksimi görürdüm. Çox qorxurdum. Üç buynuzu gəzdirmək mənimçün çox ağır idi. Amma nə edim ki, dözürdüm. Çoxları həsəd çəkirdi

mənə. Deyirdilər ki, xoşbəxt adamsan. Özün nazir müavinisən, kürəkənin də departament sədri.

Aftafalı günlərimçün yaman darıxırdım. Elə hey istəyirdim ki, nazirlikdən kimsə mənimçün o mahnını oxusun. Amma oxuyan yox idi. Çünki bu mahnını bilən də qalmamışdı. Hamısını çıxarmışdılar. Özü də mənim əlimlə. Hamısının donosunu mən vermişdim. Bircə o mahnıya görə:

Mustafadı, Mustafa,
Əlində də aftafa.

Burnumun ucu göynəyirdi o günlərimçün. Görəsən, aftafa alsam yenə oxuyarlarmı o mahnımı? Mağazaları gəzməyə başladım. Hansına girdimsə, güldülər mənə. "Aftafa zəmanəsi çoxdan keçib, ay əmi. İndi heç kim aftafa almır". Nə qədər axtardımsa tapmadım. Tapsaydım belə, o təmiz adımı geri qaytara biləcəkdimmi? Yox. Çünki bu zəmanəyə mənim kimilər lazımdır – Allahın üz döndərdiyi aftafa görməyən götlər.

Gülmalı müəllim, sonrası necə oldu, onu bilirsiniz. Bayaq dedim. Nazir iclasda məni söydü. Oğraş dedi mənə. Haqqına dedi. Amma dözmədim. Papkanı keçirtdim başına. Vəssalam- şüttamam.

Mustafa müəllim ürəyini boşaldıb bizdən aralandı. Uzun müddət bu söhbətin təsirindən yerimizdən tərpənmədik. Nə "icra başçı"mız, nə də onun iki "müavin"i.

* * *

Beləcə, türmədə həyatımızı yaşayırdıq. Günlərimizi yox, Gülmalı müəllimin etdiyi yaxşılıqları saya-saya. Polkovnik də ona kömək edirdi.

Amma sevincim uzun çəkmədi. Günlərin bir günü axşam kolonun rəisi Gülmalı müəllimi yanına çağırdı. Getdi, amma qayıdanda ağlayırdı. Gözləri qızarmışdı. Ha eləyirdiksə dinməzcə durmuşdu. Rəisin otağında nə baş vermişdisə, demirdi. İşgəncə vermişdilərmi ona? Yox. Bu, mümkün olan iş deyildi. Çünki Gülmalı müəllim elədiyi işlərlə həm də kolonu nümunəvilər sırasına çıxarmışdı. Rəisin də vaxtından əvvəl rütbəsini qaldırmışdılar. Bəs onda nə baş vermişdi? Gülmalı müəllim gözlərini mənə zilləyib durmuşdu. Sonra gözlərində yaş gilələndi:

- Qanlıgün, rəis bilirsən, mənə nə dedi?

- Nə dedi?

- Dedi ki, səni başqa kolona keçiririk. Oradakı məhbusların da sənə böyük ehtiyacı var. Burda artıq komanda yaratmısan. Sənsiz də bacararlar. İndi də get ordakılara mənəvi dəstək ol. Qanlıgün, səhər məni keçirirlər qonşu kolona.

- Bəs niyə ağlayırsan? Qanın niyə qaralıb? Bu ki, əladır. İnsanların sənə mənəvi ehtiyacı var. Bundan yaxşı nə ola bilər ki? Deməli, sən artıq cəmiyyətə yararlı

adamsan. Bir də gördün rəis yuxarı instansiyalara səndən razılıq məktubu göndərdi, müsbət xasiyyətnamə verdi, vaxtından əvvəl də azadlığa buraxdılar. Bəlkə mənimçün darıxacaqsan, ona görə ağlayırsan?

- Yox, ay Qanlıgün. İcra başçısı olanda iki-üç dəfə rayonumu dəyişmişdilər. Çox sevinmişdim. Amma bu, o dəyişməkdən deyil. Digər kolon rəisləri məni tələb edirlər ki, gəl burdakılara da mənəvi dayaq dur. Məni vəzifədən çıxaranda elə bilirdim ki, heç kiməm. Ölmək istəyirdim. O həyata bir də qayıtmayacağımı yəqin etmişdim. İndi isə tam əksinədir. Demə, vəzifəli olanda mən heç kiməmmiş. İndi isə artıq insan olmuşam, digərlərinə də lazımam. Gülmalı müəllim artıq heç nə demədi. Çarpayısına uzandı. Üzünü adyalla örtüb yatdı. Məhbuslarla sözü bir yerə qoyduq ki, səhər Gülmalı müəllimə gözəl bir "provod" hazırlayaq. Lap azadlığa çıxan adamı yola salan kimi.

Səhər açıldı. Amma Gülmalı müəllim yuxudan qalxmırdı. Sanki nəzarətçilərin yuxudan qalxmaq əmrlərini eşitmirdi. Narahat etmədik onu. Nahardan qayıdanda gördük ki, yenə yatıb. Nəzarətçilərdən biri gəldi ki, bəs maşın gəlib. Vaxtdır. Çarpayıya yaxınlaşdım. Əlimi çiyninə qoyub ehmalca silkələyərək "Gülmalı müəllim, Gülmalı müəlim" çağırdım. Hay vermədi. Adyalı üzündən çəkdim. Çənəsi aşağı düşmüş, ağzı köpüklü idi. Nəbzini yoxladım. Gülmalı müəllim... Hönkürtümü saxlaya bilmədim. Səsimə digər

məhbuslar, kolonun rəisi gəldi. Tez həkim çağırdılar. Amma çifayda.

Gülmalı müəllimin cəsədini xərəyə qoyub həyətə endirdik. Təcili yardım maşınına qoyduq. Düz qapıyacan yola saldıq. Gülmalı müəllim bu darvazadan içəri girəndə bir qadının ölümünə bais olub onun ərini, iki yetimini gözüyaşlı qoymuşdu. Bu darvazadan azadlığa çıxanda isə yüzlərlə məhbusu gözüyaşlı qoyub getdi. Onun yoxluğuna, insanlığına axıdılan göz yaşları həm də onun bütün günahlarını yuyub apardı.

Gülmalı müəllim "bayır"a – azadlığa günahlarını yuyaraq çıxdı.

Onun ölümündə özümü günahkar sayırdım. Gülmalı müəllimi psixoloji cəhətdən yaxşılıqlarla yükləmişdim. O isə buna tab gətirə bilmədi. Gülmalı müəllim azadlıqda etdiyi günahlar ucbatından bura düşmüşdü. Və bu əzablar da onu türmədə öldürməliydi. Bəs mən nə etdim? Onu yenidən həyata qaytardım? Yox! Deyəsən, Allahın işinə qarışmışdım, axı.

* * *

Ay İnkir-Minkir, məhbusluğum davam edirdi. Həyat şəraitim yaxşı idi. Gülmalı müəllimin oğlanları məni yaddan çıxarmamışdılar. Atalarının onlara verdiyi tapşırığı vəsiyyət kimi yerinə yetirirdilər. Azuqəm vaxtlı-vaxtında gəlirdi. Amma Gülmalı

müəllimsiz darıxırdım. Polkovnik də azadlığa çıxmışdı. Onlar olanda, kiməsə yaxşılıq edəndə, məhbuslar sevinəndə mən də mənəvi zövq alırdım. Amma onlar olmayanı yenə qanıqara sifətlər, problem dolu məktublar. Düzdür, "müavin"likdən məni heç kim çıxarmamışdı. Amma "başçı"sız "müavin" kimə lazım idi ki? Heç kimlə danışmaq istəmirdim. İstəmirdim ağırlıqlarını töksünlər üstümə.

Ay İnkir-Minkir, çox qəribə mühitə düşmüşdüm. Hamısı mənəviyyat əsiriydi. Aldıqları cəza yox, çəkdikləri mənəvi əzab incidirdi onları. Axtardıqları suallara cavab almaq üçün uzun bir yola çıxmışdılar. Danışırdılar, danışırdılar, elə hey danışırdılar. Kasıbı da danışırdı, varlısı da, vəzifədən enəni də. Elə bil bayırda ağızlarına su alıb susan, bir söz danışanda qorxularından nəinki telefonlarını söndürən, hətta telefonlarının akkumlyatorunu belə çıxarıb qırağa atan insanlar deyildilər. Elə şeyləri etiraf edirdilər ki, məhkəmədə bunları desəydilər, hakim cinayət maddələrini artırar, onlara bundan da üç dəfə artıq cəza verərdi.

Amma neyləsinlər ki, ömürləri boyu etdikləri qanunsuzluqlara görə yox, buraxdıqları mənəvi səhvlərə görə burdaydılar.

Beləcə, üç ilimi "yatdım". Qapını açıb azadlığa buraxdılar. Birinci göyə baxdım. Sonra ətrafa. Qobustanın çölü-biyabanında tək-tənha idim. Heç kim gözləmirdi məni. Heç əməlli yola salan da olmadı. Heç

Allahın qarğışını da etmədilər ki, "səni görüm gedəsən, bir də geri qayıtmayasan". Sanki bezmişdilər məndən - türmə də, dustaqlar da. Deyəsən, azadlığım da şad deyildi çıxmağıma. Yoxsa qarşılayanım olardı. İlk sözüm bu oldu: yazacam, polisdən yazacam. Axı bu, necə olur? Arxamca maşınla gəlib, aparıb türməyə basırlar. Türmədən çıxanda isə hardan götürüblərsə ora aparıb qaytara bilmirlər?

Piyada birtəhər özümü avtobus dayanacağına çatdırdım. Ayaqlarım zoqquldayırdı. Çoxdandı bu qədər yol qət etməmişdim. Dayanacaqda heç kim yox idi. Avtobus da gözə dəymirdi. Bəlkə buralara heç marşrut da işləmirdi. Artıq günorta idi. Türmə yadıma düşdü. İndi sıraya düzüləcəkdik. Yeməkxanaya gedəcəkdik. Sonra həyətə çıxıb veyil-veyil gəzəcəkdik. Şam yeməyini səbirsizliklə gözləyəcəkdik. Televizora baxacaqdıq.

Uzaqdan toz qalxdı. Hə, avtobusdur - "PAZ" avtobusu.

Birtəhər gəlib şəhərə çatdım. Anamla atam evdə idi. Görüşüb ağladım. Əllərindən öpdüm. Anam əyri-əyri məni süzdü.

- Gülmalı müəllimin qəbrini ziyarət etmisən?

- Yox.

- Birinci məzarının üstünə getməliydin, sonra evə gəlməliydin.

- Yox. Gedə bilmərəm.

- Təki Gülmalı müəllim yox, sən öləydin. İyirmi beş il səndən görmədiyimiz oğulluğu ondan gördük.

Ay İnkir-Minkir, bu münasibəti gözləmirdim evdəkilərdən. Gülmalı müəllimi türmədə yaxşılığa doğru dəyişdirdikcə, demə, öz azadlığımı, gələcəyimi məhv edibmişəm. Ata-anama bir kəlmə də demədim. Hamama girib çimdim. Paltarımı dəyişdim. Üç il ürəyimdə gəzdirdiyim bir günahı yumaq, üzr istəmək üçün Sadıq müəllimin idarəsinə yollandım.

Qapıya yaxınlaşıb özümü təqdim elədim. Onlar da həmən köməkçiyə xəbər verdilər. Müşayiət edib qəbul otağına gətirdilər.

Gözləmirdim, amma yaxşı qarşıladı məni. "Türmədən çıxmısan, bilirəm əlin aşağıdır" deyərək cibimə pul da basdı. Mən də dönə-dönə üzrxahlıq etdim. Qəzetlərdə məqalə ilə çıxış edib, böyük qələt elədiyimi etiraf edəcəyimi bildirdim. O isə buna lüzum olmadığını bildirərək qəribə bir əhvalat danışdı:

- Ay Qanlıgün, Amerikada iki dost varmış. Ailəlikcə yaxınmışlar. Hər ikisi vəkil işləyirmiş. Dostluq eləsələr də amma hərəsi ayrı-ayrı partiyanın üzvüymüş. İş elə gətirir ki, bunlar prezident seçkilərində rəqib olurlar. Sonuncu günədək şansları da bərabər olur. Seçiciləriylə sonuncu görüşdə dostlardan biri cəld tərpənərək tribunaya birinci çıxır və "Ay seçicilər, siz buna yox, mənə səs verin. Bunun iki qızı var, ikisi də pozğun, qəhbə. Bu, öz ailəsini idarə edə bilmir, bu

boyda dövləti necə idarə edəcək?" deyir. Camaat da danışan namizədin rəqibini fitə basır. Heç danışmağa da qoymurlar. Görüşün axırınacan gözləyən namizəd foyedə dostunun boğazından tutub divara dirəyir. "Mən sənə neçə illər dost demişəm. Ailəlikcə bir olmuşuq. Ağır günümüzü birgə bölüşmüşük. İndi bu nə sözdür xalqın qarşısında danışırsan? Bu nə deməkdir ki, "mənim iki qızım var, ikisi də qəhbə." Bunu məni tanımayan başqa birisi desəydi, yandırmazdı. Axı, sən məni yaxşı tanıyırsan. Özü də yaxşı bilirsən ki, mənim ümumiyyətlə qızım yoxdur, iki oğlum var" deyir. Bilirsənmi, Qanlıgün müəllim, dostu nə cavab verir: "Sən bunu mənə yox, get xalqa başa sal".

İndi üç ildir ki, mən də bu xalqa başa sala bilmirəm ki, bəs mənim qızım yoxdur. Mən oğraş deyiləm. Bütün işimi-gücümü atıb bircə bununla məşğulam ki, sənin böhtanını üstümdən yuyum. Alınmır ki, alınmır. Heç kimi başa sala bilmirəm ki, mənim qızım yox, iki oğlum var. Oğraş adını adımdan silə bilmirəm ki, bilmirəm.

- Bəs nə əcəb vaxtında məni məhkəməyə vermədiniz? Başqa tədbirlər tökmədiniz?

- Qanlıgün müəllim, mən bilirdim ki, sənin mənimlə şəxsi qərəzliyin yoxdur. Məni heç tanımırsan da. Reketçiliyin də yoxdur ki, pul çəkəsən. Yoxsa yazını verməmişdən qabaq qapımı kəsdirərdin. Bu mənim düşmənlərimin işiydi. Mən səni məhkəməyə versəydim,

iş daha da böyüyəcəkdi. Sənin yazını oxumayanlar da xəbər tutacaqdı ki, mən "oğraş"am. Məhkəməni şouya çevirəcəkdiniz. Bir dənə fahişəyə pul verib qızım adıyla müsahibə alıb, şəklini çəkib qəzetə də verəcəkdiniz. Sən də qızışıb, hər vəchlə özünü müdafiə edəcəkdin. Bu məlumatı sənə ötürənin adını açıqlayacaqdın. Yazı sənin məhsulun ola-ola özünü təmizə çıxaracaqdın. Amma heç vaxt başa düşməyəcəkdin ki, pis iş görmüsən. Əməllərini davam etdirəcəkdin. Mən sənə daha ağır cəza, daha doğrusu, dərs vermək qərarına gəldim. Səhv məlumat ötürən jurnalist dostunu üzə çıxartdım. Qabağına iri şampan şüşəsi qoyaraq, "ya səni bunun üstünə otuzduracağam, ya da ki, Qanlıgünün cibinə nəşə atıb, polisə xəbər verəcəksən" şərti qoydum. O da buna getdi. Nəinki cibinə nəşə atdı, hətta təbii alınsın deyə, çəkdiyin siqaret qutusunu da nəşə qatılmış qutuyla əvəzlədi. Nəticədə qanından da narkotikin izləri tapıldı. Sən mənə şər, böhtan atdın, qarşılığında da bununla rastlaşdın. Sənə bu acını daddırdım ki, məni başa düşəsən. Üç ildir ki, mən "oğraş"am, sən də "nəşəxor". Nə sən, nə də mən bunun əksini sübut etmək iqtidarında deyilik. Get, nəşəxor Qanlıgün, get.

Ay İnkir-Minkir, otaqdan çıxdım. Söz verdim ki, bir də belə hərəkət etməyəcəyəm. İnsanların şəxsi işlərinə, ailə həyatına qarışmayacağam - informasiya lap düz olsa belə. Kişi qurşaqdan aşağı zərbə vurmaz.

Söz verdim ki, vəzifəli, varlı-hallı insanlardan ümumiyyətlə yazmayacağam. Çünki onların mənəvi dünyasını az da olsa bilirdim. Gülmalı müəllim, polkovnik, nazir müavini, türmədə keçdiyim üç illik məktəb bunu mənə öyrətmişdi. Vəzifəli adamlar mənəviyyatlıdırlar, daha doğrusu, mənəviyyatlarının əsiridirlər.

Yenidən qəzetdə işə düzəldim. Ara-sıra məqalələrlə çıxış edirdim. Mənimlə dostluq etmək istəyənlərin sayı azalmışdı. Kim yaxın gəlirdisə, o saat valideynləri zəng vurudular ki, "bax, özünü bədbəxt eləmisən, bizim uşağı da öz gününə salma". Sonda da "nəşəxorun biri nəşəxor" xitabını əlavə edəndə yanıb tökülürdüm.

Bir müddətdən sonra atam-anam məni evləndirdi ki, bəz "düz yola qayıt. Narkotika böyük bəladır". Valideynlərimi də inandıra bilmirdim ki, məni şərə salıblar. Qız evdə qarıyıb qalmasaydı, bəlkə onun da "həri"sini verməzdilər. Toyumuz oldu. Qayınatam, qayınanam normal cehiz də vermədilər. Bəhanələri də "niyə cehiz verək? Oğlan narkomanın biridir. Nə olsun ki, tərgidib. Amma bu yoldan heç kim qayıtmayıb. Əvvəl-axır cehizi də satıb verəcək bu zəhirmara. Pulumuzu boş-boşuna niyə göyə sovurmalıyıq ki?" oldu. Arvadım da onlardan geri qalmırdı. Hər gün işə gedəndə "Qanlıgün, əzizim, uzaq dur o zəhirmardan. Məni bədbəxt eləmə" deməsəydi özümü birtəhər hiss edirdim.

İnkir-Minkir, söz verdim ki, savab işlə məşğul olum ki, bəlkə bu adı üstümdən ata bilim. Qərara aldım ki, gündəlik həyatlarında haqsızlıqlarla üzləşənlərə kömək edim, yardım göstərim.

Qeyri-hökumət təşkilatı yaratdım. Adını da "Keyfiyyətli səhiyyə xidməti uğrunda" qoydum. Qrant almaq üçün beynəlxalq təşkilatlara müraciət etdim. Hay veräni olmadı. Bu işlə çoxdan məşğul olan bir tanışım dedi ki, bu nə addır e.... qoymusan? Adını qoy "İnsan haqları uğrunda mübarizə", yaxud da "Korrupsiyaya qarşı mücadilə", nə isə bu formada bir şey, gör beynəlxalq təşkilatlar nə qədər pul verəcəklər sənə. Dedim ki, yox. Mən bunu bacarmaram. Nəslimizdə satqın olmayıb, o ki qaldı xarici təşkilatlara sukalıq edim. QHT yaratmaqda məqsədim camaata xidmət etmək, onların hüquqlarını qorumaq olacaq.

İnkir-Minkir, bəlkə kifayətdir. İstəmirəm yaşadıqlarımı bir də göz önünə gətirim. Sizin də başınızı ağrıdıram.

- Yox, danış. Çox maraqlıdır. Gör nə oyunlardan çıxmısınız fani dünyada. Xəbərimiz yox imiş.

- İnkir-Minkir, beləcə, başladım şikayət axtarışına. Nə qədər elədimsə tapmadım. Günlərin bir günü dayım qızı dövlət xəstəxanalarından birində doğmuşdu. Mən də gül, mer-meyvə alıb getdim yoldaşımla ona dəyməyə. Gətirdiklərimizi qapıda verdik

ki, çatdırsınlar. Dayıqızına da zəng elədim ki, bəs çıx pəncərəyə, biz aşağıdayıq.

Bir də gördüm ki, içəridə səs-küy qopdu. On saniyədən sonra qapı açıldı. Bir cavan kişiylə yaşlı qadın ağ xalatlı bir qadının saçından tutub sürüdülər bayıra:

-Ay qancıq, ay savadsız, bacarmayacaqdınsa doğuzdurmağı, niyə boynuna götürürdün? Öldürməkçün?

Öldürmək sözünü eşidən kimi telefonumu çıxartdım. Kamerasını işə saldım. Başladım çəkməyə. Kişi həkimi saçından dartır, yaşlı qadın isə ona zərbələr endirirdi. Qıraqdakılar da ala bilmirdilər əllərindən.

- Sən öldürdün qızımızı. O uşağı sən yetim qoydun. Çıxart o ağ xalatı əynindən. Gör səni indi tutdururuq, ya yox. Sən həkim adına layiq deyilsən. - deyə qoca arvad həkimin üzünü dırnaqlarıyla cırmağa başladı.

Həkimsə dinmirdi, sanki huşunu itirmişdi. Amma gözləri açıq idi. Çətin də olsa həkimi oğlanla yaşlı qadının cəngindən xilas edib, xəstəxananın içinə salıb dəmir qapını bağladılar. Oğlan isə sakitləşmək bilmirdi. Qapını təpiklə vurur, "açın! açın!" deyirdi. Bununla soyumayan oğlan əlinə keçən dəmir parçasıyla xəstəxananın şüşələrini sındırmağa başladı. Səsə polislər də özlərini çatdırdılar. Oğlanın qolunu burub maşına basdılar. Yaşlı qadın isə asfaltın üstündə oturub, saçlarını yolub ətrafa səpələyirdi. Gözləri bərəlmişdi. Heç nə demirdi. Qohumlarından da heç kim ona yaxınlaşmırdı. Tez su aldım. Yanında dizimi yerə

qoyub çöməldim. Həyat yoldaşım da onu qucaqlayıb, kürəyini ovmağa başladı. Bir az su içirtdik:

- Ana, möhkəm ol. Allah səbr versin. Heç olmasa nəvə nişanən qalıb. Onu böyütməlisən, boya-başa çatdırmalısan.

- Yox, ay bala, bu həkim dağ çəkdi bizə. Buna ginekoloq deyənin... Söz verdi, boynuna götürdü.

- Pul aldı. - deyə mən tez əlavə elədim.

- Yox, ay bala, pul almadı. Nə qədər elədik də götürmədi.

- Nə əcəb?

- Bilmirəm. Başımın üstündə Allah var. Amma nə olsun ki, oğlumu dul, məni də nəvəmlə tək qoydu.

- Qızın anası yoxdur ki?

- Var, ay bala, var. Ode "besedka"da sakitcə oturub ağlayır. Onun dərdi lap böyükdür. Həkim ona bala dağı çəkib.

Qadını ayağa durğuzub "besedka"ya gətirdik. Oturacaqda əyləşdirdik. Ölənin anası çənəsini ovcuna alıb sakitcə oturmuşdu. Sanki donmuşdu. Ürək eləyib bir söz soruşa bilmədim. Qayınanadan həkimin adını alıb kənara çəkildim. Ən xod gedən saytlardan birinə zəng edib məlumatı diqtə etməyə başladım: " Bu gün 66 saylı doğum evində həkimin səhlənkarlığı ucbatından ana ölümü qeydə alınıb. "Keyfiyyətli səhiyyə xidməti uğrunda" QHT-nin sədri olaraq biz zərərçəkənlərin yanındayıq. Onların dərdinə şərikik. Tədqiqatın

sonuna qədər bu biabırçı olayı nəzarətdə saxlayacaq, ictimaiyyəti məlumatlandıracağıq. "Keyfiyyətli səhiyyə xidməti uğrunda" QHT olaraq həkim səhlənkarlığı, özbaşınalığı ilə üzləşən hər bir Azərbaycan vətəndaşının yanında olmaqdan qürur duyuruq".

Elə bu xəbəri verəndən sonra ara qarışdı. Səhiyyə Nazirliyi xüsusi komissiya yaratdı. Məni də o komissiyaya saldılar. Bütün qəzet, saytlarda şəkillərim getməyə başladı. Yerli QHT forumu mənə qrant ayırdı. Başladım fəaliyyətə. Birinci növbədə tədqiqat bitənəcən həkimin vəzifəsindən uzaqlaşdırılmasına nail oldum. Müstəntiqlə tez-tez görüşürdüm. O da "heç bir irəliləyiş yoxdur. Həkim də and-aman edir ki, məndə təqsir yoxdur" sözlərindən əlavə bir məlumat vermirdi. Ailəsi gəlini yardırmağa qoymamışdı. Amma cərrahiyyə otağındakı kameraların yaddaşına və xəstəlik tarixçəsinə görə komissiya rəyini vermişdi. Hamısı da təsdiq edirdi ki, həkim-ginekoloq əlindən gələni edib. Onun bu ölüm hadisəsində təqsiri yoxdur. Bunu eşitməmişdim? Tez saytlara xəbər verdim ki, bəs Səhiyyə Nazirliyi ananın qanını batırmaq istəyir. Ona görə də özlərinin tabeçiliyində tibb-ekspertlərə təzyiq ediblər. Aləm dəydi bir-birinə. Məhkəmə səs-küyə son qoysun deyə eksqumasiya ilə bağlı qərar qəbul etdi. Mərhumənin anası nə qədər etiraz etdisə, xeyri olmadı. Hadisələrin baş qəhrəmanı artıq mən idim. İctimai rəy də mənim tərəfimdə idi.

El dilində desək, gəlini gorbagor elədik. Onu qəbirdən çıxardanda məni də dəvət elədilər. Cəsəd şişmişdi. Xərəyə qoyanda partladı. Suyu mənim də üstümə çiləndi. Diksinib qorxdum. Amma büruzə vermədim. Axı mən "Keyfiyyətli səhiyyə xidməti uğrunda" mübariz sayılırdım. Artıq nəşəxor adını üstümdən atmışdım. Evdə də hörmətim qalxmışdı. Həm savab iş görürdüm, həm də evə pul gətirirdim. Sonrakı fəaliyyətim də məhz bu işi necə başa çatdırmağımdan asılı idi. Tutdurmalıydım həkimi. Mənə bir pisliyi keçməmişdi həkimin, amma sanki qanına susamışdım. Xarici donor təşkilatlarından qrant gözlədiyim halda özümüzkülər dövlət xəttiylə mənə pul yardımı edirdilər. Məsələnin sonuna çıxmalıydım. Özü də qalib çıxmalıydım.

Həkim haqqında məlumatlar da toplamışdım. Pisliyinə heç nə demirdilər. Savadlı, təcrübəli ginekoloq kimi tərifləyirdilər. Amma dəxli yox idi. Ortada ana ölümü vardı. Təkrar ekspertizanın cavabı gələnəcən bir ay da keçdi. Müstəntiq məni otağına çağırdı.

- Qanlıgün müəllim, cavab gəldi. Amma rəydə heç bir dəyişiklik yoxdur.

- Necə yəni yoxdur?

- Yoxdur, Qanlıgün müəllim. İşə xitam vermək üçün məsələ qaldırmalıyam. Həkimin təqsiri yoxdur.

- Belə olmaz. Burda nəsə bir əmma var. İt itin ayağını basdalamaz deyiblər. Həkimlər də bir-birinə

qahmar çıxır yəqin. Bu gün bu haqda bir məlumat verərəm.

- Xeyri yoxdur, Qanlıgün müəllim. Ortada heç şikayət də yoxdur. Ölənin anası da heç şikayət verməyib. Qayınanayla ər isə ümumiyyətlə çağırışlarımıza məhəl qoymurlar.

- Siz tələsməyin, icazə verin araşdırım. Ailəyə yəqin ki, təzyiq var. Ya da ki, həkim pul verib ələ alıb onları. Mən belə şeyləri çox görmüşəm.

Prokurorluqdan çıxdım. Düzü, müstəntiqdən də şübhələnməyə başladım. Deyəsən, o da həkimlə əlbirdir. Bunun da payı çatıb. Tez maşına minib ölənin anasıgilə gəldim. Qapının arxasından çağa səsi gəlirdi. Qapını döydüm. Gəlinin anası qucağında körpə qapını açdı.

- Gəl, a bala. Elə mən də səni axtarırdım. Uşağı yatızdırım, gəlim rahat danışaq.

Mənzilə baxdım. İki otaqdan ibarət "Xruşşovka" mənzil idi. Allah bilir, axırıncı dəfə nə vaxt təmir olunmuşdu. Oboylar adamın üstünə gəlirdi. Divan-kreslonun örtüyü süzülmüşdü. Evdən kif iyi gəlirdi. Handan-hana qızın anası uşağı yatızdırıb mətbəxə keçdi. Fincana çay süzüb gətirib qabağıma qoydu. Qənddanın qapağını açdı.

- Prokurorluqdan gəlirəm. Dedilər ki, işə xitam veririk. Siz də ki, şikayət ərizəsi belə yazmamısınız.

Niyə? Bəlkə sizə təzyiqlər olub. Pul verib ələ alıblar? Belədirsə başa düşərəm. Day arxasınca getmərəm.

- Yox. Sən nə danışırsan? Mən qızımın qanını satarammı? Sadəcə, həkimin təqsiri yoxdur. Ara yerdə onun da adı biabır oldu. Mənim ucbatımdan.

- Ay xala, bir başa sal da... Qızınız cərrahiyyə stolunda ölüb. Həkim çox pul qazansın deyə təbii şəkildə doğuşa buraxmayıb onu. Keysəriyyə əməliyyatına qaldırıb. Nəticə də bu. Sizdə nə təqsir var ki?

- Ay bala, olan oldu, keçən keçdi. Mən öz payımı aldım. Özü də artıqlamasıyla. Bu bəsimdir. Sən də sağ ol ki, sonacan getdin. Təmiz adamsan. Yaxşılıq eləmək istədin. Bizə qahmar çıxdın. Daha bəsdir. Səndən xahiş edirəm, daha bu işin başını burax. İş bağlandı. Mənim dərdim özümə bəsdir. Çıx get.

Evdən çıxdım. Nə edəcəyimi bilmirdim. Məsələni ictimailəşdirmişdim. İctimai rəyə əsaslansaq həkimi diri-diri yandırmağa, daş-qalaq etməyə hazır idilər. Bəs onlara nə cavab verim? Desəm ki, həkimin təqsiri yoxdur, soruşacaqlar ki, bəs kimdir günahkar? Cavab versəm ki, ölənin anası, onda da deyəcəklər ki, bəs bir aydır həkimə böhtan atıbmışsan? Bir şəxsiyyət, QHT sədri kimi də hörmətimi itirəcəkdim. Yox, bu məsələnin sonuna çıxmalıydım. Tez xəstəxanaya gedib, həkimin telefonunu öyrəndim. Zəng etdim. Telefonu qapalı idi. Ünvanını aldım. Yaşadığı evə getdim. Qapının zəngini basdım. Özü açdı.

- Sizə nə lazımdır? Çıxın gedin. Bir aydır sizin ucbatınızdan həyatım korlanıb. İşimdən olmuşam. Otuz ildir həkim kimi hörmət qazanmışdım, onu da itirmişəm. Təqsirim olmaya-olmaya. İndi nə istəyirsiniz? Bilmək istəyirsinizsə, sizə əvvəlcədən də demişdim. Mən günahsızam. Mən həkiməm, amma Allah deyiləm. Allahın əmrinə qarşı da gedə bilmərəm. Əvvəlcədən anasını da xəbərdar etmişdim. Mənim vicdanım təmizdir. Yazdığınız kimi heç pul da almamışam. Ara yerdə döyüldüm, saçımdan tutub sürüdülər. Kollektivin içində biabır oldum. Bütün xəstələrim qaçdı məndən. Polisin, prokurorluğun qapısında süləndim bu bir ayı. Daha nə istəyirsən məndən, hə? Mənim bircə təqsirim var, o da ana olmağımdır. Vəssalam. Rədd olun gedin burdan.

Həkim qapını üzümə çırpdı. Amma yenə də dediklərindən bir şey anlamadım. Bunları ictimaiyyətə açıqlasaydım, belə çıxacaqdı ki, burda bircə dənə günahkar var, o da elə özüməm. Amma hansısa sirrin olduğunu bilirdim.

Özümə yer tapmırdım. İçimdə qovrulurdum. Gecələr yata bilmirdim. Qıvrılırdım yatağımda səhərəcən. Bu cür davam edə bilməzdi. Saytlar, qəzetlər də əl çəkmirdilər. Sualı-sual dalıyca yağdırırdılar. Mən "təhqiqatım davam edir. Günahkarlar öz layiqli cəzasını alacaq" deyib birtəhər başımdan edirdim.

Beləcə, beş gün keçdi. Dözmədim, yenidən qızın anasıgilə getdim. Qapını açmağına açdı. Amma içəri buraxmadı. Get məsələyə son qoy, sonra danışarıq. Onun dediyi kimi də etdim. Məlumat yaydım ki, "istintaq sona çatıb. Həkimin təqsiri yoxdur. Allahın hökmü beləymiş". Vəssalam-şüttamam. Yenidən qızın anasıgilə qayıtdım. İçəri dəvət elədi. Çay süzüb qabağıma qoydu:

- Ay bala, danışıram. Amma bunları heç yerdə demə. İstəmirəm ki, bu sirr səni də içindən yesin. Ona görə danışıram. Allah eləməmiş sənin də başına gəlsə, nə edəcəyini əvvəldən biləsən.

Ana mətbəxə keçib çay süzdü. Gətirib ortaya qoydu. Qənddanın qapağını açdı.

- Sən çayını iç, mən də əvvəldən danışım. Ay oğul, ali məktəbdə oxuyanda bir oğlanla bir-birimizi sevirdik. Təhsilimizi başa vuran ili evləndik. İnstitutların birində elmi işçi kimi çalışırdıq. Qayınatam-qayınanamdan bizə qalan bu evdə yaşayırdıq. Bir müddətdən sonra Allah bizə bir qız payı verdi. Gözəl qız idi. Amma anadan olandan ayağımız qaldı həkimlərdə. Bir müddətdən sonra aydın oldu ki, bəs qız şəkər xəstəsidir. Uçota götürdülər. Amma ərimlə məndən başqa bunu heç kim bilmirdi. Gizli saxlayırdıq. Həkimlər onu da demişdilər ki, bu qızın gələcəkdə doğması çox risklidir. Məni xəbərdar etmişdilər. Amma qıza deyə bilmirdim. Qızımın on yaşı olanda ərim yol

qəzasında həlak oldu. Qaldım tək. Uşaq on səkkiz yaşına çatanda elçilər qapını kəsdirdilər. Amma mən razılıq vermirdim. Qızım inadkarlıq göstərsə də, sevgisini gözündə qoyurdum. Nəhayət, dözmədim: "Ay qızım, başa düş, sən şəkər xəstəsi olduğun üçün doğa bilməzsən. Sənə bir şey olsa mən nə edərəm? Axı mənim səndən başqa heç kimim yoxdur". O gündən bu, qızımda kompleksə çevrildi. Şəkəri daha da artmağa başladı. İstədiyi var idi. İki dəfə elçi göndərsə də, razılıq verməmişdim. Nəhayət, qızım məni məcbur elədi ki, "həri"sini verim. Dedi ki, ölsəm də o oğlana gedəcəyəm. Beləcə, istədiyinə nail oldu. Amma nə oğlana, nə də qayınanasına bu haqda demədik. Gizlətdik. Qızımın bu sirri faş olmasın deyə belə razılaşdıq ki, toydan sonra oğlan da bizə köçsün. Bir yerdə qalaq. Həm də imkansız idim. Verməyə cehizim yox idi. Beləcə, toyu yola verdik. Yaxşı yaşayırdıq. Oğlan insulini özü alıb gətirirdi. Demişdim ki, mənəm şəkər xəstəsi. O evdə olmayanda gizlicə qızın iynəsini vururdum. Nəhayət, qorxduğum şey baş verdi. Qızım hamilə qaldı. Elə sevinirdi ki, uçmağa bircə qanadı yox idi. Əri də həmçinin. Qaynananın da sevincinin həddi-hüdudu yox idi. O da oğlunu yetimçiliklə böyütmüşdü. Çox əziyyət çəkmişdi. Üç ayı olanda tanış ginekoloq vardı, yanına apardım. İlk növbədə analizə göndərdi. Biləndə ki, qızım şəkərdir, çox pis oldu:

- Bəs sizə deməyiblər ki, doğuş riski var? Mən şəxsən boynuma götürə bilmərəm.

Çox dil tökdüm. Yalvardım. Dilimdən kağız da yazdım ki, nə olsa mənlikdir. Amma qızıma sən bax. Çox insan adam idi. Demə, o da mən dərddəymiş. Qızı diabet xəstəsiymiş. Bir ana kimi məni başa düşüb, dərdimə acıdı. Beləcə, doqquzuncu aya çatdıq. Həkim dilindən bir söz də qaçırtmadı. Oğlana da, anasına da yalan söylədi ki, hər şey qaydasındadır. Nə qədər pul da verirdilər götürmürdü. Bir həkim kimi xəstənin sirrini açmadı. Keysəriyyə əməliyyatına da pulu çox almaq üçün yox, məcbur olub qaldırmışdı. Sonrasını isə bilirsiniz.

- İndi necə? Oğlanın xəbəri varmı?

- Məcbur olub özüm açıb dedim. Gördüm ki, soyumayacaq. Həkimi döyüb öldürəcək. Dilimdən aldığı kağızı da həkimdən götürüb müstəntiqə aparıb özüm təqdim etdim. Ondan xahiş elədim ki, heç kimə, jurnalistlərə də xəbər verməsin. Həkimlə də işi olmasın. Təqsir məndədir. Günahım da elədir ki, Cinayət Məcəlləsində buna aid maddə yoxdur. Oğlanın anasının isə hələ də xəbəri yoxdur. Nəvəmə də özüm baxıram. Oğlan da pampersini, yeməyini alıb gətirir. Hərdən bir də gəlib dəyir. Uşağa baxanda az qalır ki, ürəyi partlasın.

- Niyə?

- Çünki bunu günahkar bilir arvadının ölümündə.

- Gül kimi uşaqdır, gözəl, ay sifətli, toppuş-mompuş.

- Nə toppuş, nə mompuş. Mənə xəstəxanada dedilər ki, şəkər xəstəsi olan anaların doğduğu uşaqların çəkisi dörd-beş kilo olur. Ona görə ağırdır. Həm də yumrusifət, ay bəniz olurlar. Özü də ki, ay oğul, qızımın yadigarı nəvəm də anadangəlmə şəkər xəstəsidir.

İnkir-Minkir, əlavə heç bir sual vermədim. Mənzili tərk etdim. QHT yaratmağıma, bu işə baş qoşmağıma peşman idim. Türmədəki həyatdan uzaqlaşıb, türmədən də beşbetər bir həyata düşmüşdüm. Türmədə cəzanın bir müddəti vardı. Qızı şəkər xəstəsi doğulan, cavan yaşında ölən, nəvəsi də bu xəstəliyə düçar bir qadının həbs müddəti, görəsən, nə vaxt başa çatacaqdı? Ömürlük cəza almışdı bu ana. Ordan birbaşa həkimin evinə getdim. Qapını açmadı. Qışqırdı "Rədd ol burdan!". Mən də qapının arxasından ona "Bağışlayın. Üzr istəyirəm. Kaş ki, vaxtında mənə deyəydiniz" söyləyib ordan uzaqlaşdım. Bir vaxtlar oğraş çıxardığım Sadıq müəllimin kabinetində yaşadıqlarımı bir də yaşadım.

Evə gəldim. Ürəyimi boşaltmağa bir adam axtarırdım. Gülmalı müəllim sağ olsaydı ona deyərdim. O, bəlkə bir əncam çəkərdi. Amma lap anaya kömək göstərsə də, karyerasına son qoyduğum həkimə necə kömək edəcəkdi ki? Döyülsə də, alçalsa da sonacan xəstənin sirrini faş etməyən həkimə. Bunu bilmirdim.

Bu haqda yazıb, həkimə bəraət qazandıra da bilməzdim. Anaya söz vermişdim.

Evdə çox dura bilmədim. Nəşriyyatın yanındakı çayxanaya gəldim. Köhnə dostlarla oturub bir stəkan çay içdim. Biri başladı ki, bu cür xəbərlər olanda birinci mənə göndər, o biri dedi ki, qayıt təzədən qəzetə. Amma içimdəkini onlara da açа bilmədim. Qorxdum ki, götürüb yazarlar. Qəribə bir hala düşmüşdüm. Jurnalist ola-ola jurnalistlərdən qorxurdum. Doğurdan e... nə qorxulu tayfa imişik biz jurnalistlər. Amma yenə də sağ olsunlar, hörmətimi saxlayırdılar. Nə deyirdimsə, nə yazı göndərirdimsə, həmən səhifəyə qoyurdular. Xeyli söhbətləşdik. Bu vaxt jurnalist dostlarımdan birinə zəng gəldi:

-Nə! Ola bilməz! Bu dəqiqə gəlirəm. - deyib üzünü mənə tutdu. - Qanlıgün, qurban olum gedək mənimlə. Arvad zəng edib ki, bəs uşağı aparıb peyvənd elətdirib. Peyvənd də reaksiya verib, uşaq ölüb.

İnkir-Minkir, nə başınızı ağrıdım. Tez maşına oturub dostumgilə getdik. Ağlaşma səsindən içəri girə bilmədim. Bir azdan başqa qohumları da gəldi. Dəfni təşkil elədilər. Amma dostum sakitləşə bilmirdi. Elə hey "tutduracağam həkimi" deyirdi. Biz də sakitləşdirirdik. Başsağlığına gələn dostlara da danışır, kömək umurdu. Səhəri bütün qəzetlər jurnalistimizin dərdinə şərik olub başsağlığı verməklə yanaşı həkim səhvini də önə çəkdilər: "Jurnalist dostumuzun həyat

yoldaşı bir yaş yarımlıq oğlunu peyvənd vurdurmaq üçün həkimə aparıb. Sonra evə qayıdıb. İçəri girən kimi peyvənd reaksiya verib. Uşaq ölüb". Yenə də aləm dəydi bir-birinə. Jurnalist dostum da "Keyfiyyətli səhiyyə xidməti uğrunda" QHT-nin sədri kimi təqsirkarın cəzalandırılmasını məndən xahiş etdi. Özü qabağa dursaydı bu, məqsədli görünə bilərdi. Çünki maraqlı tərəf sayılırdı. Subyektivliyə varacaqdı.

Bu dəfə işimi ehtiyatlı tutdum. Birinci həkimlə danışmağa qərar verdim. Gəldim uşaq poliklinikasına. Girdim baş həkimin yanına. Özümü təqdim etdim. Demə, baş həkim məni doğum evindəki hadisəylə bağlı yaxşı tanıyırmış. Başladı titrəməyə.

- Bilirsinizmi, Qanlıgün müəllim. Bizim həkimlər çox savadlıdırlar. Əlindən xata çıxan həkim isə burdakıların hamısından savadlıdır. O, ömründə səhv buraxa bilməz. Sadəcə burda bir yanlışlıq olub ki, uşağı tez aparıb basdırmısınız. Gərək yardıraydınız.

- Nə? – deyə ayağa durdum. - Deməli, meyiti yardırmamışıq deyə, siz bizi borclu çıxarmaq istəyirsiniz? Düz deyirsiniz. Gərək polisə şikayət verərdik. Onsuz da xəbərdardırlar, özləri təhqiqat aparacaqlar. Amma mən sizə hörmət əlaməti olaraq bura gəldim. Görünür, düz eləməmişəm. Mən gərək əvvəlcə Səhiyyə Nazirliyinə gedəydim. Komissiyayla birgə bura gələydim. Onda görüm nə deyəcəkdiniz?

- Yox, Qanlıgün müəllim,- deyə baş həkim daha da əsməyə başladı, - düz eləmisiniz ki, birinci bura gəlmisiniz. Bu dəqiqə çağırım həkimi özü sizə izah etsin. Amma o da yaman gərgindir. Özünə yer tapmır dünəndən. Bütün qəzetlər adını hallandırır. Reputasiyasına ziyan dəyib. Amma onu deyim ki, həqiqətən də savadlı həkimdir, Gülzar xanım.

- Çağırın, görək mənim suallarımın qabağında necə tab gətirəcək?

Baş həkim telefonun dəstəyini götürüb Gülzar xanımı otağına çağırdı. Otağa gözləri qızarmış, əsəbi vəziyyətdə bir həkim girdi. Baş həkim:

- Gülzar xanım, bu yoldaş "Keyfiyyətli səhiyyə xidməti uğrunda" QHT-nin sədri, jurnalist Qanlıgün müəllimdir. Dünənki hadisəylə bağlı gəlib. Sizə sualı var.

- Buyurun, - deyə Gülzar xanım stolu çəkib mənimlə üzbəüz oturdu, amiranə şəkildə, - verin suallarınızı, - dedi.

- Bizim həmkarımız oğlunun ölümündə sizin vurduğunuz peyvəndi səbəb kimi gətirir. Siz nə deyə bilərdiniz bu haqda?

- Mən iki yüz faiz əminəm ki, o uşaq AKDS-dən ölməyib.

- Başa düşmədim. - deyə soruşdum.

- Nəyi?

- AKDS sözünün mənasını.

- AKDS, yəni ki, VGDT.

- Bəs VGDT nə deməkdir?

- VGDT vaksinin adı.

- Açıqlaya bilərsinizmi?

- Ay qlavvraç, - deyə Gülzar xanım baş həkimə dilləndi, - bu şəxs AKDS nədir bilmir, VGDT nədir bilmir, vaksin nədir qanmır. Mənimlə nə söhbət etmək istəyir axı? Səhiyyədən başı çıxan yox idi ki, bu savadsızı göndəriblər üstümüzə?

Mən ağzımı açıb həkimi acılamaq istəyirdim ki:

- Gülzar xanım, - deyə baş həkim əlini stola vurub ayağa qalxdı, - Qanlıgün müəllim hörmətli yoldaşdır. Həddinizi keçməyin. Nə soruşur cavab verin.

- Başüstə. – deyə Gülzar xanım əlini cütləşdirib gicgahına aparıb hərbiçilər kimi təzim etdi. – Qanlıgün müəllim, AKDS ruscadır. Yəni ki, Anatoksin, Koklyuş, Difteriya, Stolbnyak sözlərinin baş hərfi. Başa düşdüz?

- Rus dilini yaxşı bilmirəm. Bəs onda VGDT nədir?

- VGDT da onun tərcüməsidir. Yəni ki, Vaksin, Göy öskürək, Difteriya, Tetanus. Bu vaksin üç xəstəliyə qarşı vurulur. Üç dəfə vaksinasiya olur, bir dəfə də revaksinasiya.

- Həkim vaksinasiya başa düşdüm, bəs revaksinasiya nə deməkdir?

- Yox, belə olmaz. Qlavvraç, bu lap məni əsəbləşdirir. Mən buna dərs keçməyə gəlmişəm, yoxsa

izahat verməyə. İzahat verirəmsə, bunu deyə bilərəm ki, təqsirim yoxdur. Gedib hara istəyir şikayət etsin. Qorxum yoxdur. Çox hoppanıb düşsəniz özüm şikayət edəcəyəm sizdən prokurorluğa. Əgər mənim həkimliyimə şübhəniz varsa gedin pataloji-anatomik təşrih etdirin.

- Gülzar xanım, təşrih nə deməkdir?

Gülzar xanım üzümə baxıb daha heç nə demədi. Bircə "boje moy" deyib qapını bərkdən çırpıb otaqdan çıxdı. Baş həkim də pərtliyindən bilmirdi ki, nə etsin.

- Qanlıgün müəllim, fikir verməyin. Səhərdən çox stress keçirib qəzetdə yazılanlarla bağlı. Ona görə belə danışdı. Əslində çox mülayim, əsası isə çox savadlı həkimdir. Sualınıza gəldikdə isə icazə verin mən cavab verim. Mən də maraqlı tərəfəm. İstəməzdim ki, başçılıq etdiyim tibb müəssisəsinin adı hallansın mətbuatda.

- Buyurun. – deyə baş həkimə müraciət etdim.

- Birinci təşrihi deyim. "Təşrih" loru dildə desək, ölünü yardırmaq deməkdir. Peyvəndə gəldikdə isə AKDS-lə üç dəfə vaksinasiya aparırıq – körpənin iki, dörd, altı aylığında. Bir yaş yarımında isə revaksinasiya aparılır. Yəni ki, təkrar vaksinasiya. Dünənki uşaq da qəzetlərin yazdığına inansaq, revaksinasiyadan sonra ölüb. Amma ortada heç bir sübut yoxdur. Ehtimal var. O da bir faizə bərabərdir.

Təmkinimi qoruyub saxlayırdım. İstəmirdim ki, doğum evindəki hadisədən sonra səhvlərimi təkrarlayım. Amma həkimin hərəkəti məni qəzəbləndirmişdi. Nə olsun ki, tibbdən başım çıxmır, amma jurnalist qanım hələ ki, damarlarımda axırdı. Ona görə də qayıdıb Gülzar həkimin qaba münasibətini özümə uyğun şəkildə ironiyayla qələmə aldım. Uşaqlardan da xahiş etdim ki, məhz bu münasibətinə görə həkimi cəzalandırmaq lazımdır. Qoy hər gün qəzeti açanda stress keçirsin, əsəbiləşsin. Elə də oldu. İşin ictimailəşdirildiyini görən Səhiyyə Nazirliyi və hüquq-mühafizə orqanları da işə başladılar. Mən yenə də diqqət mərkəzindəydim. Bu, həm mənim işim idi, həm də ki, jurnalist dostuma həmrəylik nümayiş etdirirdim. Daha doğrusu, həmrəylik nümayiş etdirirdik. Nəhayət, dostumun həyat yoldaşının ifadəsi əsasında təhqiqat başlandı. İfadə də iki-üç cümlədən ibarət idi. "Uşağı binamızın yaxınlığındakı poliklinikaya apardım. Uşaq həkimi Gülzar xanım yoxlayıb müayinə etdikdən sonra dedi ki, peyvənd vurula bilər. Mən də düşdüm birinci mərtəbəyə peyvənd elətdirdim. Sonra uşaq qucağımda heç yana dönmədən düz evə gəldim. İçəri girdim. Uşağı xalçanın üstünə qoydum. Qayıdıb gödəkçəmi çıxartdım. Çöndüm gördüm ki, yerə yıxılıb, xırıldayır. Beləcə öldü. Peyvənddəndir. İki yüz faiz peyvənddəndir". Gülzar həkim də təslim olmurdu. Ayağını dirəmişdi ki, meyit eksqumasiya olunsun,

pataloji-anatomik təşrih edilsin. Jurnalist dostum, arvadı isə razı olmurdu. Amma Gülzar xanımın da geri çəkilmək fikri yox idi. Birinci, öz həkim imicini bərpa etməli, ikincisi də, bu söz-söhbətlərə son qoymalıydı. Beləliklə, eksqumasiya qərarı çıxarıldı. Məni də dəvət etdilər. Amma getmədim. Birinci eksqumasiyada yaşadıqlarım hələ də gecələr yuxuma girirdi. Uşağın meyitini qəbirdən çıxarıb ekspertiziyaya göndərdilər. Yardılar. Cavab da gəldi. İnkir-Minkir, təki bu addımı atmayaydı Gülzar həkim.

- Nə oldu ki, səhvi üzə çıxdı?

- Yox. Həkimin haqlı olduğu təsdiq olundu. Demə, dostumun həyat yoldaşı uşağı xalçanın üstünə qoyub, üzünü çevirib gödəkçəsini çıxardığı anda körpə də yerə düşən gilas tumunu götürüb basıb ağzına. O da gedib düşüb nəfəs borusuna. Nəticədə boğulub ölüb.

- Yaxşı. Ölümün əsl səbəbləri bilindi. Siz də əmin oldunuz ki, ölüm necə baş verib. Onda nəyə heyfsələnirsən ki? – deyə İnkir-Minkir soruşdu.

- Həkim sakitləşməyinə sakitləşdi. Amma dostumun həyat yoldaşı öz səhlənkarlığı ucbatından uşağının ölməsini bilib havalandı. Dəlixanaya düşdü.

Bu qədər, İnkir-Minkir. Mənim QHT sədri kimi ikinci cəhdim də uğursuz başa çatdı.

-Bəs nə əcəb həkimləri pul alan yerdə videosunu çəkmirdin? Bunu ki, eləmək asan idi?

- Mən, ay İnkir-Minkir, "Keyfiyyətli səhiyyə xidməti uğrunda" çalışırdım. Məni elə şeylər maraqlandırmırdı. Çünki həkimlər cüzi maaş alırdılar. Haqq qazandırırdım onlara. Həm də başa düşürdüm ki, həkimlik çox məsuliyyətli sahədir. Bir ayağı o, bir ayağı da bu dünyada olanlarla əlləşirlər. Məni mənəvi tərəfi daha çox maraqlandırırdı. Türmədə bu sahədə qalib gəlsəm də, bayırda hələ ki, məğlub olurdum. Səhiyyənin dərinliklərinə vardıqca başa düşürdüm ki, həkimlik nə deməkdir.

Amma yenə də ümidimi üzmürdüm. Bu yolda uğur qazanacağıma inanırdım. Günlərin bir günü cib telefonuma zəng gəldi. Bir kişi xeylağıydı. Ağlayırdı. "Arvadımı həkimlər öldürdü" deyib ağlayırdı. Xəstəxananın yerini dedi. Getdim ora. Demə, arvadı hamiləymiş. Dörd aydan sonra doğacaqmış. Həmişə də həkim nəzarətində olubmuş. Qəflətən ağrısı tutub. Çatdırıblar doğum evinə. Qız elə cərrahiyyə stolunda keçinib. Oğlan da , anası da özlərini öldürürdülər. Ayağımı qucaqlayıb "kömək elə! Öldürüblər, indi də ölümüzü vermirlər ki, aparıb basdıraq. Yasımızı keçirək" deyə yalvarırdılar. Bu dəfə də işimi ehtiyatlı tutub həkimləri sorğu-sualla başladım. Heç mənimlə danışmaq istəmədilər.

- Sizi yaxşı tanıyırıq. Qanlıgün müəllimsiniz. Bundan əvvəlki təhqiqatlarınızı izləmişik. Ona görə də

işimizi ehtiyatlı tutduq. Meyiti yardırmağa göndərdik. Ailəsi qışqır-bağır salsa da.

- Lap əcəb elədiniz. Sizə kim nə deyir ki? Mən soruşuram ki, qadın nədən ölüb.

- Hamilə qadın bizdə uçotda idi. Hamiləliyi nəzarətimizdə idi. Beş aydır ki, vaxtlı-vaxtında müayinəsindən də keçib. Dünən də ağrısı tutub. Gətiriblər. Qaldırdıq stola ki, müayinə edək. Baxdıq ki, çifti ayrılıb. Uşaq da boğulub ölüb. Ana da qan itirdiyindən xilas edə bilmədik.

- Bu hansı səbəbdən baş verə bilərdi ki?

- Burda nəsə başqa səbəb var. Ona görə də "medekspertiza"nın cavabını gözləsək yaxşıdır.

Həyətə çıxdım. Oğlanla anası qabağıma qaçdılar.

- Verirlər ölümüzü? Apara bilərik?- deyə ana birinci soruşdu.

- Bir azdan. Yardırmağa göndəriblər ki, ölüm səbəbini bilsinlər.

Bunu eşidən ana "Vay evim yıxıldı" deyib səkinin üstünə oturdu. Oğlanın da rəngi qaçdı. Əsməyə başladı. Qollarından tutub "besedka"ya apardım. Su alıb gətirdim. Üstündən bir-iki saat keçdi. Mən hələ ana-balanın yanındaydım. Artıq saytlara, qəzetlərə hay vurmuşdum. Hamısı "Azərbaycanda daha bir ana ölümü", "Həkim səhlənkarlığı ana ilə uşağının həyatına son qoydu" başlıqlı yazılarla hay salmışdılar. Bu haya əvvəlki kimi Səhiyyə Nazirliyi reaksiya

da vermədi. Bir də gördüm ki, qəbul şöbəsinin yanında polis maşını dayandı. İçəri keçdilər. Az sonra ginekoloqla bayıra çıxdılar. Ginekoloq barmağını bizə tərəf uzatdı. Polislər yanımıza gəldilər.

- Ölənin adamları sizsiniz?

- Bəli.

- Nəyisiniz?

- Mən əriyəm, bu da anamdır. Bu yoldaş da QHT sədridir – Qanlıgün müəllim.

- Ölüm hadisəsi olduğuna görə bizim polis şöbəsində təhqiqat aparılır. Bizimlə getməlisiniz.

Beləcə, ana-balanın qoluna girib polis maşınına mindirdilər. Mən isə xəstəxanada qaldım. Ekspertizanın cavabı gəlmişdi. Amma nə qədər çalışırdımsa, nəticəsini mənə demirdilər. Məcbur olub polis şöbəsinə getdim. Müstəntiqin üstünə yönəltdilər məni. Otağına girəndə polislər oğlanı otaqdan çıxarırdılar. Amma əllərində qandal vardı. Çıxanda oğlan bircə "bağışlayın bizi, Qanlıgün müəllim" dedi. Amma heç nə başa düşmədim. Otağa girdim. Yaşlı qadın oturub, başını aşağı salmışdı.

- Bilirsinizmi, Qanlıgün müəllim, - deyə müstəntiq mənim nigarançılığıma son qoymağa başladı, - ekspertizanın cavabı gəldi. Gəlinin üzərində zorakılıq əlamətlərinin olduğu açıq-aydın görsənirdi. Həkimlər də nə yaxşı ki, sayıqlıq göstərib meyiti yiyələrinə verməyiblər, birbaşa morqa göndəriblər. Oğlan

günahını boynuna aldı. Dedi ki, "günahkar mənəm. Döymüşəm qızı. Boynuma alıram". Amma nə qədər elədimsə təfsilatını demədi. Ana isə danışmaq istəmir.

Otaqdan çıxıb saytlara zəng elədim. İlkin səbəbləri dedim. Dilxor oldular. "Yenə də həkimlər sudan quru çıxdı? Bu nə oldu e? Gül kimi bomba xəbəri zibil elədin" dedilər. Polis şöbəsinin həyətindəki oturacaqda oturdum. Bir azdan ana da çıxdı. Məni görüb gəlib oturdu yanımda. Deyəsən, danışmağa, ürəyini boşaltmağa bir adam axtarırdı.

- Ay oğul, günah oğlumda deyil, məndədir. Mən bais oldum onun bədbəxtçiliyinə. Mənim ana qısqanclığım. Amma bilməzdim ki, sonu faciəylə qurtaracaq. Hamını itirdim. Oğlumu, gəlinimi, gələcək nəvəmi.

- Necə oldu axı? Mənə danışa bilərsinizmi?

- Danışaram. Amma sən Allah heç kimə demə.

- Narahat olma, ay xala. Heç kimə deməərəm. Danış.

- Ay bala, bu, mənim tək övladımdır. Tək böyütmüşəm onu, oxutdurmuşam. Əlini çörəyə çatdırmışam. Arzum olub ki, elçi gedim, nişan aparım, toy eləyim. Bu isə nə elədi? Gedib yetim evində böyüyən birini gətirib arvad elədi. Üstəlik anasını da yaddan çıxartdı. Onu əzizləyəndə, xoş söz deyəndə az qalırdım ki, havalanım. Bir yerdə qaldığımıza baxmayaraq qazanımı ayırdım. Soyuducuya qıfıl qoydurdum. Dedim ki, canın çıxaydı cehiz gətirəydin. Qız da insafən cavab qaytarmırdı. Tərbiyəli uşaq idi. Hiss edirdim

ki, oğlumu da həqiqətən sevir. Bu, məni sevindirməkdən, daha da cırnadırdı. Hamiləliyi isə lap yığmışdı boğaza. Pis keçirirdi. Bütün günü öyüyürdü. Yemək də bişirə bilmirdi. Yeməyin iyi gələndə belə öyüyürdü. Oğlum da əsirdi üstündə. O gün yadımdan çıxıb soyuducu açıq qalıb, qıfılını vurmamışam. Bu da bilmədən qapısını açıb, xamanı görüb. Ürəyi istəyib götürüb yeyib. Qayıdıb bunu bilmədim?! Başladım qızı söyməyə. Otağına girib uzandı. Cınqırını da çıxarmadı. Oğlum gəldi. Başladım ona da şikayətə ki, bəs xolodilnikimdən oğurluq edib qız. Smetanımı oğurlayıb. Qız da day dözməyib cavab qaytardı. Oğlumdan da çıxmayan iş. Silləni çəkdi ağzının üstündən. Qız zərblə yerə sərələndi. Uşaq dözməyib hələ bir dənə təpik də vurdu. Ləzzət elədi mənə oğlumun bu hərəkəti. Sonra siqaret çəkmək üçün balkona çıxdı. Qızın səsi evi götürdü. Elə bildim ki, aferistlik edir. Mən isə qələbə çalan biri kimi mətbəxə keçdim. Hardan biləydim ki, gəlin can verirmiş. Oğlum siqaretini çəkib evə girəndə gəlinin də səsi kəsilmişdi. Birdən uşaq "ana, ana, bura gəl. Kömək elə" dedi. Mən də gəldim. Qadının paltarı qan içində idi. Tez skorıya zəng...

Qadının yanından durub ayrıldım. Sözünü ağzında qoydum. İnkir-Minkir, türmədə dərdini danışıb kömək diləyənlərə yardım göstərəndə eynim açılırdı. Azadlıqda isə hamı dərdini danışırdı. Kömək də istəmirdilər. Özləri yaratmışdılar bu problemləri

özləriyçün. Özləri yıxıldıqları üçün ağlamırdılar. Amma şərt qoymaqları - "danışdıqlarımı heç kimə demə" söyləmələri məni özümdən çıxarırdı. Öz dərdim özümə bəs idi. Bunlar da bir yandan. Elə bil ki, bunlarçun sirr dağarçığıydım, nə idim, bilmirəm.

Üstəlik də olan-qalan hörmətimi itirirdim. Səhiyyə Nazirliyindən də xəbərdarlıq gəlmişdi ki, bir də təsdiqini tapmayan informasiyaları yaysam məhkəməyə müraciət edəcəklər. Həkimləri yaxından tanımağa başlamışdım. Əzrayılla həkimin fərqini bilirdim. Ay İnkir-Minkir, özün fikirləş. Hansı həkim istər ki, ona pənah gətirən xəstəsi ölsün, hə?! Heç biri. Biz isə onları sanki Allahlaşdırmışdıq. Elektrikşəbəkə cərəyanı kəsirdi, süni nəfəs verən aparat həmən dayanırdı – xəstə ölürdü. İşığı söndürürdülər – cərrahiyyə əməliyyatı dayanırdı – xəstə ölürdü. Dərman tapılmırdı – xəstə ölürdü. Qan tapılmırdı – xəstə ölürdü. O qədər şeylə rastlaşdım ki, sayı-hesabı yox. Hamısında da biz jurnalistlər həkimi taqsırkar çıxarırdıq. Onlar isə dinmirdilər, danışmırdılar, dözürdülər. Bizim yalanımızı özümüzə yedizdirmirdilər. Əksinə, sonradan onlara müraciət edəndə bizi heç nə olmamış kimi qarşılayırdılar. Hər şeyə - toya salmağa, dodağımızı şişirtməyə, burnumuzu kəsdirməyə, araq, siqaret almağa, telefona, kompüterə, kontura, gəzməyə çıxmağa – pul tapırdıq, amma həkimə pul verəndə bütün aləmə car çəkirdik. Bütün gecəni bizi yatmağa qoymayan

dişimizi çəkib bu ağrıdan xilas edən həkimə sağ ol əvəzinə "borcundur" deyib çıxıb gedirdik. Əvvəlcədən demirdik, məhz dişimizi çəkəndən sonra xoruzlanırdıq. "Qaynar xətt"lə, hətta polislə, prokurorla, məhkəməylə hədələməyimizi demirəm.

İnkir-Minkir, beləcə "Keyfiyyətli səhiyyə xidməti uğrunda" qeyri-hökumət təşkilatımın işinə xitam verdim. Bu sahə alınmadı məndə. Bu həyat çox qəliz bir şey idi. Gözə görünməyənlər gözə görünənlərə qalib gəlirdi. İttiham etmək asan idi, cəzalandırmaq çətin. Hər bir cinayətin arxasında cəmiyyətin buraxdığı səhvlər dururdu. Cəmiyyəti ruhlar idarə edirdi. İnsanlar da hamısı ruhən xəstəydilər. Daxili rahatlıq tapa bilmirdilər. Vəzifəlisi də, varlısı da, kasıbı da, ortababı da. Varlının içi özünü, bayırı özgəsini yandırırdı. Kasıbın isə həm içi, həm də bayırı özünü yandırırdı.

Ay İnkir-Minkir, nə başınızı ağrıdım, profilimi dəyişdim. Nəsə bir işlə məşğul olmalıydım, ya yox? Jurnalistikaya isə qayıtmaq istəmirdim, jurnalistlikdən başqa da əlimdən bir iş gəlmirdi. Yenə də hara getsəm işim onlardan yan ötmürdü. Çünki jurnalistliyim - rəsmi olaraq QHT sədri olsam belə - deyən dilim, vuran qolum idi.

Qərar verdim ki, yol-qəza hadisələrində zərər çəkənlərə yardım göstərim. Ona görə də yeni QHT yaratdım. Adını da "Yol qəzalarında ölənlərin ailəsinə

yardım" qoydum. İlk sensasiyalı qəza özünü çox da gözlətmədi. Biri xarici maşınıyla "Jiquli"ni əzib üstündən keçmişdi. Heç həkim müayinəsini gözləmədən birinci yaydığım xəbərim bu oldu ki, sürücü sərxoş imiş. Çünki özünü sərxoş, hallı kimi aparırdı. Çoşurdu, polislər onu güclə ram edirdilər. Heç kimi vurmurdu, əzmirdi. Bəlkə də qəzanın şokundan bu haldaydı. Mən də olanları telefonun kamerasına çəkirdim. Xarici maşının sürücüsü bağırdıqca gözləri hədəqəsindən çıxırdı. Əslində sərxoş adam təsəvvürü də bağışlamırdı. Nə idi bu? Anlamırdım.

Nəhayət, polislər onu maşına basıb apardılar. Sonra məlum oldu ki, "Jiquli"nin sərnişinlərindən biri ölüb. Bu mənim gücümə bir az da güc qatdı. Xarici maşının sürücüsünün vəzifəli oğlu olması bilinəndə isə artıq sevincimin həddi-hüdudu yox idi. Ona görə yox ki, pul qazanmaq imkanlarım artmışdı. Əsla. Mən adi bir qəza hadisəsini ictimai hadisəyə - siniflərin mübarizəsinə çevirəcəkdim. "Jiquli"də ölən və yaralananlar maraqlı deyildilər mənimçün. "Jiquli" sürən kim olacaq ki? Kasıbın, lütün biri. Müstəvidə məmur uşaqlarının qudurğanlığı problemi və bunun cəmiyyətə vurduğu ziyanlar dururdu. İctimai fikri formalaşdırmağa ehtiyac da yox idi. Artıq qütbləşmə son həddə idi. Nə desəydim arxamda dayanacaqdılar. Hələ məni yumşaq davranmaqda, ifadələrimi ehtiyatla seçməkdə ittiham da edəcəkdilər.

Zərərçəkən tərəf çox kasıb idi. Ata, ana yaralanmış, uşaqları isə həlak olmuşdu. Xəstəxanaya gedib yaralılara dəydim. Söhbət etdim. Başlarının üstündə növbə çəkənlər də vardı. Soruşdum ki, kimdir bunlar? Dedilər ki, yaxşı insanlar xali deyilmiş. Eşidiblər ki, ağır vəziyyətə düşmüşük gəliblər köməyə. Dilimi dişlədim. Bu avamlar başa düşməsə də, gün kimi aydın idi ki, bu vəzifəli şəxsin adamlarıydı. Bu şəxslər yaxşı baxırdılar övladını itirmiş atayla anaya. Dəfn, yas xərclərini də öz boyunlarına götürmüşdülər. Duyuq düşməyək deyə gözə kül üfürməkçün məmur oğlunu, vəzifəli şəxsi söyürdülər də. Amma məni aldada bilməzdilər. Nə olsun ki, "belələrini tutmaq yox, camaatın gözü qabağında diri-diri yandırmaq lazımdır ki, o biri qudurğan vəzifəli uşaqlarına da örnək olsun. Möhkəm olun. Bağışlamayın bu oğraşları" deyirdilər. Biri var idi - məni görəndə lap coşub-daşırdı, QHT-mizi tərifləyirdi. Hətta bankdakı hesabımıza pul da köçürtdürmək istəyirdi. Amma mən hesab nömrəmi vermirdim. Beləcə, günlər bir-birini əvəz edirdi. Ata-ana xəstəxanadan çıxmışdı. Vəzifəli məmurun oğlunu da həbs etmişdilər. Bütün mətbuat onların addımını qarışbaqarış izləyirdi. Məmurun əleyhinə atılan hər bir addımı ədalətin təntənəsi kimi qiymətləndirirdilər. "Övladına tərbiyə verə bilməyən bu cür məmurlar yüksək vəzifə tutmamalıdırlar" deyirdilər. Amma ki, məmur öz vəzifəsinin icrasını davam etdirirdi.

Mən isə öz ampluamdaydım. Müsahibələr verir, övladını qəzada itirmiş ata-anaya qahmar çıxırdım. Axı, mənim QHT-min də məram-məqsədi bundan ibarət idi. İki qrant da almışdım. İşləri sona çatdırıb hesabat hazırlamalıydım. Yolumda heç bir maneə yox idi.

Keçmiş vəzifəli isə məni görən kimi qabağımı kəsir, hey " Qanlıgün müəllim, vallah mənim oğlumun təqsiri yoxdur" deyirdi. Soruşanda ki, "bəs təqsir kimdədir?" üzünü çevirib gedirdi. Sanki danışmaqdan qorxurdu.

Aylar ötdü, istintaq tamamlandı, iş məhkəməyə verildi. Məhkəmə zalından da maraqlı məlumatlar ötürürdüm. Övladını itirmiş anayla qatil arasındakı dialoqlara təsirli olsun deyə xüsusi bir rəng də qatırdım. İctimaiyyəti tam şəkildə nəinki müttəhimin, bütün ailəsinin əleyhinə qaldırmışdım. Özlərinə qapılıb dayanmışdılar. Cınqırları da çıxmırdı. Heç kim onlarla danışmaq belə istəmirdi. Hərdən övladını itirmiş anayla ataya yaxınlaşıb nəsə demək istəyirdi. Onlar da rədd edirdilər. Xəstəxanada gördüyüm şəxslər məhkəməyə də gəlirdilər. Ata-anaya ürəkdirək verirdilər. "Möhkəm olun!" deyirdilər. Amma nə qədər çalışsam da kimliklərini öyrənə bilmirdim. Beləcə, sonuncu gün gəlib çatdı. Vəzifəli balasına 11 il iş oxundu. Hamı övladını itirmiş atayla anaya gözaydınlığı verirdi. Onlar isə ağlayırdı. Sevinc göz yaşlarıydı bu. Balalarının qatili, daha doğrusu səbəbkar

cəzasını almışdı. Elə həmin gün axşam vəzifəli atanın da sərəncamı oxundu. Oğlunun təqsiri sübuta yetirildiyi üçün onun da yüksək vəzifədə qalması məqsədəuyğun sayılmamışdı.

Günlər ötdü. Mən də hesabatımı hazırladım. Qəza hadisələri çox idi. Haqsızlıqla üzləşəndə mənə də pənah gətirəni olurdu. Kömək edirdim. İşimdən həzz alırdım. Amma məmur balasıyla bağlı hadisə yadımdan çıxmırdı. Daha doğrusu, atasının "Qanlıgün müəllim, vallah mənim uşağımın təqsiri yoxdur" sözləri. Bəs günah kimdəydi? Yəni məhkəmə, bütünlükdə ictimaiyyət onun oğlunu cəzalandırmaqda yanlışlığamı yol vermişdi?

İnkir-Minkir, bu söz nəsə məni rahat buraxmırdı. Günlərin bir günü həmin keçmiş məmura zəng etdim. Görüşmək istədiyimi bildirdim. Bu suala cavab alıb daxilən rahatlıq tapmaq üçün. Razı oldu. Amma bir şərtlə. Qəzada övladını itirmiş ata da bu söhbətdə iştirak etməliydi. Ona da zəng elədim. Etiraz etmədi. Razılaşdığımız kimi kafelərin birində görüşdük. Hər ikisi sanki heç nə baş verməyibmiş kimi əl verib görüşdülər. Söhbətə də elə zərərçəkən başladı.

- Sağ olun müəllim, gizli də olsa dayaq durdunuz bizə. Çoxdan demək istəyirdim. Ətrafımdakılar isə imkan vermirdilər. Bircə "bağışlama, cəzalandır" deyirdilər. Sanki bu sözlərdən başqa heç nə bilmirdilər. Sağ olun ki, köməksiz qoymadınız bizi. Kasıb ailəyik.

Gücümüz çatmayacaqdı nə müalicəyə, nə də uşağı yerdən götürməyə, başdaşını qoymağa.

- Düz deyir, mən də gördüm. Bütün günü xəstəxanada başlarının üstündəydilər. Mən elə bildim ki, ağsaqqal başa düşmür. Demə o da duyuq düşübmüş. Heç nəyə baxmayaraq yaxşılığınızı əsirgəmədiniz,- deyə mən də söhbətə qarışdım.

- Hansı yaxşılıq? Mən heç bir yaxşılıq eləməmişəm.

- Bəs xəstəxanadakılar sizin adamlar deyildi? Məhkəməyə də gəlirdilər. Ağsaqqalın yanında oturub ürək-dirək verirdilər. – deyə bir də soruşdum.

- Yox.

- Bəs onlar kim idilər?

- Mən də sizi elə ona görə birlikdə dəvət edim ki, olanları danışım. Axırını deyim, yoxsa ki, əvvəldən danışım?

- Elə əvvəldən danışın.

Bu an çayçı samovarı gətirib yanımıza qoydu. Kəklikotunun ətri aləmi götürdü. Hərəmizə bir armudu çay süzdü. Mürəbbə çəkib qabağımıza qoydu. "Nə lazım olsa burdayam. Çağırarsınız" deyib kabinetdən çıxdı.

-Ay ağsaqqal, ay Qanlıgün müəllim, mən də sizin kimi sadə, kasıb bir ailənin övladıyam. Ehtiyac içində böyümüşəm. Həmişə də çalışmışam ki, dövlətli olum. Varlılara həsədlə baxmışam. Özümə söz vermişəm ki, uşaqlarım mənim kimi əziyyət çəkməyəcəklər, hər

şeyləri olacaq. Nəinki övladlarım, istəmişəm ki, qohumlarım, dostlarım da keyf içində yaşasınlar. Amma nə hay edirdimsə alınmırdı. İşim, maaşım yaxşı idi. Amma arzularımın həyata keçməsinə çatmırdı.

Rəisimiz arxalı adam idi. Rəsmən bir kreslosu olsa da, iki idarəyə nəzarət edirdi. O biri təşkilatın rəhbəri isə işləri yarıtmırdı. O da dilxor olan kimi, məni yanına çağırar, hirsini tökər, ürəyini mənə açardı. Növbəti belə söhbətlərdə zarafatla dedim ki, çıxart onu, qoy məni onun yerinə. Düzünü desəm, heç fikrim də yox idi o vəzifəyə keçim. Gözüm də yox idi o kresloda. Mənimçün əlçatmaz bir şey idi. Ağlıma gətirə bilməzdim bunu. Sadəcə zarafat kimi dedim. Rəisim bu sözü eşitcək duruxdu.

- Doğru sözündür?

- Hə.

- Bacararsan?

- Hə.

- Yaxşı. Get otağına. Mənim gedəsi yerim var.

Mən otağıma keçdim. Yazı-pozu işlərimlə məşğul olmağa başladım. Üstündən iki saat keçmişdi ki, bir də gördüm ki, qapı taybtay açıldı. Rəis içəri girdi.

- Alə, tez elə, qaç evə kostyum-qalstuk geyin gəl. Qəbula gedirik. Danışdım. Razıdırlar.

- Nəyə?

- Sənin göndərirəm o biri idarəyə rəis. Bacarmayasan a... canıvu alaram.

- Mən zarafat edirdim.

- Nə zarafat? Başın xarabdır? Bizi gözləyirlər. Get tez kostyumunu geyin gəl.

- Nə kostyum? Kostyumum yoxdur, axı?

- İşə düşdük də. Getdik.

Rəis məni idarənin qabağındakı dükana gətirdi. Tez bir dəst kostyum seçdi, balağını kəsdirdi. Ayaqqabı, qalstuk, köynək də öz yerində. Pulunu da ödədi. Elə bil ki, təzə bəy idim. Heç kim mənə ömrümdə belə bahalı hədiyyə almamışdı.

- Bax, bu başqa məsələ. Əsl vəzifəyə layiq adama oxşadın. Getdik.

Getdik nazirliyə. Bir sözlə, həmin gündən oldum vəzifə adamı. İnsafən pul dalıyca qaçmadım. İşləri tam yoluna qoydum. Üç aydan sonra idarə xeyirlə işləməyə başladı. Yeni layihələr hazırladım. Bu sahənin mütəxəssisiydim. Beynimdə nə var idisə, qoydum ortalığa. Keçmiş rəisim də seçimində yanılmadığını görüb fərəhlənirdi. Nəhayət, pulun başı açıldı, nə açıldı. Dediyim kimi, birinci növbədə arvad-uşağa əyin-baş aldım, evi təmir elətdirdim. Uşaqlıq dostlarımı başıma yığdım. Hər axşam kafelərin birində qonaq edirdim onları. Qış vaxtı da ki, xaş qonaqlığım əskik olmurdu. Düz iyirmi kilo kökəlmişdim. Qarnım çıxmışdı. Nərmə-nazik oğlandan əsər-əlamət qalmamışdı.

İşim də ki, öz qaydasında davam edirdi. Kəsirlə işləyən bir sahəni gəlirli sahəyə çevirmişdim. İşçilərim

də razılıq edirdi. Aylıq mükafat yazırdım onlara. Bir ildən sonra şəhərin mərkəzində ev aldım. Əsaslı təmir elətdirdim. Sonra keçdim köhnə bağıma. Təməldən müasir bir villa tikdirdim. Günlərin bir günü işdə halım pisləşdi, yerə yıxıldım. Gözümü açanda gördüm ki, xəstəxanadayam. Demə, ürəyim tutubmuş. Nə qədər kabab, xaş yemək, araq içmək olar axı. Heç ömrüm boyu son bir il yarım ərzində bu qədər təamlar qəbul etməmişdim. Sanki görməmiş idim. Nəticədə isə ürəyi piyləndirmişdim. Təcili cərrahi müdaxilə lazım idi. Beləcə, 47 yaşımda bıçaq altına düşdüm. Arağa, yağlı yeməklərə əlvida dedim. Ancaq xüsusi, bahalı italyan çaxırı içməyə icazə vermişdilər. O da ki, hərdən. Amma dostları yaddan çıxarmırdım. Əsas vaxtımı təmiz havası olduğu üçün bağda keçirirdim. Köhnə dostlarım da ətrafımda. Arağı, çaxırı, pivəni yeşiklə aldırırdım. Yemək də öz yerində. Kafeyə getmirdik. Xaşı qazanda taksiylə gətirirdilər. Dostlar yeyib-içirdilər, mən isə ləzzət alırdım. Uşaqlar da böyüyürdü. Artıq institutu qurtarırdılar. Hər ikisinin evi hazır idi. Gələcək gəlinlərin cehizinə heç ehtiyac da yox idi. Bağ da tikdirirdim hərəsiyçün. Ağıllı uşaqlar idi. Ana tərbiyəsi gördükləri üçün çoxu onları "maminkin sınoçek" çağırırdılar. Sanki bu ad onlarda bir kompleksə çevrilmişdi. Evləndirdim hər ikisini, oğul-uşaq sahibi oldular. Var-dövlətim artdıqca rəqiblərim də artırdı. Amma açıq mübarizəyə qalxa bilmirdilər. Yaxşı

adam olmağıma görə utanırdılar. Çünki çörəkverən adam idim. Pisliklə aram yox idi. Gəlinlərə də yaxşı baxırdım. Hərəsinə ayrıca maşın ayırmışdım. Həm nümunəvi müdir, həm də ailə başçısı, baba, qohum, dost idim. Çünki özüm də kasıbçılıq görmüşdüm. İnsanları yaxşı başa düşürdüm. Elədiyim yaxşılıqlar hər addımda qarşıma çıxırdı. Amma yerimə göz dikənlər də çoxalırdı. Dinc oturmurdular. Uzun danışıb başınızı ağrıtmaq istəmirəm. Birinci ailəmə əl uzatdılar, gəlinlərimi yoldan çıxartdılar. Boşatdırıb uzaqlaşdırdım hər ikisini. Oğlanlarıma da "maminkin sınoçekdir bunlar. Bunlardan arvad saxlayan olar?" dedilər. Onlar da bu kompleksi üstlərindən atmaq üçün qoşuldular tay-tuşlarına. Özləri kimi varlı uşaqlara qoşulsaydılar, yandırmazdı məni. Hamısı imkansız adamlar idi. Bunları qazlayır, hesab verdirirdilər. Sizin tanıdığınız, indi həbsdə olan oğlum isə ümumiyyətlə nə çəkən, nə də içən idi. İçəndə də hacı pivəsi içərdi. Neçə dəfə demişdim ki, uzaq gəz o avaralardan. O qaçsa da, bundan əl çəkmirdilər. Bara, restorana getmək istəməyəndə də, ""maminkin sınoçek"sən, get evdə süd iç" deyə cırnadırdılar. O da bu kompleksinə görə yanlarına düşüb gedirdi.

Günlərin bir günü struktur dəyişiklikləri aparıldı. Köhnə rəisimi, xeyirxahımı çıxartdılar. Yerimə göz dikənlər hərəkətə keçdilər. Pensiya yaşım da çatmışdı artıq. Mən özüm də işdən uzaqlaşıb, dincəlmək

istəyirdim. Amma ertəsi günü tərs kimi köhnə rəisin yerinə gətirib mənim keçmiş işçimi qoydular. O da birinci məni yanına çağırdı. Ərizəmi yazıb hazır qoydum qovluğa. Bildim ki, nəyə görə çağırıb. Bəsdir daha, getməliydim. Bir də ki, vəzifə boyuma ölçülməyib ki? Girdim otağına. Ərizəmi qoydum qabağına. Cırıb atdı zibil yeşiyinə. Dedi ki, "necə var, elə də davam etməlidir. Siz həmişə mənim xeyirxahım olmusunuz, bu gün də mənə arxa olmalısınız. Sizi heç yana buraxan deyiləm". Yerimə göz dikənlərin əli boşa çıxdı. Əmrim yenicə veriləndən iki gün sonra bu hadisə baş verdi. "Dost"ları da kiminsə diqtəsiylə uşağın hacı pivəsinə nə atıblar, nə atmayıblar bilmirəm. Sonra da mərc qoşublar ki, sən maşını 200-lə sürə bilməzsən. Bu maminkin sınoçek də nəyinsə təsirindən dönüb olub şir. Sonda da gəlib toqquşub sizin maşınla. Maşın, hər şey cəhənnəmə. Ara yerdə sizə övlad dağı çəkdilər, mənə də övlad dərdi verdilər. Bircə vəzifəyə görə.

- Bəs xəstəxanadakı adamlar kimlər imiş.

- O mənim yerimə keçmək istəyənin adamlarıydı. Qorxurdular ki, birdən sizinlə razılığa gələrəm, qan bahasını verərəm, əsl səbəbi deyərəm. Ona görə də yanınızdan çəkilmədilər. Həm maddi cəhətdən ehtiyaclarınızı qarşıladılar, həm də psixoloji olaraq sizi mənə qarşı qaldırdılar. O cümlədən, mətbuatı da, Qanlıgün müəllim kimi hüquq müdafiəçilərini də. İstədiklərinə də nail oldular.

- Bəs nə əcəb məhkəmədə durub bunları demədiniz?

- Məhkəmə sübut istəyəcəkdi. Mənim isə sübutum yox idi. İzləri itirmişdilər. Yaxud da hansı axmaq durub etiraf edər ki, oğlumun stəkanına nəsə atıb, sonra da gedib türmədə yatsın. Fakt isə faktlığında qalırdı. Ortada yüksək sürət, ölüm vardı. Sübutlar gətirsəydim belə, bu, başqa bir cinayət işinin mövzusu olacaqdı. Oğlumu onsuz da tutacaqdılar. Bu hadisədə isə bir günahkar vardı. O da mən idim. Mən və mənim vəzifəm. Heyf deyildi kasıb vaxtlarım. Hər şeyimi itirdim – sağlamlığımı da, ürəyimi də, ailəmi də, təmiz adımı da. Bu qədər. Qanlıgün müəllim, bilirsinizmi sizə niyə dedim ki, ağsaqqalı da dəvət edəsiniz? Çünki artıq məhkəmə başa çatıb. Birinci, hər şeyi olduğu kimi qəbul etməyini istədim. İkincisi də, bir məsələ ürəyimdə qalıb. Bilirsiniz də, maşınlar şil-küt olub. Nə mən onun oğlunu geri qaytara bilərəm, nə də mənim oğluma türmədən dönüş var. Ev uşağıdır, kolonda çərrədib öldürəcəklər. Ağsaqqal icazə versin, heç olmasa maşının pulunu ödəyim. Bəlkə bir daxili rahatlıq tapam.

Vəzifəli şəxs ayağa durdu. Zərəçəkmişin razılıq və ya imtina cavabını da gözləmədi. Cibindən içi dolu zərf çıxarıb ortaya qoydu. Sağollaşıb getdi. Bununla da neçə ay davam edən qəza hadisəsinə son qoydu. Elə mənim bu sahədəki fəaliyyətimə də...

İnkir-Minkir, məəttəl qalmışdım. Bilmirdim ki, nə işlə məşğul olum. Kimə kömək edim. Hər bir hadisənin arxasından elə mənəvi iztirablar baş qaldırırdı ki, məni əzirdi, diri-diri öldürürdü, basdırırdı. Yox idi bu iztirabların izahı. Kasıbı bir cür bədbəxt idi, varlısı isə ondan da bədbəxt. Mətbuatı izləməyə başladım. İnkir-Minkir, bilirsənmi ən çox tirajlanan xəbər hansıdır?

- Hansı?

- Tərbiyəsizliklə, fahişələrlə bağlı xəbərlər. Əgər istəyirsənsə yazını yaxşı oxusunlar, ora intim, erotik bir söz yaz. O saat oxuyacaqlar.

- Tərbiyəsiz-tərbiyəsiz sözlər danışma.

- Tərbiyəsiz niyə? Lap "qısa ətək" sözü yazsan da bəs edər. Yaxud da "sinəsi açıq". Oxucu elə bil ki, susayıb bu cür yazılara. Gözü alıcı quş kimi alır bu informasiyaları. Hələ bədii əsərləri demirəm. "Qızın dodağı ehtirasdan od tutub yanırdı. Bədəni uçunur, göbəyi atırdı. Dodağı çat vermiş, hətta qanamışdı da... oğlan da dodaqlarını onun dodaqlarına yaxınlaşdırıb, diliylə islatmağa..."

- Bəsdir, axmağın biri, axmaq. Görmürsən arvad-uşaq var. Səni adam bilib danışmağa imkan verdik. Day demədik ki, gic-gic danış burda.

- Gördünmü, İnkir-Minkir, sizə də pis təsir etdi. O saat başa düşdünüz ki, bu təmiz məhəbbət deyil. Bu mənim "Fahişənin arzuları" hekayəmdən bir

fraqment idi. Bir də ki, hansı abır-həyadan danışırsınız axı. Xristianlar heç olmasa ölüyə kostyum geyindirir. Bizim isə hamımızı fani dünyada çimdirib, lütləyib göndəriblər bura...

- Sən Allah, Qanlıgün müəllim, başqa sözün yoxdursa, ötürək səni Cəhənnəmə. Bir iş verək başını sal aşağı işlə.

- Nə? Neçə gündür danışdırırsınız, istədiyinizi eşitmisiniz. İndi əsas yerinə gələndə səsimi kəsmək istəyirsiniz? Danışmalıyam. İndi də eşitmək istəmədiklərinizə qulaq asın. Onsuz da Cəhənnəmliyəm. Heç nədən qorxum yoxdur. Bütün çılpaqlığıyla danışacağam. İyrənsəniz də, danışacağam. Sonacan danışacağam. Mənim ölümümə fərman verən bir fahişədən danışacağam. Akademikdən də ağıllı tərbiyəsiz qadından. Həyatın dibində çabalayan, lakin həyatın üzünə meydan oxuyanlardan danışacağam.

- Yaxşı, danış.

- İnkir-Minkir, qərara aldım ki, insan alverinin qurbanlarına yardım edim. Guya aldadılaraq xaricə aparılan, sonra pasportu əlindən alınanlara yox. İçərimizdə olan tərbiyəsiz qadınlara. Amma kontakt yarada bilmirdim. Bu sahədə elə də təcrübəm yox idi. Bir də ki, hansı qadın boynuna alar ki, tərbiyəsizdir. Hələ bir yardım da istəsin. İkinci də, nə yardım göstərəcəkdim ki, ona? Yoluq sədr, bir də qranta tamarzı QHT nə edə bilərdi ki?... Bacardığım yalnız o olacaqdı ki,

problemi kökündən öyrənim, mətbuatda çıxış edərək ictimaiyyətin fikrini bu problemin həllinə yönəldim. Vəssalam. İndi, ay İnkir-Minkir, özün fikirləş, hansı tərbiyəsiz özünə fahişə deyər ki, üstəlik ürəyini də mənə açsın?

Bu vaxt sevimli yazıçım Corc Simenon köməyimə çatdı. İnkir-Minkir, bilirsinizmi ki, o, "Komissar Meqre" silsilə romanlarını yaratmaq üçün nə edib? Düz iki il polis idarələrindən birində ordakı xəfiyyələrlə gecə-gündüz keşik çəkib. Materiallar yığıb. Sonra isə başlayıb yazmağa. Mən də bu yolla getməyə qərar verdim.

Saytların birindən oxudum ki, hansısa barda əxlaqsızlıq yuvası açılıb. Axşam getdim ora. Zirzəmidə yerləşən bir obyekt idi. Qapısında mühafizəçi dayanmışdı. Gözümün içinə baxıb, məni diqqətlə süzdü. İçəri girdim. Gözlərim qamaşdı. Aman Allah, burda nə qədər qız var? Hamısı da biri-birindən gözəl. Bakıda yaşaya-yaşaya indiyə qədər bilməmişəm ki, barda belə qəşəng qızlar varmış. Keçib əyləşdim divanda. Onlardan biri mənə yaxınlaşdı:

-Nə içirsən?

- Sok, - deyə cavab verdim.

- Barda sok içərlər?

- Nəyiniz var?

- Pivə, redbul, çipsi, fistyajka.

- Pivə hansındandır?

- Xırdalan, EFES, Miller.

- Xırdalan neçəyədir?

- Dörd manat.

- Nə? Dörd manat? Bayırdakı mağazada bir manatdır, burda dörd manat?

- Bura bax, sən bura pivə içməyə gəlmisən?

- Burda başqa nə var ki?

Ay İnkir-Minkir, bunu deməyimi görmüşdüm. Qız əl atdı sinəmə, sonra da şalvarıma, başladı hər iki əliylə əlləməyə.

- Qanlıgün müəllim, axı sizə dedik ki, təfərrüatlara çox da varmayın. Burda arvad-uşaq var.

- Pis nə dedim ki?

- Bundan artıq nə deyəcəksən ki? Məsələ aydındır da. Səni özündən çıxartmaq istəyirmiş o tərbiyəsiz.

- Yox e... Nə özündən çıxarmaq? Mən də əvvəlcə elə başa düşdüm. Hələ azca ehtirasa da gəldim. Amma ... sözümü kəsməyin. Arxasını danışıram:

- Ay qız, neyləyirsən? - deyə kənara çəkildim.

- Sən iki yüz faiz jurnalistsən. Cibinizə diktafon qoyub gəlib bizi danışdırırsınız. Sonra da aparıb qəzetdə verirsiniz. Bizi də gəlib tutub aparırlar, barı da bağlayırlar. Sizin qəzeti bağlasalar xoşunuza gələr? Özünüzü polisə aparsalar xoşunuza gələr? Əl çəkin də bizdən.

- Vallah, mən jurnalist deyiləm. Kənd uşağıyam. On dənə qoyunum vardı, balaladı. Mən də ikisini

satıb gəldim şəhərə ki, bir az gəzim. Yerinizi də küçədə vizitka paylayan uşaqlar dedilər.

Səsə mühafizəçi də gəldi. Hardan gəldi belə bir təqdimat dilimə, bilmirəm. Amma deyəsən, qanımın arasına girmişdi. Fahişə rahatlıqla ciblərimi yoxladı. Diktafon tapmayıb, rahatlaşdı. Daha doğrusu, pərt oldu. Günahını yumaq üçün soyuducudan pivə gətirdib qoydu qabağıma. Pul da götürmədi. Mühafizəçi də gedib qapının ağzındakı stulunda oturdu. Pivədən içə-içə başladım ətrafımdakılara nəzər yetirməyə. Mən tək idim. Nədənsə adam gözə dəymirdi. Siqareti yandırmaq bəhanəsiylə yanımda oturan xanımdan alışqan istədim.

- Nə əcəb sakitçilikdir. Kənddə danışmışdılar ki, barda vur-çatlasın olur.

- Orucluqdur. Bir ay belə olacaq. Kişinin uşaqları dindar olublar. Özlərini ac saxlayırlar, bizi də ac qoyublar. Məhərrəmlikdə də belə olur. Ona görə də çoxu hazırlıqlarını əvvəlcədən görür, ehtiyat pul yığırlar ki, bu ayda ac qalmasınlar. Səni də Allah yetirib. Keçək?

- Tələsmə. Hələ seçirəm.

- Nə seçirsən? Məndən qəşəngini tapacaqsan? Oğlanlar ölür e.. mənimçün.

Cavab vermədim. Qız da məndən bir hay görməyib aralanıb yanındakı qıza sığındı. Pah atonnan, demə, dini mərasimlər təkcə toy biznesinə yox, fahişələrin bazarına da təsir edirmiş. Sakitçilik idi. Yanımda

oturanların söhbətini aydın eşidirdim. Amma kimdən başlayacağımı, nə sual verəcəyimi bilmirdim. Ona görə də pivədən içə-içə qulaqlarımı şəkləmişdim. Maraqlı idi mənim üçün fahişələrin söhbəti:

- Səadət, neçə günün qalıb?

- Nə Səadət? Sənə deməmişəm ki, məni adımla çağırma?! Eşidərlər. Axırıncı dəfə deyirəm. Mənim adım Veneradır.

- Niyə hirslənirsən ki? Burda heç kim yoxdur, axı. Bir sənsən, bir də mən.

- Bəs o oğlan?

- O çoban adamdır. Kənddən gəlib. Üst-başını görmürsən?

- Dəxli yoxdur. Birdən bizim kənddən olaydı. Belə deyirəm ki, birdən çaşıb başqalarının da yanında deyərsən.

- Yaxşi, demərəm. Narahat olma. De görüm, neçə gün qalıb?

Səadət gülümsədi. Əvvəlki hirsindən əlamət də qalmadı. Azca hələ bir naz da etdi:

- Bir gün.

- Xoşbəxt adamsan, vallah.

- Elə danışırsan ki, elə bil sən bədbəxtsən. İki gündür başlamısan da... Nə olub?

- Yox e... Səadət. Bağışla, bilmədim. Venera, ilk iki günüm altı-bazara düşdü. Ona görə də yaman

yoruldum. Burnumdan gəldi o üç gün. Elə bil ki, heç olmayıb...

- Mən isə bilirəm bu üç günü nə edəcəyəm.

- Nə edəcəksən? Danış da... maraqlıdır.

- İlk günü yataqda sərələnib qalacağam. Yatacağam elə-belə. İkinci günü isə uşaqlara söz vermişəm. Aparacağam Bulvara. Əllərini hansı attraksiona uzatsalar, mindirəcəyəm. Sonra katerdə dəniz gəzintisinə çıxacağıq. Kafedə dondurma, pirojna yeyəcəyik. Sonra gələcəyik Torqovıya. Yaxşı pizza verirlər orda. Kolayla ləzzət edir. Kinoya da girəcəyik. Daha doğrusu, uşaqlar girəcək. 6D-dir, nədir... ona. Mən bir dəfə girmişəm, yaman qorxmuşam. Ertəsi gün isə yır-yığış edəcəyəm. Uşaqların dərsləriylə maraqlanacam. Evdə ustalıq bir-iki iş var. Onları gördürəcəm. Vəssalam. Üç günüm belə qurtaracaq. Sonra yeni qüvvəylə işə qayıdacağam.

- Heyf ki, üç gündür. Bax Laura çox xoşbəxt adamdır. Onda "istirahət" yeddi gün çəkir.

Bu zaman yaşlı, saçları sarı rəngə boyanmış, dodaqları qırmızı pomadalı bir qadın onlara yaxınlaşır.

- Venera, neçə gün qalıb?

- Bir gün, Roza xala.

- Zəhirmar Roza xala. Min dəfə sənə demişəm ki, mənə Roza xala demə. Mən Mamayam, sizin mamanız. Bildin? Bunu birdəfəlik qulağında sırğa elə.

- Başüstə. Bir də demərəm, Mama. Bir günüm qalıb.

- İşləyəcəksən?

- Yox. Necə işləyim ki? Kritik günlərimdir, axı?

- Nə olsun? Başqa cürə bacarmırsan ki?

- Yox. Mənim iki oğlum var. Onları hər axşam qucaqlayıram, öpürəm. Bacarmaram.

- Oxşamadın da Lauraya. Bir gün evdə qalsa bağrı çatlar.

- Mama, onun uşaqları yoxdur, ona görə.

- Yaxşı, sən deyən olsun. Bir müvəqqəti "zamena" taparıq sənə.

Mama stoluna yaxınlaşıb əyləşir. Qabağındakı jurnalda nəsə qeydlər edir. Bu dəm salona ayaq üstə güclə dayanan iki nəfər daxil olur.

- Bura haradır? – deyə sual verirlər.

- Qapıda yazılanı görmədiz?

- Gördük.

- Bəs niyə soruşursunuz?

- Elə-belə. Mırt tuturuq.

- Bura bax, mırtı get evdə arvadınla tut. Bildin? Bura ciddi zavedeniyadır. Durun voobşe basın bayıra. Oxrana!

Səsə qoluzorlu mühafizəçi gəlir. Sərxoş kliyentlərin qolundan tutub atır bayıra.

- Ay Xoşbəxt, qorxuram da hər dəfə içəri adam girəndə.

- Hələ məni demirsən. O saat fikirləşirəm ki, polislərdir.

- Polislərə görə yox e...

- Bəs nəyə görə?

- Qorxuram ki, birdən kəndimizdən olar. Tanışlardan, qohumlardan.

- Nədən qorxursan e? Burda kefindən işləmirsən ki? Vallah, qeyrətli qızsan. Kişidən də qeyrətli. Ər atıb gedib. İki uşaqla qalmısan. Özü də ki, oğlan uşaqları. Anan da rayonda, özü də ki, xəstə. Sənin də bir arxan, təhsilin, savadın yox. Neyləməlisən ki? Hamısını çatdırırsan, maşallah. Kirayənin pulunu da verirsən, ailənə də baxırsan, hələ bir anana da pul göndərirsən. Bundan artıq nə etməlisən ki?

- Yox. Özümə haqq qazandıra bilmərəm. Gərək vaxtında oxuyaydım. İndi bu günə düşməzdim.

- Oxuyub nə olacaqdın ki? Müəllim? 150-200 manata ailə dolandıra biləcəkdin ki? Ya da ki, həkim. Bir də bilirsən nə var? Bu dünyada hərə bir yerini satır. Fəhlə gücünü, alim ağlını, müəllim biliyini, artist ruhunu, müğənni səsini. Biz də haramızı?

- Yaxşı, bəsdir. Ayıbdır.

- Venera, böyüyəndə qızımı oğluna alarsan?

- Yox.

- Niyə?

- Mən oğlanlarıma təhsil verirəm, oxutdururam ki, böyük adam olsunlar. Yaxşı yerdən də evlənsinlər. Sənin qızını neyləyirəm. O gün feysbukda oxumadın? Anası gəzən ağacı, balası budaq-budaq gəzər.

- Podumayeş, minnətin olsun. Özü də orda "balası" yazılıb, "qızı" yox. Hələ bilmək olmaz mənim qızım kim olacaq. Sənin oğlanlarını bəyənəcək, ya yox?

Gülüşürlər. Sonra ortaya sükut çökür. Nəzərlər qapıya dikilir. İçəri isə heç kim girmir.

- Mama, heç gələn yoxdur. Axırımız necə olacaq? Saat 10-a da az qalır. Cibimiz də boş.

- Ay qızlar, elə bil ki, birinci gündür işləyirsiniz burda. Bilmirsiniz ki, sezon deyil? Orucluqdur. Bir ay qapıdan gözünüzü çəkin. Kişilər oruc tutur. Nəfslərini boğmağı öyrənirlər. Günahlarının bağışlanmasını istəyirlər.

- Allah qəbul eləsin.

- Amin.

- Mən də bir dəfə oruc tutmuşdum. Elə yaxşılaşmışdım ki... Lap 18 yaşlı bakirə ev qızına oxşayırdım. Mama, görəsən Məhərrəmlik nə vaxt girəcək?

- Gələn il. İndidən qara gününüzə pul saxlayın. Yay vaxtı da çalışın ki, kliyentlərinizi əldən buraxmayasınız. Amma eşidəm biləm ki, birbaşa evdən getmisiniz, ayaqlarınızı qıraram. Bura gəlin. Qoy gəlib burdan götürsünlər sizi. Bizim də haqqımızı versinlər. Həm də bilək ki, kiminlə gedirsiniz. Maşının nömrəsini yazaq. Aparıb öldürüb eləyərlər, qanınız batar. Birdəfəlik başa düşün. Bura sizin iş yerinizdir.

- Əcəb işdir.

- Bir az o boş başınızı işlədin də... Siz olmasanız kişilər nə edər? Bir də ki, işiniz pisdir ki? Xaricdə sizlərə ən qədim peşə sahibi deyirlər. Göz qabağındasınız da, a bədbəxtlər. Bəxtiniz üzdədir. Gözünüzün qabağında neçəsini ərə vermişəm burdan, hamısı da xoşbəxtdir. Evdə otursaydınız, kim sizi görəcəkdi ki, hələ bir bəyənsin də? Tərbiyəli, təmiz qızı oğlan toy gecəsi lüt görür, sonra da məlum olur ki, fiqurası qəşəng deyilmiş, tüklü imiş, filan əyər-əskiyi varmış. Hələ qız çıxmamağını, "tikdirməyini" demirəm. Siz isə maşallah, hamınız gözəl-göyçək. Buraya da kefinizdən düşməmisiniz a... Çörək pulunun xətrinə gəlmisiz də. Ay qızlar, sizə bir söz deyimmi?

- De, Mama.

- Bax, neçə ildir bu sahədəyəm, bircə dənə də normal, professional azərbaycanlı fahişəyə rast gəlməmişəm. Amma digər millətlər superdirlər. Hələ armyankaları demirəm. Heyf onlardan. Bu işi yaxşı bacarırlar. Bilirsinizmi niyə?

- Niyə?

- Çünki bizim millətin qanında fahişəlik yoxdur. Bizimki odur ki, ərə gedək, evdə oturaq, uşağa baxaq, bozbaş bişirək. Ər də qazansın, gətirsin, yeyək. Bildiniz?

Qapı açılır. Qızlar sevincək nəzərlərini qapıya yönəldirlər. O saat da üz-gözləri turşuyur.

- Bu hardan gəldi e? Ay qardaş, orucluqdur, bazar kasaddır, pulumuz yoxdur. Get , başqa vaxt gələrsən.

- Pulunuz yoxdur? Eybi yox, borca yazaram. Yaxşı mini yubkalarım, göbəyi açıq koftalarım, seksualnı corablar var. Nə istəsəniz var. Götürün, pulunu sonra verərsiniz.

- Qorxmursan atarıq sənə?

- İnanmaram. Heç vaxt inanmaram. Çünki siz də mənim kimi çörəyə çıxmısınız. Bir də ki, adamın təki alacağı olsun...

- Yaxşı, göstər görək nəyin var.

- Hər şey.

Qızlar bir az bazarlıq edirlər. Pulunu da borc dəftərinə yazdırırlar.

- Qızlar şam vaxtıdır. Növbə ilə yeməyə gəlin. Zal boş qalmasın. Kliyentin gələn vaxtıdır.

Qızlar üç-üç qonşu otağa keçirlər. Yeməklərini başa çatdırıb, dişlərini fırçayla təmizləyib yenidən zala qayıdırlar.

- Yenə də sağ olsunlar, gündə iki dəfə yeməyimizi verirlər. Yoxsa evdəkilərin boğazından kəsməli olacaqdıq.

- Xoşbəxt, hələ sən gecəni də burda qalırsan. Day kirayə haqqı-zad da vermirsən. Nə olsun ki, zirzəmidir.

- Düz deyirsən. Oyy... – qız əliylə qarnını tutub başını dizlərinə yaxınlaşdırır.

- Nə oldu, Xoşbəxt.

- Heç... deyəsən eroziyam var. Bədən nə qədər sürtülər axı. Ginekoloqa gedim gərək. Həkimə də

gedirsən adama elə iyrənə-iyrənə baxır ki, durub qaçmaq istəyirsən. Az qalır dörd dənə əlcəyi üst-üstdən geyinsin. Ağzına dörd dənə namordnik salsın.

- Neyləsin, qorxur da... O qədər xəstəlik var ki? Ev qadınıdır da. Xəstələnsə ailəsi də dağılacaq. Onda taqsır görmə.

- Kişi ginekoloq da yoxdur ki, yanına gedəsən. Necə deyərlər - həm ticarət, həm ziyarət.

Gülüşürlər. Birdən Venera əlini qarın nahiyəsinə tutur.

- Venera, nə oldu?

- Deyəsən, başladı, Xoşbəxt.

- Belə tez?

- Hə. Mamaya demə. Yoxsa cərimə yazar. Üç-dörd saatım qalıb.

- Birdən kliyent səni seçsə? Onda neyləyəcəksən?

- Bir şey fikirləşərəm. Amma sən dinmə.

Səadət divana dirsəklənir. Ayaqlarını ayaqlarının üstünə qoyur.

- Səadət,... Venera, necəsən?

- Yaxşıyam, Xoşbəxt.

- Nə qəribə ad qoyublar e bizə. Nə sən səadət nə olduğunu bilirsən, nə də mən xoşbəxtçiliyin. Bədbəxt qoysaydılar adımızı, bəlkə də xoşbəxt olardıq.

- Gic-gic danışma. Bu necə olardı ki? Təsəvvür elə, ərin sənə deyir ki, Bədbəxt, aşqım, mənə yemək ver. Pis səslənir axı.

- Guya ki, elə demirdi gorbagor? Cümləsinin əvvəli də, sonu da "ay bədbəxt" idi də. Gorbagor hələ bədbəxt qızı bədbəxt də deyirdi.

- Aaz, bəsdir, elə demə. Allah rəhmət eləsin deyərlər.

- Nə rəhmət. Məni bu günə o salmadımı? Burda kişi axtarıram ki, altına yatam. Nədir, nədir evə 10 manat pul qazanacağam.

- Ağ eləmə də. 10 manat nədir?

- Venera, sən özünə baxma. Sən qəşəngsən, təzəsən. Hələ təravətini itirməmisən. Kliyentin də çoxdur. Amma mənə şortı deyir kişilər.

- Vay, öldüm.

- Nə oldu?

- Heç. O gün bir pəzəvəng kişi var idi ya. Yadındadır?

- Hə.

- Bax, onun spermasıdır töküldü. Bir az təmizləndim. Vay.

- Məzən olsun. Yavaş. Mama Roza eşidər. Ağrın çoxdursa sitramon verim.

- Yox, ay qız. Əksinə sevinirəm. Oy!!!!! Bu da ogünkü türkün spermasıydı çıxdı.

- Bəsdir də... Məzələnmə mənimlə. İndi bu ay kiminlə olmusan, hamısını bir-bir sadalayacaqsan? Amma yaddaşın yaxşıdı ya... Hamısını yadında saxlayırsan. İndi üç gün onları sayacaqsan?

- Niyə də saymayım? Xristianlar kilsəyə gedib günahlarını danışıb bağışlanmaqlarını diləyirlər. Mən isə

ayda üç gün bununla məşğul oluram. Oy! İndi də maşın yuyan var e, moyşik, onunku töküldü. Əminəm, üç günə hamısı tökülüb gedəcək. Qanım bütün günahlarımı yuyacaq.

- İnşallah, Venera.

- Xoşbəxt, görəsən xristian olsaydıq, kilsəyə gedib günahlarımızı danışsaydıq, keşiş nə günə düşərdi, hə?

- Gicləmə. Adam dinlə zarafat eləməz. Nə olsun ki, başqa dindir? Allahımız birdir.

Saat 12-ni vurur. Səadət ayağa durub paltarını dəyişir. Bu dəm taksi şoferlərindən biri zala daxil olur.

- Venera, hazırsan?

- Hə.

- Gedək?

- Qızlar, mən getdim. Üç gün olmayacağam. Gedirəm günahlarımı tökməyə.

- Hamısını tök a... Birdən gələn ay kliyentin çox olar, bədənində yer boşalt.

- Çalışaram, qızlar, çalışaram.

- Venera, aybaşın mübarək!

- Mübarək içində olasınız, qızlar!

Mən də pivəmi içib, barı tərk etdim. Bir az küçədə durub qızların ayrı-ayrı taksilərə mindiyini müşahidə elədim.

Səhəri gün yenə axşam gəldim ora. Elə vaxt gəldim ki, bağlanmağa yaxın olsun. Məqsədim o idi ki, hansıylasa yaxın təmas qurum, sonra onu evə ötürüm,

söhbətləşim. Mənə lazım olan informasiyanı alım. İçəri girdim. Oturdum. Yenə sakitçilik idi. Təkcə musiqinin sədaları pozurdu sükutu. Disko musiqi çalınsa da heç kəs oynamırdı. Hərənin əlində bir telefon vardı. Hamısı da bahalı idi. Biri nəsə mesaj yazır, o biri oyun oynayır, digərisə qulaqcığı qulaqlarına tıxayıb gözünü yumaraq divana sərələnmişdi. Mənə dünənkindən fərqli olaraq heç fikir verən də yox idi. Mənsə görməmişliklə qızlara baxır, öz "ovumu" seçirdim.

Metroların ağzında, digər yerlərdə də tərbiyəsiz qızlar açıq-aşkar gəzər, kafe-çayxanalarda "kliyent" axtarışıyla lövbər salıb oturardılar. Amma burdakılar tam başqa təsəvvür bağışlayırdılar mənə. Elə bil kimdənsə gizlənirdilər, çəkinirdilər, utanırdılar. Utandıqlarından yerin dibinə - zirzəmilərə doluşmuşdular. Bütün gündüzü burda olurdular. Yalnız gecə, hamı yatandan sonra üzə çıxırdılar. Onda da taksiyə minib harasa gedirdilər. Bunlar rusların ad verdikləri "noçnıe baboçki" – "gecə kəpənəkləri" – deyildilər, "yarasalar" idilər. Gün işığından kor olmuşdular, zülmətə qapanmışdılar.

Müşahidəmi davam etdirirdim. Vaxtı uzatmaq xatirinə artıq ikinci pivəni alıb qurtum-qurtum içirdim. Qızlar da hərdənbir gözlərini telefondan ayıraraq mənə zilləyər, hər hansı bir əks reaksiya görmədikdə yenidən bu həyatda yeganə həmdəmləri olan telefonla oynamağa başlayardılar.

Onlardan biri isə heç nə etmirdi. Sadəcə fikrə gedib, barın bir küncündə divana qısılmışdı. O biri qızlara da qarışmırdı. Üzünə o qədər pudra-pamada çəkmişdi ki... Saçlarını da əndrabadi düzəltmişdi. Əynində mini ətək, arxası, sinəsi açıq köynək vardı. Bu, dünən məni jurnalist zənn edib üstümü axtaran qız idi. Düzü, zənnində yanılmamışdı da... Ona yaxınlaşmağa qərar verdim:

- Salam.

- Salam.

- Niyə tək oturmusan?

- Heç. Podruqam üç günlük gedib istirahətə. Mən də tək qalmışam.

- Keçək?

- Hə. Şərtləri bilirsən də...

- Yox. Birinci dəfədir ki, gəlirəm. Kənd uşağıyam.

- Hə, bilirəm. Dünən səni jurnalist zənn etmişdim. Qoyun otaran.

Qız qəşş eləyib özündən getdi. Mən də başımı aşağı salıb üzümə qırmızılıq verdim. Guya ki, utandım. Handan-hana özünə gəlib:

- Yaxşı, yarım saat 40 manat, bir saatı 50 manat. Keçirsən?

- Hə. Bir toğlunun pulu eləyir də...

- Doğurdan da, çobansan ki, çoban. Hər şeyi qoyunla hesablayırsan.

İçəri keçdik. Qız yatağa mələfə saldı. Məni üzüqoylu uzadıb əllərini belimdə oyan-bu yana gəzdirməyə başladı. Sanki sığallayırdı. Bir gözü də saatdaydı. Beş dəqiqə keçməmiş:

- Hə, indi də gəl olaq. Şərtləri bilirsən də... Yalnız prezirvativlə.

- O nədir? – deyə özümü qoyunluğa vurdum.

- Qoyunun içalatından cız-bız bişirirsən?

- Hə.

- Ona bağırsaq qatırsan?

- Hə. Bağırsaq qatmadınsa, day nə ləzzəti?

- Bu da elə bağırsağa oxşar bir şeydir.

Ay İnkir-Minkir, mən bilirdim prezervativ nədir. Sadəcə özümü sadəlövh, heç nədən başı çıxmayan kənd uşağı kimi aparırdım ki, qızın ürəyinə girə bilim. Duyuq düşsəydi ki, şəhər uşağıyam, jurnalistəm – işlər korlanacaqdı.

- Hə, tez elə. İndi Mama qapını döyəcək.

- Sənin adın nədir?

- Xoşbəxt.

- Nə qəşəng adın var.

- Qəşəng günün olsun. Niyə məni seçdin? Hə? Məndən də qəşəngləri var.

- Nəsə səndən xoşum gəldi.

- Birdən vurulub eləyərsən a... mənə?

- Hardan bildin?

- Bəxtəvər başıma. Bircə çoban ərim çatışmırdı.

- Nəyi pisdir ki, çobanların. Hər səhər sənə təzə süd, qaymaq, nehrə yağı, təndir çörəyi yedizdirəcəyəm. Təmiz dağ havası udacaqsan, bulaq suyu içəcəksən. Yoxsa ki, qəşəng qızsan, rəngin-rufunsa sapsarı.

- Nə? Qız? Ha-ha-ha. Doğurdan vurulmusan mənə, yoxsa dolamısan məni?

- Həqiqi sözümdür.

Qızın qaqqanağı balaca otağı götürdü. Elə ürəkdən gülürdü ki... Əslində ehtirasdan uçunub getməli, ya da artistlik edib ah-uf nalələri aləmi götürməliydi. Amma sanki bunların heç biri baş vermirdi. Mən də, o da cismən erotik aləmdə olsaq da, ruhən başqa bir aləmdə idik. Yenə avamlığıma salıb:

- Gəl, işini qurtarandan sonra gedək bir yerdə oturaq. Yaxından tanış olaq. Kənd uşaqları yaman tərifləyirlər "Pizda"nı. Görən nə olan şeydir? Ömrümdə yeməmişəm. Görəsən harda yaxşı "Pizda" verirlər? Səni də ürəyin nə istəsə qonaq edərəm.

Qızın gülüş səsləri yenə də otağı bürüdü. Sakitləşir, amma bir anlıq yenə "pizda?" deyib təzədən qəşş eləyirdi. Az qalırdı ki, ürəyi yerindən çıxsın. Altımda ehtirasdan yox, gülməkdən çırpınmırdı. Deyəsən, "avamlığım" çox xoşuna gəlmişdi. Digərlərindən fərqlənirdim.

- "Pizda" yox e... "Pizza". "Pizda" pis sözdür. Bildin? Tərbiyəsizin biri tərbiyəsiz.

Mən qızın bu sözünə dözməyib mexaniki olaraq "Ay qəhbə, sən mənə tərbiyəsiz deyirsən?" söylədim. Bilmədim hardan gəldi dilimə bu söz. Qızın bir anlıq sifəti dəyişdi. Məni əliylə itələyib yataqdan durğuzdu. Paltarını geyindi. Bir anlıq qorxdum. Düşündüm ki, gedib Mamaya şikayət edəcək, o da seküritiyə göstəriş verəcək. O da bir-ikisini çəkib, məni qolumdan tutub bayıra atacaq. Tələsik paltarlarımı geyinməyə başladım. Otaqdan çıxanda qız üzünü mənə tutaraq:

- Sən mənə qəhbə dedin?

- Yox...- deyə qorxudan sözümü danmağa başladım.

- Dedin, dedin... Amma yadında saxla. Qəhbə olsaydım bəxtəvər başıma.

Qız sözü deyib otaqdan çıxdı. Mən də əl-üzümü yudum. Saçımı daradım. Otaqdan çıxanda digər qızlar mənə baxıb pıqqıldaşmağa başladılar. Düzü, başa düşmədim gülməklərinin səbəbini. Sonra anladım ki, Xoşbəxt çıxan kimi "pizda" məsələsini onlara da danışıb. Bu an Mamanın da səsi gəldi:

- Xoşbəxt, tez hazırlaş. Çobanın çıxdı. Gedin "pizda" yeyin. Bizə də gətirməyi yaddan çıxarmayın.

Bunu eşidən qızlar yenidən gülməyə başladılar. Geyinib-soyunma otağının qapısı açıldı. Ordan bir qız çıxdı. Düzü, güclə tanıdım Xoşbəxti. Üzünü yumuşdu. Saçını səliqəylə arxadan yığmışdı. Əynində cins şalvar, idman ayaqqabısı, uzunqol köynəyi vardı.

- Çoban, getdik qəhvəxanaya, pizza yeməyə.

Qızlar Xoşbəxtin sözünə yenə gülüşməyə başladılar.

- Nə dedim ki, gülürsünüz. Təmiz Azərbaycan dilində danışıram da. Qəhvəxana, yəni ki, kafe. Pizza da pizzadır da. Yəqin ki, başa düşdünüz...

Xoşbəxt sanki podiumdakı model kimi yenidən barın o başına addımladı. Divara çatanda yüz səksən dərəcə çevrildi. Yenidən qızların qabağıyla fors verə-verə mənim yanıma gəldi. Qoluma girərək,

- Qızlar, mən kişimlə getdim gəzməyə. – dedi.

Zirzəmidən çıxdıq. Saat on bir idi. Barın qapısında taksilər iki sıra düzülmüşdü.

- Xoşbəxt, bu qədər taksi burda niyə gözləyir ki?

- Bizim qızları gözləyirlər. Hərəsinin öz şoferi var.

- Belə çox qazanırsınız ki?

- Ay Çoban, özün başa düş. Gecə saat 12-dən sonra metro da işləmir, avtobus da. Evlərinə necə getsinlər bu bədbəxtlər? Evdə bir başıpapaqlısı da yoxdur ki, arxalarıyca gəlsin. Hamısı oğraş çıxıblar.

- Sərnişin nəqliyyatı idarəsinə şikayət edin ki, bəs avtobuslar beşəcən işləməlidir, niyə işləmir?

- Yəni deyirsən ki, məktub yazaq və altından bütün fahişələr də ad-familiyalarıyla qol çəksinlər, hə? Bura bax, bura bax. Sən çoban adam hardan bilirsən ki, şəhər nəqliyyatı səhər saat beşəcən işləməlidir, hə? Səhərdən aferistlik edirdin?

- Yox, yox, gündüz avtobusda danışırdılar, mən də orda eşitdim.

Deyəsən, quş buraxmışdım. Jurnalistliyim özünü biruzə vermişdi. Xoşbəxt qoluma girmişdi. Yox, iki əli ilə qoluma girib bərk-bərk qucaqlamışdı. Elə bil ki, qaçacaqdım. Yaxşı ki, gecəydi. Adam da az idi. Bir tanış-qohum qabağıma çıxsaydı, arvada çatdırsaydılar - vay halıma. Beləcə, gəlib çıxdıq metronun yanındakı kafelərdən birinə.

- Çoban, burda yaxşı pizza verirlər. Özü də ki, ucuzdur. İki dənəsini sifariş ver. Özü də böyüyündən. Yanında koka-kolası da olsun. Birini karton qabda versinlər.

Xoşbəxt dediyi kimi də elədim. Sifariş hazır oldu. Düzü yaman acmışdım. İştahla yeyirdim. Xoşbəxt isə bir dilimi güclə yedi.

- Çoxdandır məni kafeyə dəvət edən olmamışdı.

- Dəvət edən yoxdur – özün gəl.

- Belə ləzzət eləmir. Hamı əriylə, nişanlısıyla, atasıyla çıxır gəzməyə. Mən də həsədlə baxıram onlara. Paxıllığım tutur. Pis oluram.

Xoşbəxt yemədiklərimizi də o biri karton qaba yerləşdirdi. Kafedən çıxdıq. Söhbəti hardan, necə başlayacağımı bilmirdim.

- Xoşbəxt, hara gedirik?

- Bara.

- Bara niyə, gəl gəzişək, sonra da səni taksiylə evə ötürərəm.

- Hansı evə?

- Yaşadığın evə.

- Ay rəhmətliyin oğlu, mənim evim var? Barda yaşayıram. Bir də ki, eşitmədin Mama nə dedi? Onların da pizza payını çatdırmalıyam. Özü də tez qayıtmalıyam ki, obyekti bağlasınlar.

- Lap yaxşı. Onda belə edərik. Qızlar gedər. Mən də gözləyərəm. Əl-ayaq yığışan kimi açarsan qapını gələrəm.

- Sənin başın xarabdır? Mənə açar verən kimdir? Qapını o yandan bağlayırlar. Səhər də gəlib açırlar.

- Bəs zirzəmidə havasızlıqdan boğulmursan? Bir də ki, yanğın...

- Bura bax, bundan yaxşı təklifin var? Başqa evlə təmin edə bilərsən məni?

- Yox.

- Onda az danış. Mən çatdım. Pizzalara görə də çox sağ ol.

Ay İnkir-Minkir, Xoşbəxtdən ayrıldım. Amma nə hazırladığım sualları verə bildim, nə də cavab aldım. Amma, hiss edirdim ki, mən deyən adamdır. Bu yola keyfindən düşməyib. Hər şeyi də gözəl anlayır, gözəl başa düşür. Sadəcə dilini açmalıydım. Təzədən gedib girdim bara.

- Qızlar, çoban yenə də gəldi. Cibin dolu olsun, ay çoban, ağzımız dada gəldi. – deyə Mama birinci dilləndi.

- Sağ ol, çoban qardaş. Pizza çox dadlı idi. Gündə sənin kimi çox yox, iki kliyentimiz olaydı– deyə qızlar da ona qoşuldu.

- Hələ bu harasıdır? – deyə cavab verdim. - Mən hardan biləydim ki, iki pizza və koka-kola yarım qoyunun qiymətinədir. Elə yarım cəmdək gətirib sizin üçün kabab bişirtdirərdim də... ağzınız da ləzzətə gələrdi.

- İnşallah, çoban. Bəlkə Xoşbəxti alasan, bizi də kəndinizə qonaq aparasan?

Cavab vermədim. Susdum. Başımı aşağı saldım. Guya ki, utandım. Mama gəlib yanımda oturdu. Ürəyimi oxumuş kimi:

- Deyəsən, çobanın gecələməyə yeri yoxdur. Hə?

- Hardan bildiniz?

- Bunu elə mən bilməliyəm də... Başqası hardan bilsin ki? Harda yetim-yesir var bizə üz tutur. Düzdür, mən qadınlara himayə dururam, o da öz könülləri olanda. Amma sənə isklyuçeniya edərəm. Xoşum gəldi səndən. İstəyirsən gecəni qal burda. Divanı verirəm sənə. İçki də xolodilnikdə. Xoşbəxt də ki, yanında. Day bundan artıq nə istəyirsən? Zaurun "Onun yarısı" verilişində sevənləri çay süfrəsinə göndərirlər. Mən də səni bar süfrəsinə qonaq edirəm. Bəlkə bir şey alındı sizdə. Xoşum gəldi səndən. Sadə oğlansan. Bu cür qızlara elə sənin kimilər yiyə çıxır.

- Lap yetimxana direktorları kimi danışdız e...

- Düz deyirsən. Bunları da ailələri atıb, qalıblar çöllərdə. Belə baxma – hamısı ailə qızı olublar. Elə mən özüm də. Baban sağdır?

- Hə.

- Nənən durur.

- Yox. Ölüb.

- Nə yaxşı, nə yaxşı. Gələn dəfə gələndə onu da gətirərsən. Bəlkə xoşuna gəldim. Adam paxıl olmaz. Arşın mal alanda demişkən: "Bir molla, üç manat pul, bir kəllə qənd". Çoban, adam nə deyər?

- Allah xoşbəxt eləsin. Babamın altı dənə inəyi var. Onları sağa bilərsən?

- Niyə sağmıram. Bura girən kişiləri "sağa" bilirəm, indi sən deyirsən Allahın dilsiz-ağızsız heyvanlarıyla bacara bilməyəcəyəm?

- Nə deyirəm ki, Allah xoşbəxt eləsin.

Mamanın da xoşuna gəlmişdim. Barın bağlanmaq vaxtı idi. Qızlar tez paltarlarını dəyişib bir-bir yuxarı qalxmağa başladılar. Sonda Mama çıxıb arxasınca dəmir qapını kilidlədi. Qaldıq ikimiz – mən və Xoşbəxt.

Divanda yerimi rahatlayıb oturdum. Yaman havasızlıq idi. Yaxşı ki, ventilyator işləyirdi. Xoşbəxt də gəlib yanımda əyləşdi. Sonra isə uzanıb başını dizimin üstünə qoydu. Üzümə tamaşa etməyə başladı.

- Çoban, doğurdan mənə vurulmusan, yoxsa lağ edirsən?

- Doğurdan. Amma səni heç tanımıram. Bircə onu bilirəm ki, adın Xoşbəxtdir.

- Sən heç olmasa bunu bilirsən. Mən heç sənin adını da bilmirəm. Eləcə çoban deyirik.

- Adım Mehmandır.

- Mehman, yəni ki, qonaq. Gəldi-gedər. Heç xoşum gəlmədi adından. Çoban ondan yaxşıdır. Mən səni çoban çağıracağam.

- Çobanın mehmandan nə fərqi var ki? Onlar da tərəkəmədir - bir gün qışlaqda, bir gün yaylaqda, üç ay da yolda.

- Yox, elə demə. Çobanlar təmiz insanlar olur. Sadəlövh yox, sadə olurlar. Çünki insanları az görürlər, onlarla az təmasda olurlar. Ona görə də saflıqlarını qoruyub saxlaya bilirlər. Gördükləri bir itdir, bir canavar, bir də ki, mal-qara. Qatıb qabağına aparır. Yoxsa ki, biz. Şəhərdə bizi mal-qara ediblər. Qatıblar qabaqlarına otarırlar, ətimizi yeyirlər, canımızı, qanımızı, ruhumuzu sovururlar. Çoban isə azaddır. Dağların qoynunda, alaçıqda bir şahdır. Hər şey onundur. Nə hasarı var, nə qıfılı. Gəzdirdiyi silaha da heç kim ilişmir. Heç vətəndaş kimi də tanımırlar. Çünki özü özünə qanundur. Ondan alaçığının qapısından gedib dəyər-dəyməzinə mal alıb, gətirib bazarda iki qat, üç qat bahasına satırlar.

- Xoşbəxt, sən lap filosof kimi danışırsan e...

- Filosof yox, mən filoloqam. Danışmaq da ki, sənətimdir. Diplomum da var.

- İnstitut qurtarmısan?

- Hə.

- Xoşbəxt adamsan. Mən isə çobanam. Sadəcə - çoban. Nəinki ali təhsilim, heç attestatım da yoxdur.

- Ali təhsilli olub neyləyəcəkdin ki? O bayırda dayanan taksi şoferləri var e... hərəsinin iki dənə diplomu var. Amma məcburdurlar ki, hər gecə yuxularına haram qatıb bizi evə aparsınlar. Eləsi var heç evə də getmir. Fahişəni otuzdurur maşında bütün gecəni gəzir. Kliyent tutanda həm də "mədəni xidmət" təklif edir. Hələ küçədə bir- iki zavod çörəyinə, dərman puluna çıxan "mat odinoçka"ları demirəm. Gündüz çıxmağa utanırlar. Uşaqlarını yatızdırıb sonra fəaliyyətə başlayırlar. Sənինsə, çoban, bunlardan xəbərin yoxdur. Elə olmasa yaxşıdır.

- Bayaq sənə qəhbə deyəndən sonra, yaman qorxdum. Qorxdum ki, indi üz-gözümü cırmaqlayacaqsan. Amma "qəhbə olsaydım, bəxtəvər başıma" dedin. Niyə?

- Ay çoban, neyləyirsən axı? Bu söhbətlərin başını burax. Gül kimi çobansan. Gəl sevgi-məhəbbətdən danışaq.

- Nə olar de də...

- Başa düş, mən fahişəyəm, qəhbə deyiləm. Anladın?

- Başa düşmədim. İkisi də eyni şey deyil ki?

- Ay çoban, neçə yaşın var?

- 45.

- Sən bu yaşa çatmısan, hələ də qəhbəylə fahişənin fərqini bilmirsən?

- Mən elə bilirdim ki, ikisi də eyni şeydir?!

- Nə qoyun adamsan sən? Yəni bu qədər avamsan? Yoxsa özünü artistliyə qoymusan? Bax, fahişə pula gedəndir, qəhbə kayfa. Başa düşdün?

- Yox.

- Yəqin eşitmisən də... deyirlər ki, filankəsin arvadı qəhbəlik edir, amma demirlər ki, fahişəlik edir. Çünki pula görə çıxmır. Əri impotentdir, ya da oğraş. Təmin edə bilmir onu. O da başlayır birini tapıb gəzməyə. Bura biri düşmüşdü. Danışırdı ki, "uşaqları qoyurdum dərsə, girirdim evimizin yanındakı dükana. Bir subay cavan satıcı vardı. Səhər müştəri olmadığından tez dükanı bağlayırdı. Elə arxa otaqdaca işimi görürdü, rahatlanırdım". Bax, çoban, buna deyərlər qəhbəlik. Heyf deyil kiminsə məşuqəsi olasan, səni saxlaya, gəzdirə, ev ala, maşın ala, lap gec-gec gəlsin, amma bircə onun olasan. Lap arvadı kimi. Qəhbəyə heç olmasa qadın kimi baxırlar, fahişə isə əşyadır. Bazarda satılan əşya.

- Ay Xoşbəxt, bildim. Deməli, babam danışan düz imiş, hə?

- Nə danışıb ki? Danış mən də bilim.

- Heç kimə deməzsən ki?

- Yox.

- Deməli, babam sürünü yayıb dağın ətəyinə, özü də hündür bir yerdə oturub nəzarət edirmiş. Bu dəm bir dənə xarici maşın gəlir dayanır bunun yanında. Satdıq toğlu soruşurlar. Babam da deyib ki, var. Onlardan biri cibindən 500 dollar çıxarıb uzadıb babama. Xahiş ediblər ki, həm quzunu kəsib soysun, həm də soyutma, kabab müxtəlif yeməklər bişirtdirsin. Yanında da motalı, qatığı, təndir çörəyi, bulaq suyu təşkil etsin. Bir sözlə, yaxşı bir süfrə açsın. Babam da razılaşır. Başlayır nənəmlə tədarükə.

- Bəs bayaq Mamaya deyirdin ki, nənəm ölüb?!

- O vaxt hələ ölməmişdi, sağ idi. Yerə xalça salırlar. Samovar çayı qoyurlar. Süfrə sərirlər. Nimdarlar düzürlər. Bu iki qonaq da gətirdikləri arağı, pivəni maşından çıxarıb sərin yerə qoyur. Babam bunlara yaxşı qulluq eləyir. Bunlar da yeyib-içəndən sonra başlayırlar bir-birilərilə söhbətə:

- Hə qardaş, məktəb qurtaran kimi arvad-uşağı göndərmişəm Antalyaya, ordan gediblər Kiprə, indi də Monteneqrodadırlar. Üç aydır başım sakitdir. İstədiyim vaxt evə gəlirəm, istədiyimi edirəm. Sən hara göndərmisən evdəkiləri?

- Mənimkilər böyükdürlər. Elə ilimiz on iki ay xaricdədirlər.

- Kefdəsən ki...

- Görürsən də... İmkanlı olmağın da belə müsbət tərəfləri var.

Babam da qonaqlara çay süzürmüş. Birdən bunların babamla məzələnməyi tutur. Başlayırlar ki, ay çoban, sən arvadı bu yay hara göndərmisən? Babam cavab vermir. Amma bunlar da əl çəkmirlər. Axırda babam nə desə yaxşıdır?

- Nə?

- Deyir ki, heç yana göndərməmişəm. Elə buralarda özüm işini görmüşəm.

Bunu eşitmişdi ki, Xoşbəxt qəşş eləyib özündən getdi. Handan-han özünə gəlib:

- Nə deyib amma. Otuzdurub e yerlərində bunları. Bax, səni öpürəm. Mmmmmaaççç. Sən də gedib mənim bu dodaqlarımla babanı öpərsən bu sözlərinə görə.

İnkir-Minkir, əslində babamın dilindən dediyim anekdot idi. Amma işimə yaramışdı. Rəvayət düzəltmək, söz almaq qabiliyyətim özünü göstərirdi. Xoşbəxti yavaş-yavaş mum edirdim. Amma yenə də istədiyimi almamışdım.

- Xoşbəxt, deyəsən zəhlən gedir varlı adamlardan, hə?!

- Nə? Zəhləm gedir? Sən nə danışırsan? Zəhləm gedir nədi? İmkanım ola, bax, bu əllərimlə parçalayaram onları. Qanlarını içərəm. Üstlərinə nöyüt töküb yandıraram. Həzz alaram. Kam alaram.

- Niyə axı? Neyləyiblər sənə. Onlar da əvvəllər bizim kimi kasıb olublar da... Sonra bəxtləri gətirib... neyləsinlər - gəlib sənin kimi kasıb olsunlar?

- Var-dövlətlərinin mənə nə dəxli? Sağlıqlarına qismət. Özlərini yaxşı aparsınlar. Özləri yaxşıdırlar e... övladlarına tərbiyə verə bilmirlər. Ara yerdə...

Xoşbəxt sözünü yarımçıq qoydu. Nəzərləri bir nöqtəyə dikildi. Dodaqları əsməyə başladı. Rəngi-ruhu ağardı.

- Xoşbəxt, ay Xoşbəxt! Xoşbəxt, eşidirsən məni?

- Hə.

- Nə oldu sənə. Niyə əsirsən? – bunu deyib Xoşbəxtin başını qucaqladım. O da məni bərk-bərk qucaqlayıb hönkürməyə başladı. Ağladı-ağladı, sonra sakitləşdi.

– Bəlkə danışasan, nə olub sənə?!

- Uzun əhvalatdır.

- Hara tələsiriy e... Mama indicə gedib. Onsuz da səhər 10-dan tez gəlməyəcək. Danış ürəyini boşalt.

- Yaxşı, danışaram. Amma heç kimə demə ya...

- Söz. Heç kimə demərəm.

İnkir-Minkir, Xoşbəxtin axır ki, dilini açdım. Danışmağa başladı. Təki dilini açmayaydım. Bu, mənim həyatımın bağışlanmaz səhvi və sonu oldu:

- Ay çoban, məktəbi təzə bitirmişdim. İnstituta hazırlaşırdım. Kəndimizdə ali məktəbə girənləri barmaqla göstərirdilər. Mən də bu arzuma nail oldum.

Özünü tərifləmək olmasın – qəşəng qız idim. Elçilərim də qapımızda hazır idi. Amma atam da sağ olsun, mənə qahmar çıxdı. Elçilərə –mənim qızım ali təhsil almalıdır, sonra baxarıq – deyib geri qaytarırdı. Bakıya gəldim. Yataqxanada yer götürdüm. Bütün diqqətimi dərslərimə vermişdim. Yaxşı da oxuyurdum. Stipendiya da alırdım. Düzdür, oğlanlardan nəzər yetirəni olurdu. Amma elə bir sifət alırdım ki, yaxınlaşmağa belə cürət etmirdilər. Beləcə, birinci kursu başa çatdırdım. İkinci kursa keçəndə sevincimin həddi-hüdudu yox idi. Xalam qızı da mən oxuduğum filologiya fakültəsinə daxil olmuşdu. Yataqxanada bir otaqda qalırdıq. O da yaxşı oxuyurdu. Dərsə bir gedib, bir gəlirdik. Kitabxanada bir yerdə hazırlaşırdıq. Fakültəmizdə qızlar çox idi. Hamısı da gözəl. Təsadüfi deyildi ki, fakültəmizin adı gəlinlər fakültəsi çağrılırdı. Başqa fakültələrdə oxuyan oğlanlar tez-tez bizim mərtəbəmizə gəlirdilər. Ailə həyatı quranlar da çox olurdu. Tarix fakültəsində bir tələbə oğlan vardı. Hündürboy, yaraşıqlı. Son dəblə geyinirdi. Köynəyinin qollarını dirsəyinəcən qatlayırdı. Lap türk serialларındakı zadəgan oğlanlara bənzəyirdi. Bahalı xarici maşını da vardı.

Auditoriyadan çıxanda dəhlizdə tez-tez rastlaşırdıq. Qızlar da onu görəndə pıçapıç düşürdü. Düzünü desəm, mənim də xoşum gəlirdi onun xarici görünüşündən. Üzdən də mələksima idi. Amma sadəcə

xoşum gəlirdi. Hərdən xarici maşınıyla yanımızdan keçəndə siqnal verərdi. Yanında da balacaboy oğlan olardı. Həmişə bir yerdə gəzərdilər. Başqa qızlar onları görəndə gülüşsələr də, mən öz ciddiliyimi itirmirdim. Mən tərbiyəli ailənin uşağıydım. Atam mənə inanıb şəhərə tək buraxmışdı. Hələ xalam qızını da mənə tapşırmışdılar. Mən etimadı doğrultmağa gəlmişdim, üstəlik etibarı da itirə bilməzdim. Əsas fikrim dərslərimdəydi.

Üçüncü kursda oxuyanda həmin oğlan lap tez-tez görünməyə başladı. Üçüncü kursun axırında dərsdən sonra mənə yaxınlaşdı:

- Salam.

- Salam.

- Mənim adım Azaddır. Tarixdə oxuyuram. Üçüncü kursda. Sənինlə tanış olmaq istəyirəm.

Qızardım. Nə cavab verəcəyimi bilmədim. Tez xalaqızının qoluna girib ordan uzaqlaşdım. Üç gündən sonra hadisə yenə də təkrarlandı. Bu dəfə Azada heç salam da vermədim. Qaçıb auditoriyaya girdim. Tələbə dostlarım da mənə birtəhər baxırdılar. Hələ bir-ikisi mənə "başı xarab, o cür oğlan bununla tanış olmaq istəyir, bu isə forsundan cırılır" deyirdi. Mən isə bu sözləri qulaqardına vururdum.

Artıq Azad hər gün fakültəmizə gəlirdi. Zəng vurulanda auditoriyanın qapısında peyda olardı. Heç nə demirdi. Sadəcə dayanıb baxırdı. Baxışlarının

ağırlığını hiss edirdim. Hara gedirdimsə, qarabaqara izləyirdi məni. Amma dəxli yoxdur, yaxına buraxmırdım onu. Daha doğrusu, tək tuta bilmirdi məni. Amma günlərin bir günü xalam qızıyla gedəndə qabağımızı kəsdi:

- Niyə tanış olmaq istəmirsən mənimlə? Üç ildir göz qoyuram sənə. Xoşum gəlir səndən. Sevirəm səni.

Ömrümdə belə sözlər eşitməmişəm. Xəcalətimdən az qalırdım ki, yerə girim. Özüm də bilmədən əlimdəki çantamı digər tələbələrin gözü qabağında çırpdım Azadın başına və üzümü iki əlimlə tutub ağlaya-ağlaya qaçdım ordan. Xalam qızı da arxamca.

- Xoşbəxt, ay Xoşbəxt, məni qoyub hara qaçırsan?

- Yataqxanaya. Görmürsən nə deyir? Tərbiyəsizin biri, tərbiyəsiz. Ağlı başqa qızlara gedib deyəsən.

- Bəlkə doğurdan sevir?

- Qələt eləyir, başını daşa döyür. Sevən belə etməz. Elçi göndərər, həri alar. Biz belə görmüşük. Bunun isə ağlı başqa qızlara gedib. Yaxınlaşıb yolun ortasında ki, bəs sevirəm səni. Qələt eləyirsən sevirsən. Başıvı daşa döyürsən.

- Yaxşı, Xoşbəxt, əsəbiləşmə. Bizim kənddə nə deyirlər? Qız ağacı, qoz ağacı, hər gələn bir daş atar. Fikir vermə, vəssalam.

Ertəsi gün dərsə qorxa-qorxa gəldim. Qorxurdum ki, Azad hansısa ağacın dalından peyda olacaq. Çantamı əlimdə hazır saxlamışdım. Amma yaxşı ki, yol

boyu qabağıma çıxmadı. Auditoriyaya girdik. Birinci dərsdən sonra tənəffüsə çıxdıq. Amma Azad yox idi. İkinci dərs də belə, üçüncü də... Bütün günü gözümü mazol eləyib bitərdi qabağımda. Amma indi görünmürdü. Hirsim soyumamışdı. Məmnuniyyətlə çantamı bir dəfə də vurardım başına.

Dərsdən sonra xalaqızıyla kitabxanaya getdik. Kitab oxuya-oxuya fikrim qapıdaydı. Gözləyirdim ki, indi içəri girəcək. Mən də sifətimə acıqlı ifadə verib kitabxananı tərk edəcəyəm. Amma o görsənmirdi. Düzünü desəm, mən onu görmək belə istəmirdim. Amma özümdən asılı olmayaraq gözlərim onu axtarırdı. Yaxınlaşsaydı, əks həmlələrim də hazır idi. Ürəyimdə məşq də etmişdim. Ona layiq sözlərim də hazır idi. Amma Azad yox idi. Ertəsi gün də belə oldu. Gözə görünmədi. Axı niyə yoxa çıxmışdı? "Qorxağın biri qorxaq, çıx da qabağıma, abırını alım, büküm ətəyinə. Sən də başa düş ki, tərbiyəli qıza sataşmağın, sevirəm deməyin axırı necə olur". Bu fikirlər beynimi qarışdırırdı. Dərsdə qərar tuta bilmirdim. Tez-tez saata baxır, zəngin çalınmasını səbirsizliklə gözləyirdim ki, dəhlizə çıxım.

Ay İnkir-Minkir, Xoşbəxt ayağa durub dizləri üstündə oturdu. Əl-qol hərəkətləriylə danışmağa başladı. Otağın ala-qaranlığında işıq saçan gözləri, danışdıqca az qalırdı ki, həlqəsindən çıxsın. Məni də ovsunlayıb

həyatının o çağlarına aparmışdı. Əllərini əlimə aldım. Sanki bakirə qız kimi titrəyirdi, çırpınırdı.

Ay çoban, – deyə Xoşbəxt sözünə davam elədi, – – Azad isə görünmürdü. Artıq qızğınlığım da soyumuşdu. Ürəyimdəki kin-küdurət, nifrət də yox olmuşdu. Amma ki, o yoxa çıxmışdı. Beləcə, on gün keçdi. Artıq istəyirdim ki, tarix fakültəsinə qalxam. Bəlkə çantanı bərk vurmuşam, başı yarılıb?! Ya da ki, beyni silkələnib. Bircə üzünü görmək istəyirdim ki, ürəyim sakit olsun. Lap elədiyim hərəkətə görə üzr də istəməyə hazır idim. Amma bircə görəydim onu.

Nəhayət, günlərin bir günü pilləkənləri enərkən Azadla üz-üzə gəldim. Balaca boy oğlan da yanındaydı. O da məni gördü. Amma üzünü yana çevirib, düz keçdi. Alnında balaca çapıq vardı. Bəlkə də mənim çantamın zərbindən yaranmış çapıq idi. Bəlkə də yox. Hardan biləydim ki... Bilsəydim ki, mənim ucbatımdan olub, üzr istəyərdim. Həmin gündən Azadı az-az görürdüm. Amma mənə çəpəki də baxmırdı. Digər qızlarla durub söhbət edəndə, zarafatlaşanda özümü pis edirdim.

- Xoşbəxt, buna qısqanmaq deyirlər.

- Axı sevmirdim onu. Necə qısqana bilərdim ki? Amma deyəsən cücərtilər baş qaldırıbmış. Bir müddətdən sonra Azadın yanındakı oğlan xalam qızı Dilbərlə tənəffüs zamanı söhbətləşməyə başladılar. Əslində onların yaxınlaşmasına mane olmalıydım.

Amma Azaddan bir xəbər bilmək üçün buna göz yumurdum. Deyəsən, xalaqızının da oğlandan xoşu gəlmişdi. Hər söhbətdən sonra Dilbərin auditoriyaya qayıtmasını gözləyirdim. "Nə danışdınız?", "nə dedi?" soruşurdum. Amma özümlə bağlı bir cavab olmurdu. Artıq xalam qızı da məndən uzaqlaşırdı. Azadın dostuna yaxınlaşırdı. Demə, o da Azadın xalası oğluymuş. Adı da Elşən idi. Bir qrupda oxuyurdular. Günlərin bir günü Dilbər dedi ki, biz kinoya gedirik, sən də gəl, məni tək buraxma. Razılaşdım. Xalam qızını tək buraxmaq istəmədim. Günorta seansı olduğundan zalda adam az idi. Arxa sıralarda oturduq. Birdən yanımdakı oturacaqda kimsə əyləşdi. "Bu boyda boş zalda yer tapmadılar oturmağa?" deyə ürəyimdə donquldandım. Bu an xalam qızı qulağıma astaca pıçıldadı ki, gör yanında kim oturub? Üzümü o tərəfə çevirdim. Azad idi. Kino necə qurtardı bilmədim. Kinoteatrdan çıxanda Dilbərlə Elşən qabaqda, biz isə arxada addımlayırdıq. Hərdən bizə tərəf dönüb bic-bic gülürdülər də. Amma ciddiliyimi yenə də saxlayırdım. Azad da dinmirdi. Amma danışmağını çox istəyirdim. Günlərin bir günü istədiyim oldu.

- Xoşbəxt, mənim səndən xoşum gəlir.

Yenə üzümə ciddi görkəm verdim.

- Xoşu gələn adam deməz. Elçilərini göndərər, "həri" alar, sonra istədiyi qıza yaxınlaşar. Bizi belə öyrədiblər, biz belə görmüşük.

- Mən razı. Günü sabah elçiliyə gələrəm qapınıza.

- Necə yəni "gələrəm"?

- Xoşbəxt, başa düşürsənmi, mən səni istəyirəm. Amma atam, anam bibim qızını almaq istəyirlər mənimçün. Onlara dedim ki, bəs mənim başqa istədiyim var. Razı olmadılar. Bilirlər ki, ötkəməm. Dediyimi edəcəyəm. Ona görə də dedilər ki, get evlən. Amma bizim xeyir-duamız olmayacaq. Mənim də hər şeyim var – evim, bağım, maşınım, bankda pulum. Sərbəstəm. Əgər razı olsan özüm gələrdim qapınıza elçiliyə.

Başqa əlacım qalmadı. Razılaşdım Azadla. İyirmi bir yaşı olmasına baxmayaraq özünəgüvəni məni ona daha da bağlayırdı. İnanırdım ki, bu cür insanla mənə heç vaxt çətin olmayacaq. Vurulmuşdum Azada. Yay tətilinə çıxdıq. Dostlarıyla üç maşın doluşub gəldilər kəndimizə. Adı elçilik idi. Amma nişana bənzəyirdi. Bahalı nişan üzüyü, tortlar, şirniyyatlar, səbətlər, xonçalar, çemodanlarla pal-paltar, fransız ətirləri. Ömrümdə belə şeylər görməmişdim. Atam, anam da çaş-baş qalmışdı. Bilmirdilər ki, nə desinlər. "Həri" verilməmiş Azad üzüyü barmağıma saldı. Pərt olmuşdum. Axı qarşılığında mən üzük tədarükü görməmişdim. Amma uçmağa qanadım yox idi. Xalaqızı da uçurdu. Bilirdi ki, bu cür nişan onu da gözləyə bilər. Anamla, atamın isə üzü gülmürdü. "Ay bala, mən adam tanıyanam. Bu qudurmuş adama oxşayır. Heç "hə" deməyimi də gözləmədi. Üzüyü taxdı

barmağına" deyirdilər. Anam isə tez məni arxa otağa çağırıb soruşdu ki, birdən başıxarablıq eləmiş olaram a... Yəni ki, bakirəyəm, ya yox? Dedim ki, narahat olmayın. Qızınız sizin papağınızı yerə soxmaz.

Nə isə, tətili başa vurduq. Qayıdanda anam dönədönə tapşırdı ki, Azadla tək heç yana çıxmayım. Xalaqızı həmişə yanımda olsun.

Dərsə qayıdanda tələbə dostlarım məni tanımadılar. Onsuz da gözəl idim. Azadın aldığı paltarlar məni daha da şık göstərirdi. Fransız parfümümün ətri bütün auditoriyanı götürmüşdü. Qızlar mənə həsədlə baxırdılar. "Düz deyirlər e... qızın gərək baxtı olsun. Qismətində varıymış da..." deyirdilər. Azadla da sözləşmişdik ki, dördüncü kursun sonunda toy edək. Əvvəl rayonda qız toyu, sonra isə şəhərdə kampaniya.

Günlərin bir günü Azad məni öz bağına aparmaq istədi. Bir şərtlə razı oldum ki, xalamqızı da gəlsin. Etiraz eləmədi. Öz maşınında arxamızca yataqxanaya gəldi. Xalası oğlu da yanındaydı. Bağa girəndə ağzım açılı qaldı. Kinolarda görmüşdüm belə mənzərəni. Basseynin qırağında süfrə açılmışdı. İki nəfər bizə qulluq göstərirdi. Azadla xalası oğlu çatan kimi soyunub özlərini atdılar basseynə. O yan-bu yana üzüb çıxıb qurulandılar. Qurulanıb tez köynəklərini geyindilər. Sonra süfrəyə əyləşdilər. Qulluqçu süfrəyə nəlbəkidə duz gətirdi. Sonra da podnosda soyuqdan şehlənmiş balaca qədəhlər. Azad əvvəlcə qədəhin ağzını

duza batırdı. Sonra kəndimizin arvadları pambığa gedərkən başlarına qoyduğu panamaya bənzər qapağı olan, üstündə əndrabadi sözlər yazılan butulkanı açdı. İçindəkini qədəhə süzdü. Limondan dilimləyib qədəhin başına keçirtdi. Xalası oğluna verdi. Birini də özü üçün düzəltdi. Sonra isə sol əlini yumruqlayıb, baş və işarə barmağının pərçiminə bir çimdik duz tökdü. Xalası oğlu da belə etdi. Ofisiant da bizim badələrə meyvə şirəsi süzdü, içinə buz atdı. "Xanımların sağlığına" deyib toqquşdurdular. Əvvəlcə duzu yalayıb, içkini başlarına çəkdilər. Üstündən də limon yedilər. Nəsə maraqlı gəldi mənə. Xalam qızı isə dözmədi, soruşdu:

- O nə idi içdiyiniz?

- Tekila. Meksikanski içkidir.

- Nə qəribə adı var. Acıdır, yoxsa şirin?

- Ətirlidir. Limonla-duz da xüsusi tam verir. Ləzzətli içkidir. Adamı məst edir. İçirsinizmi? – deyə Azadın xalası oğlu soruşdu.

- Spirtli içkidir?

- Hə.

- Onda yox.

"Yox" desəm də, maraqlı gəlmişdi mənə bu içki. Araq, pivə içən görmüşdüm. Amma Azadın tekilanı xüsusi həvəslə, zövqlə, şövqlə hazırlaması mənə ləzzət eləyirdi. Mən "yox" desəm də, Dilbərin ağzının suyu axırdı. Azadla Elşən isə ikinci qədəhi də

hazırlayıb içdilər. Üçüncüdə isə Azad bizim üçün də tədarük görüb, qabağımıza qoydu.

- Biz içmirik. - deyə etiraz etdim.

- İçməyin. Kim sizə deyir ki, için. Sadəcə bizimlə toqquşdurun.

Elə də etdik. Toqquşdurduq. Amma Dilbər qədəhi əlindən yerə qoymadı. Bu an Azadın xalası oğlu öz içkisini içib qədəhini yerə qoyduqdan sonra yenidən əlinin üstünə duz tökdü. Xalam qızının dodaqlarına yaxınlaşdırdı. O da nə etsə yaxşıdır? Tekilanı başına çəkib, oğlanın əlinin üstündəki duzu yaladı, sonra da limonu yedi. Sanki böyük bir qəhrəmanlıq edibmiş kimi:

- Budur spirtli içki? Heç bunda acılıq yoxdur ki?! Boğazımı qıdıqlayıb keçdi. Xoşbəxt, sən də iç, dadlıdır.

Mən isə içmədim. Xalaqızıya mane olmaq istəsəm də gecikmişdim. İçkinin dadı mənə də maraqlıydı. Amma özümü saxlayırdım. Növbəti sağlıqların birində Azad da Elşən kimi əlinə duz töküb mənə uzatdı. Etiraz edə bilmədim. İçdim. Duzu da Azadın əlindən yaladım. Doğurdan da dadlıydı. Dilbər isə çoxdanın içəni kimi tekilanı dalbadal ötürürdü. Özü də ki, duzu öz əlindən yox, Elşənin əlindən yalamaqdan xüsusi həzz alırdı. Artıq stolları da yaxınlaşmışdı. Hər ikisinin gözləri axırdı. Hətta xalaqızı qolunu oğlanın boynuna salmışdı. Özündə deyildi. Mən də xoşbəxt idim. Uçunurdum. Şam yeməyindən sonra Azad

məni bağıyla tanış etdi. Bağda ömrümdə görmədiyim Aşqabad ofçarkası, tovuzquşu, turac, kəkliklər vardı. Hələ ayı balasını demirəm. İkimərtəbəli villanın balkonundan dəniz aydın görsənirdi. Qaranlıq düşmüşdü. Göyün üzü tərtəmiz idi. Ulduzlar sayrışırdı. Azad arxadan məni qucaqlamışdı. Uçunub gedirdim.

Ay çoban, detallara varmaq istəmirəm. Gecəni bağda qaldıq. Səhər oyananda isə iş-işdən keçmişdi. Başa düşdün? Yoxsa bunu da açıq deyim?

- Başa düşdüm.

Səhər oyanıb həyətə düşdüm. Xalaqızını axtarırdım. Qulluqçu yatdığı otağı göstərdi. Qapını açdım. Yatmışdı. Çiynini tərpətdim ki, oyadım. Durdu. Örtüyü üstündən atanda gördüm ki, lütdür. Mələfənin üstündə də qan ləkələri.

- Bu nədir?

- Qan.

- Nə qan?

- Qan da... Yəqin ki, başlayıb. Mən də xəbər tutmamışam.

- Mən də qorxdum. Elə bildim ki...

Dilbər ayağa durdu. Birdən ufuldadı. Amma əliylə qarnını tutmadı. Yenidən çarpayıya oturdu. Alnını soyuq tər basdı. Mənə baxdı. "Sən get, mən əl-üzümü yuyub gəlirəm" dedi.

Azadla xalası oğlu hovuzun ətrafında - stolda oturmuşdular. İkisi də gülürdü. Yaxşı süfrə açılmışdı.

- Xalaqızı hanı? Gəlin nahar edək. Yoxsa dərsə gecikərik.

Bu dəm Dilbər evin qapısından çıxıb bizə tərəf addımlamağa başladı. Addımları qısalmışdı, qarış-qarış gəlirdi. Sanki tumanını doldurmuş uşaq təəssüratı bağışlayırdı. Üzündən hiss edirdim ki, ağrıyır. Amma biruzə vermək istəmir. Bir təhər gəlib süfrə arxasına oturdu. Yeməyə əlini də uzatmadı.

- İçkidən sonra adam səhərlər belə olur. Buna "poxmel" deyir ruslar. Bir azdan düzələcək.

Şəhərəcən Dilbər bir söz də demədi. Oğlanlar isə deyib gülürdülər. Mən isə arxada oturub xalamqızının əllərini əlimə almışdım. Bumbuz idi. Başını çiynimə qoymuşdu. Axşamkı şadyanalığından əlamət də qalmamışdı. İndiki vaxtım olsaydı, o saat başa düşərdim. Amma avam kənd uşağıydım.

Bağdan dərsə yox, yataqxanaya getdik. Çarpayıya uzatdım. Çay gətirdim, ayağını ovuşdurdum. Zənn edirdim ki, aybaşını çətin keçirir. Ertəsi gün vəziyyəti ağırlaşdı. Tez təcili yardım çağırdıq. Xəstəxanaya apardılar. Azad da özünü çatdırdı. Həkimlərlə danışdı. Dedilər ki, "qorxulu bir şey yoxdur. Sadəcə yoğun bağırsağında çat əmələ gəlib. Tələbə adamdır, sulu yemək yemir. Nə qədər quru yemək olar. Cavan adamsınız özünüzə fikir verin". Üç-dörd gündən sonra isə xalaqızını evə buraxdılar. Rayona xəbər verməyimi də

istəmədi. Amma keyfi də açılmırdı. Dərslərindən də qalırdı. İki-üç ay belə keçdi.

Günlərin bir günü gəlib gördüm ki, qan qusur. Çarpayının da yanında sirkə turşusunun boş qabı. Təcili yardım gəlsə də kömək edə bilmədi. Xalam qızı öldü. Daha doğrusu, xalam qızı özünü zəhərləyib öldürdü. Həkimlər tez polislərə xəbər etdilər. Onlar gəlib meyiti yardırmağa apardılar. Üzərində zorlanma halı aşkar etmədilər. Bir-iki dəfə məni, rəfiqələrini dindirəndən sonra işə xitam verdilər. Mənə də çatmadı ki, bu qız özünü niyə öldürdü. Bir parça kağız da yazıb qoymamışdı. Səbəb nə idi?

Qaldım tək. Azad da yavaş-yavaş məndən soyuyurdu. Əvvəlki münasibətimiz qalmamışdı. Xalasıoğluyla da rastlaşanda ağzı qulağının dibinə gedirdi. "Tarix"in oğlanları məni görəndə hələ söz də atırdılar. Azadı tez-tez başqa qızlarla görürdüm. Mən yaxınlaşanda onları qucaqlayar, sanki mənə acıq verərdi. Mən də qısqanclığımdan partlayırdım. Qrupumuzda bir qız vardı. Yüngülxasiyyətə oxşayırdı. Onunla da cikkildəşməyə başlamışdı. Günlərin bir günü nə etsə yaxşıdır? Qızı koridorun ortasında, hamının gözü qabağında qucaqlayıb öpdü. Yaxınlaşıb hər ikisini itələdim. Dönüb nə eləsə yaxşıdır? Azad şilləni qulağımın dibinə necə vurdusa, sərələndim yerə. Mən də buna dözməyib barmağımdakı nişan üzüyünü çıxardıb, hamının gözü qabağında atdım üstünə. Dedim

yəqin ayılar. Heç vecinə də almadı. Heç nə olmamış kimi üzüyü yerdən götürüb qoydu cibinə, qızı da qoltuğuna vurub getdi. Qrup yoldaşlarım məni ayağa qaldırıb auditoriyaya apardılar. Yaman pərt olmuşdum. Amma inanırdım ki, Azad qayıdacaq. Elədiyi hərəkətə görə üzr istəyəcək. Yenə də bir yerdə olacağıq. Vədələşdiyimiz kimi, dördüncü kursun sonunda toy eləyib evlənəcəyik. Bir ay keçdi, amma Azad yaxınlaşmırdı. Əksinə, ətrafındakı dostları yaxınlaşır, onlarla restorana getmək təklifi edirdilər. Azada şikayət edəndə vecinə də almırdı. "Artıq subay adamsan. Hamının gözünün qabağında üzüyü də qaytardın. İndi məndən nə istəyirsən, axı? Ürəyin nə istəyir edə bilərsən. Mənə dəxli yoxdur." deyirdi. Vaxtımdan da keçirdi. Çoban, bunu da izah edim? Yoxsa bilirsən?

- Başa düşmədim.

- Yəni ki, Azaddan hamiləydim. Amma hamıdan gizlədirdim. İkinci ayımda bunu Azada da dedim.

- Götür pulu, get abort elə. Mənim hər gəzdiyim qızdan bir uşağım olsaydı, gərək çoxdan uşaq bağçası açaydım.

- Axı biz nişanlıydıq.

- Nə nişanlı? Bu, bir oyun idi, oynadıq qurtardıq. Düzdür nişana-zada bir az xərcim çıxdı. Amma sənin fiqurana dəyərdi. Bomba şeysən. Xalan qızı da yaman şey idi. Amma heyf ki, bakirəliyini ala bilmədim. Başqa cürə işini gördüm. Arxası da pis deyildi.

Sonra Azad cibindən nişan üzüyünü çıxarıb:

- Bilirsən nə ayağı yüngüldür bu üzüyün? Bilirsən nə qədər təmiz qızı tora salmışam bununla? Hamısı da təmizlikdən dəm vururdu. Bir söz deyəndə çantanı başıma keçirirdilər. Atalarıyla, analarıyla qorxuzurdular məni. Amma bu üzüyü barmaqlarına taxandan sonra inanırdılar. Özləri quzu balası kimi gəlib girirdilər yatağıma. Könüllü surətdə. Bakirəliklərini heç uf demədən hədiyyə verirdilər mənə. Mən də keyfimi çəkirdim, bezəndəsə atırdım. Ayrılmaqlarına isə özləri səbəb olurdular. Sənin kimi hamısı üzüyü çıxarıb çırpırdılar təpəmə. Özü də ki, hamının gözü qabağında. Sonra da peşman olurdular. Geriyəsə qapılar bağlı olurdu. Gileylənəndə də ətrafı deyirdi ki, "özü yıxılan ağlamaz. Özün-özünə elədin də..."Ona görə də dinmirdilər. Bu bədbəxtlər elə bilirdilər ki, üzük taxıldı – qurtardı. Hər şey etmək olar. Əksinə, bununla oğlanı özlərinə lap çox bağlayırlar. Uşağa qalsaydılar, toyu tezləşdirə də bilərdilər. Ölmüşdü Xankişi. O köhnə qanunlar idi. O vaxt kişilik qanunları işləyirdi. İndi isə həyatın öz qanunları var. Müasir dünyanınsa müasir kişiləri bizik. Uşağa qalmısan? Abort elə. Ərə getmək istəyirsən? Toydan bir ay, ya üç gün qabaq gəl, aparım həkimə oranı tikdirim. Nə ərin xəbər tutsun, nə yengə. Bakirəlik qanı da ki, ürəyin nə qədər istəyir. Danışmaq istəyirsən? Ağzını pulla bağlayım. Ağzını bağlamırsansa dilini kəsim. Budur müasir qanunlar. Köhnə qanunlar işləmir. Lap

ayağını bir başmağa dirə. Denən ki, almalısan məni. Problem yoxdur. Gedək ZAQS-a, qanuni nigaha girək, üç aydan sonra da boşayım səni. Qəhbəliyini rəsmiləşdirim. Buraxım başını - get. Ay Xoşbəxt, bu bəzi varlı kişiləri başa düşmürəm e... Yüz əlli qram ətə görə bakirə qıza ev alırlar, maşın alırlar, hətta toy edib başqa bir oğlanı pulun gücünə qəhbənin yanında da otuzdururlar. Gəlsin başa salım da onları. Xərclədikləri də nə olacaq ki? Bir nişan üzüyü, pal-paltar, bir də ki, duxi. Vəssalam-şüttamam. Ha-ha-ha. Üstəlik xalası qızını da, özü kimi başıboş rəfiqələrini də tora sala bilərsən. Sən isə get abort elə.

- Eləməyəcəyəm.

- Eləməyəcəksən? Eləmə! Küçədəki avaralara beş-on manat hörmət edərəm. Qarnına bir təpik vurarlar, elə küçədəcə it kimi küçükləyərsən. Bildin? Mən sənin üzünə xoş baxdım, deyəsən. Atama deyərəm nəslini yox eləyər kənddən. Mənimlə zarafat eləmə. Get abort elə!

Ay çoban, Azad cibindən bir cəngə pul çıxarıb soxdu döşlərimin arasına. İndi başa düşürəm ki, bu nə deməkdir. Pulu qəhbənin, fahişənin döşünün arasına basırlarmış. Azad demə mənə qəhbə kimi baxırmış.

Azadla aramızda olan söhbəti qorxumdan heç kimə demədim. İçimdə çəkdim. Aborta da getmədim. Ürəyimi açıb heç kimə də deyə bilmirdim. Ali məktəbi də bitirməyimə iki ayım qalırdı. Sonra kəndə

qayıtmalıydım. Qarnım da şişəcək, biabır olacaqdım. Şənbə günü avtobusa minib getdim kəndə. Evdəkilər soruşdu ki, a bala niyə tək gəlmisən, bəs Azad hanı? Dedim ki, diploma çıxıb, vaxtı olmadı. Atam evdə olmayanda sirrimi anama dedim. Əl atdı özünə, az qaldı ki, ürəyi getsin. "Atan bilsə, öldürəcək səni. Bütün kənddə biabır olacağıq. Gərək köçək gedək buralardan" dedi. Bir sözlə, yiyə durmadı mənə. Səhəri yenidən geriyə - şəhərə qayıtdım. Amma aborta getmək istəmirdim. Bəlkə Allahın verdiyi yeganə paydır deyərək. Amma Azaddan da qorxurdum. Xəbərdarlığını eləmişdi. Nə desən gözləmək olardı ondan.

Günlərin bir günü universitetin həyətində rastlaşdıq.

- Abort elədin?

- Hə. Dünən elədim.

- Mən bilirdim ki, ağıllı uşaqsan. Yoxsa yenə qanıvı axıtmalı olacaqdım. Day bezmişəm. Siz çox, mən az. Xalaoğlu da day dəng edib məni. Deyir ki, xalası qızını aldın əlimdən, ona görə də Xoşbəxti düzəltməlisən mənə. Yaxınlaşsa etiraz eləmə. Yaxşı oğlandır.

Ay çoban, bu söhbətdən sonra son ümidim də öldü. Amma yenə də abort eləməkdən boyun qaçırdım. Diplom işimi müdafiə etdim. Dövlət imtahanına hazırlaşırdım. Çoxu özümə görə yox, xalamqızına görə peşman idim. Mənim badıma getmişdi o. Bakirəliyini pozmasa da, Azad arxadan zorlamışdı onu. İndi bilmişdim ki, mənim xoşbəxtliyim naminə səsini

çıxarmayıbmış. Gücü özünə çatmışdı. Heç bir köməyim yox idi. Azad dostlarının hamısına car çəkmişdi ki, qız deyiləm. Onlar da mənə küçə qızı kimi yaxınlaşır, əlaqədə olmaq üçün pul təklif edirdilər. Amma...

Xoşbəxt sözünə ara verdi. Siqaret yandırdı. Dərindən bir-iki güllab vurdu. Gözlərində yaş gilələndi.

- Ay çoban, bilirsən nə oldu? Azad öldü.

- Öldü? Nədən?

- Demə narkoman imiş. "Peredozirovka" olub. Mən də elə bilirdim ki, yayda uzunqol köynək geyinmək, qollarını çırmalamaq dəb sayılırmış. Mənimlə yatağa girəndə də köynəyini soyunmurdu. Sadəcə yaxasını açırdı. Lap hind artisləri kimi. Demə, damarlarını gizlədirmiş. Bilirsənmi nə qədər sevinirdim? Uçmağa qanadım yox idi. Amma bir tərəfdən qəmgin idim. Gələcək uşağımın atası ölmüşdü axı? Nə vaxtsa səhvini başa düşəcəyinə, heç olmasa uşağına yiyə duracağına ümidliydim. Elşənin uşağa qalmağımdan xəbəri vardı, amma abort məsələsini bilmirdi. O öləndən sonra yaxınlaşdı mənə ki, bəs Azadın ata-anasıyla tanış etsin məni. Bilirdi ki, ismətimi qoruyub saxlamışam. Heç bir günahım yoxdur. Razı olmadım. Bircə onu xahiş elədim ki, uşaq olanacan dəstək olsun mənə. Çünki kəndə qayıda bilməyəcəkdim. Vaxt yetişəndə doğdum, bir qızım oldu. Adını atasının şərəfinə Azadə qoydum. Sonra xalaoğlu da bizi yaddan çıxartdı. Qaldım tək. Kəndə qayıtmadım. Atam da hər

şeydən xəbərdar idi. Ona görə də xəbər göndərmişdi ki, bir də geri qayıtmayım. Azaddan qalan pula bir ev kirayələdim. Xozyaykam tənha qadın idi. Otağın birini yüz dollara vermişdi mənə. Bunu da güclə tapmışdım. Heç kim əliuşaqlı anaya kirayə ev verməkistəmirdi. Aylar keçirdi, pulum isə qurtarmaq üzrəydi. Artıq evə borcum da var idi. Amma hələ ki, xozyaykanın yazığı gəlirdi. Məktəblərdən birinə müəllim düzəlmək istəyirdim. Amma boş yer yox idi. Nə edəcəyimi bilmirdim.

Xozyaykamın yanına tez-tez gələn olurdu. O da mənə bərk-bərk tapşırırdı ki, otağına gir qapını da bağla. Qonaqlar getməmiş otaqdan çıxma. Mən də belə edirdim. Amma bir gün uşağa yemək hazırlamaq üçün qaynar su lazım oldu. Mətbəxə keçib su götürdüm. Geri otağa qayıtmaq istəyirdim ki, bu an hamamın qapısı açıldı. Belinə qətvə dolamış bir kişi ordan çıxdı. Dəhliz dar olduğundan kişi yolumu bağlamışdı. Geriyə iki addım atıb, qonağa yol verdim. Keçdi. Üstündən beş dəqiqə keçmişdi ki, xozyaykam yanıma gəldi:

- Sənə demişdimmi ki, otaqdan çıxma?

- Uşağa su lazım oldu, ona görə...

- Zəhirmar, "ona görə". İndi səni istəyir. Xoşu gəlib səndən. 50 manat da pul verir.

- Mən bacarmaram.

- Necə yəni ki, "bacarmaram". Məni istəmir day, istəyirsən pul da əlimdən çıxsın. Hörmətli kliyentimdir. Olmalısan. Bir də ki, kirayə borcun var mənə. Əvəzini çıxarsan.

Ay çoban, razılaşdım. Gözümü yumub girdim kişinin yatağına. Beləcə, tərbiyəsiz yola ilk qədəmlərimi qoydum. Xoşu gəlmişdi məndən kişinin. Xozyaykama tapşırdı ki, başqa heç kimə vermə bunu. Aylığını verəcəyəm – bu mənim olmalıdır. Bir il də belə dolandım. İstədiyi vaxt gəlir, istədiyi vaxt gedirdi. Pulu da xozyaykam alırdı əlimdən. Özümə qəpik-quruş verirdi. Sonra o da yoxa çıxdı. Bezdi, daha gəlmədi. Deyəsən, məndən də yaxşısını tapmışdı. Sonra xozyaykam mənimçün yeni kliyentlər aradı. Yavaş-yavaş öyrəşirdim bu həyata. Qızım iki yaşına, mən isə 24 yaşına çatırdım. Kliyentlərin isə sayı azalırdı. Dolanmaq çətinləşirdi. Bir gün uşağı xozyaykamın yanında qoyub getdim iş axtarmağa. Hansı dükana, kafeyə girirdimsə, iş istəyirdimsə vermirdilər. Axırı güclə qabyuyan düzəldim. Səhərdən axşam on birəcən boşqab-qazan yuyurdum. Onların əlində olsaydı, lap gecə birəcən işlədərdilər. Yaxşı ki, metro gecə on ikidə bağlanırdı. Mətbəxin təmizlik işi də üstümdəydi. Günə də cəmi 10 manat pul verirdilər. Mətbəxdən ərzaq oğurlamaq da əlimdən gəlmirdi. Bir ofisiant qız işləyirdi mənimlə. Günlərin bir günü gəldi ki, bəs bezdim. Burdan gedirəm bara. Sən də istəsən gəl. Həm keyfimizi çəkərik,

həm də pul qazanarıq. Gündə iki dəfə də yemək verirlər. Ünvanını da verdi. Bir gün mən də işdən tez çıxıb getdim onun yanına. Baxım görüm bəlkə mənim üçün də bir bab iş ola. İçəri girdim. Səs-küy idi, siqaret dumanında rəfiqəmi tapdım. Çox sevindi. Oturub bir az dərdləşdik. Elə bu vaxt barda qız üstündə dava düşdü. Biri butulkayla o birinin başını yardı. Rəfiqəm dedi ki, nə qədər polis gəlməyib, qaçaq. Yoxsa şahid gedəcəyik. Elə pilləkənləri yuxarı qalxıb zirzəmidən çıxmaq istəyirdik ki, polis naryadı qabağımızı kəsib geri qaytardı. Tez təcili yardım çağırdılar. Başı yarılanı xəstəxanaya, barın böyüyünü, qızları, o cümlədən məni də onlara qatıb şöbəyə apardılar. Saldılar bir otağa. Gecə on ikinin yarısıydı. Nə qədər yalvardımsa xeyri olmadı. Başı yarılan qan itirdiyindən yolda keçinmişdi. Onu kimin öldürdüyünü qızlar bilsə də, polisə məlum deyildi. Şahid ifadələri lazım idi. Nə qədər yalvarsam da, uşağı başqasının yanında qoyub gəldiyimi desəm də məni buraxmırdılar. Deyirdilər ki, zəng elə denən ki, nigaran qalmasınlar. Mən isə qaçhaqaçda telefonumu salıb itirmişdim. Xozyaykamın nömrəsini isə əzbərdən bilmirdim. Beləcə iki gecə polis şöbəsində saxladılar. Qatil bəlli olandan sonra isə hamımızı buraxdılar.

Evə gəldim. Xozyaykam qapını açdı. Amma uşaq qabağıma qaçmadı. Düşündüm ki, yəqin yatıb. Otağa girib çarpayısını boş gördüm. Dəli kimi xozyaykanın

üstünə cumub uşağı soruşdum. Demə xozyaykam elə başa düşüb ki, mən uşağı onun üstünə atıb qaçmışam. İki gün gözləyib. Sonra da polisə zəng edib. Onlar da gəlib qızımı aparıblar sığınacağa. Ünvanı öyrəndim. Sənədlərini də götürüb gəldim ora. Qaytarmaq istəmirdilər uşağı. Dedim ki, bəs polis şöbəsindəydim – səhvən yaxalamışdılar. İki gün gecələdiyim polis şöbəsinə zəng edib sorğularına cavab aldıqdan sonra isə - "bar qəhbəsisən? Sənə uşağı qaytarmaq olmaz. Dövlətimiz himayəyə götürəcək onu. Göndəririk uşaq evinə" deyib qovdular məni. Evə qayıtdım. Xozyaykam içəri buraxmadı. Kafedəki qabyuyan yerini də tutmuşdular. Bir-iki gün ac-susuz küçələri dolaşdım. Sonra rəfiqəm işlədiyi bar təzədən yadıma düşdü. Həmin yerə gəldim. Administrator qadın da məni işə götürdü, yeməklə təmin elədi, gecə qalmağa yer verdi. Əvəzində də mən... Artıq altı ildir ki, burdayam. Ayda bir dəfə Uşaq evinə gedib qızıma dəyirəm. Üçüncü sinifdə oxuyur.

- Adminstrator qadın nədir e? Xoşbəxt, qısaca de də - Mama Roza.

- Çoban, sənin ağzını cıraram a, ona bir də belə desən. O, Mama Roza deyil. O mənim mamamdır. Doğma anam, atam məndən üz döndərəndə mənə arxa durdu, mənə yemək verdi, iş verdi. Xəstələnəndə dərman aldı, belimə banka qoydu, hərarətimi ölçdü. Mənə həm ana oldu, həm də ata, həm bacı oldu, həm

qardaş. Bircə ər ola bilmədi. Nəyi pisdir ki, o qadının. Məni əxlaqsız yolamı sürüklədi? Məni bura məcbur gətirdimi? Özüm gəldim. Həyat, özüm kimi insanlar məni vadar etdi. Mən belə istəmirdim, amma belə oldu. Mama mənim yeganə dayağımdır, ümidimdir. Son dayağımdır, son ümidimdir. Həyatın dibinə yuvarlanan bütün qadınların son mənzilidir. Mən onu çox istəyirəm. Mən onu dünyada hamıdan çox istəyirəm. O, mənim üçün dünyanın bütün qadınlarından irəlidir, anamdan da alidir. O, məni hamıdan gözəl başa düşür. Çünki o, özü də bu həyatın qurbanıdır.

Düzdür, biz özümüzü pula satırıq. İyrəncliklərlə məşğuluq. Hamı bizi tənəli baxışlarla süzür. Hamı bizə fahişə deyir. Amma heç kim başa düşmür ki, bu dünyada hərə bir yerini satır. Hərə bir yerini satır ki, nədi-nədi pul qazansın. Müəllim, həkim, alim, ziyalı beynini, müğənni səsini, idmançı fiziki qüvvəsini, pianoçu barmaqlarını, model gözəlliyini, yazıçı, jurnalist qələmini. İndi onlara da fahişəmi deyək? Əsla. Bilirsənmi nəyə görə "yox" deyirəm?!

Ay çoban, hər dəfə televizorda müsahibə verən qadınları görəndə həsəd aparıram. Onlara sual verəndə ki, onlar üçün ailə irəlidir, yoxsa sənət? Bilirsənmi nə deyirlər? Deyirlər ki, "mən hər şeydən əvvəl qadınam, anayam. Sənət ikinci dərəcəlidir mənimçün". İndi biz fahişələr də qadınıq, anayıq. Fahişəlik titulumuz deyil, sadəcə sənətimizdir. Biz bu işə yalnız qazanc

mənbəyi kimi baxırıq. Daxilimizdə tərbiyəsizlik yoxdur. Başqa bir qazanc yerimiz də yoxdur. Xaricdə bu peşə qanuni sayılır. Türkiyədə erməni Mama Roza ən böyük vergiödəyicisi kimi hamıya nümunə göstərilir. Bizdə isə cinayətdir. Hamının gördüyü, lakin görməməzliyə vurduğu, kişilərin sevdiyi, qadınların isə nifrət etdiyi cinayət.

Bu dünyada hər şey pula satılır. Torpaq, mənzil, su, qaz, işıq, yemək, paltar, təhsil, dava-dərman, daha nələr, nələr... Bu həyatda havadan başqa, elə bir şey varmı ki, havayı başa gəlsin? Hətta şəxsiyyətimizi təsdiq edən sənəd də havayı verilmir. Bunları almaq üçünsə bizə də pul lazımdır. Bizim isə satlığa çıxaracağımız bircə yerimiz var. O da...

Çoban bir anlıq düşün. Biz pisiksə, onda niyə bizi axtarırlar, yanımıza gəlirlər, evlərinə, bağlarına, saunalara, restoranlara gətizdirirlər, pul verirlər, hələ öhdəliklərində olan arvadlarına "xərcləməli" olduqları bir, iki, hətta üç fazanın hamısını ayırıb bizə "qoşurlar". Evə gedəndə də arvadlarının yanına batareyaları yatmış girirlər. Eləməsinlər də bunları. Sonda da onların hər şıltaqlığına dözən bizlərin adını fahişə qoyurlar. Çoban, bəs bizi fahişə edənlərə, bizə fahişə deyənlərə nə deyirlər?

- Kişi.

- Axır ki, başa düşdün, çoban. Yaxşı ki, sən o kişilərdən deyilsən. Sadəcə çobansan. Sadəsən, təmizsən,

safsan. Qayıt öz kəndinə, məni də apar. Mən pis qadın deyiləm. Elə bilmə ki, fahişələr pisdir. Yox, düz düşünürsən – fahişəlik pis şeydir. Həyat bizi pis edib. Bəzilərimizi müvəqqəti, bəzilərimizi əbədi. Bu zəmanədə fahişə qadın olmaq təhlükəli deyil. Allah bizi kişi qəhbələrdən qorusun.

İnkir-Minkir, Xoşbəxt bu dəm ayağa qalxdı. Qapıya tərəf gedib yumruqlarıyla dəmir qapını döyəcləyib qışqırmağa başladı:

Ey həyatın üzündəkilər, eşidirsiniz? Bu mənəm - fahişə Xoşbəxt! Məni bu günə salan pullular, sizə nifrət edirəm. Bir qəpiyə dəyməyən adlarının bədnam olmasından qorxub qızlarını evdən qovan, küçələrə, həyatın burulğanına atan, onlardan imtina edən və bundan sonra adları "məşhurlaşan" ata-analar, sizlərə də nifrət edirəm. Həyat, sənə də nifrət edirəm. Ey insanlar, hamınıza nifrət edirəm. Axı biz fahişələrdən nə istəyirsiniz? Özünüz bizi fahişəyə çevirdiyiniz halda bizi niyə qınayırsınız? Sizə axı nə etmişik? Son ümidimizdir bədənimiz. Satırıq, əcəb də eləyirik. Keyfdən satmırıq, bir qarın yeməyə satırıq. Siçovul kimi zirzəmilərə doluşub satırıq. Yüz xəstəlik tutub satırıq. Yüz kərə kişi toxumunu udub, qaytarıb - satırıq. Qadınlığımızı, ruhumuzu, gözəlliyimizi, sevgimizi itirə-itirə satırıq. İyrənə-iyrənə satırıq. Ölə-ölə satırıq.

Öz bədənini satışa çıxaran mən və mənim kimi yüzlərlə qadın fahişəyik, bunu boynumuza alırıq. Bəs

bədənlərindən başqa hər şeyi pulla ölçən, pula satan, pul gücünə alan, bizi fahişə olmağa vadar edən sizlər kimsiniz? Biz fahişəyik. Bunu gizlətmirik. Açıq-aşkar deyirik ki, "Fahişəyik!". Bəs "biz namuslu, qeyrətli ev uşağıyıq, tərbiyəli qadınıq" deyib ərlərinə, atalarına, qardaşlarına gizli-gizli, "çadranın altından", "vay, görən olar" deyərək xəyanət edənlər kimdir? Hansı yaxşıdır? Bizim kimi maskasız fahişələr, yoxsa ki, maskalı qəhbələr?

Xoşbəxt qışqırırb-qışqırıb qapının ağzındaca dizi üstə çökdü. Yaxınlaşıb ayağa qaldırdım, divanın yanına gətirib otuzdurdum. Saçını sığallamağa başladım. Əllərimi öpməyə başladı. Sonra bərk-bərk qucaqlayıb, eləcə yuxuya getdi.

İnkir-Minkir, Xoşbəxt beləcə danışıb-danışıb ürəyini boşaltdı. Bir gecə ərzində mən QHT rəhbərinə nə lazım idisə hər şeyi dedi. Artıq hesabatım beynimdə hazır idi. Hər şeyi vurub-çıxmışdım. Maarifləndirici vərəqələrdən tutmuş, sığınacaqlara, psixoloji reablitasiya mərkəzlərinə qədər.

Səhər administrator qadın gəlib qapını açdı. Xoşbəxti oyatmadım. Sağollaşmadan zirzəmidən çıxıb, qaçdım. Evə gəldim. Bir az gözümün acısını alıb, yazı masasının arxasına keçdim. İki gün ərzində gördüklərimin, eşitdiklərimin hamısını yazdım. Xoşbəxtin, Xoşbəxt kimilərin həyatını, üzləşdikləri problemləri yazdım. Mətbuatda silsilə məqalələrlə çıxış etdim.

Televiziyaların da diqqətini cəlb etmişdim. Ən populyar verilişlərə çağırırdılar məni. Mən Xoşbəxtin həyatını danışırdım. Amma ad çəkmirdim. Bu problemlərin həlli yollarını göstərirdim.

Günlərin bir günü evə qayıdanda gördüm ki, blokun ağzında üç nəfər qadın dayanıb. Yanlarından keçəndə üstümə hoppandılar. Müvazimətimi saxlaya bilməyib yıxıldım. Biri ayaqlarımın üstünə oturdu. O biri isə əllərimi tutdu. Üçüncü qadın isə sinəmə çöküb üzümü-gözümü cırmaqlamağa, saçlarımı yolmağa başladı. Onu tanıdım. Administrator qadın idi:

- Ay çoban, axı Xoşbəxt sənə neyləmişdi? Niyə onun təmizliyindən istifadə etdin? Niyə onu aldatdın? Özünü çoban kimi təqdim etdin. İçimizə girdin. Ailəmizə soxuldun. Sənin köməyinə ehtiyacımız var idimi? Nədir-nədir televizora çıxacaqdın, populyar olacaqdın, qrant qazanacaqdın, ona görəmi qıydın o qızın həyatına?

- Axı mən heç kimi öldürməmişəm?!

- Ay çoban, sən Xoşbəxtin son ümidiydin. Sənin-lə çıxıb ən ucqar kəndə getməyə də hazır idi. Sənə inanmışdı, ürəyini açmışdı, sirrimizi vermişdi. Hər gün səni gözləyirdi. Zirzəmiyə enənlərin ayaq səsləri gələndə tez qapıya qaçardı. Sən isə yoxa çıxdın. Üstəlik gedib hər şeyi faş elədin. O da səni televizorda gördü, danışdıqlarına qulaq asdı. Ona ictimaiyyətin yox, sənin kimi sadə, avam çobanın köməyi lazım idi. O

çoban da ki, artist-jurnalist çıxdı. Onu bu günə salan hamılardan biri çıxdı. Bir daha aldadıldığını anladı. Son ümidinin də puça çıxdığını görüb özünə qıydı. Özünü asdı. Ay çoban, sən fahişəliyə yox, bir fahişənin həyatına son qoydun. Barımızı da bağladılar. Qızlar da indi yiyəsiz it kimi küçələrdə sülənirlər. Adlarına da fahişə yox, "divara işəyən" deyirlər. Sakitləşdinmi? Di get rahat yaşa.

Qadınlar əlimi-ayağımı buraxdılar. Yerimdən tərpənə bilmirdim. Bir müddət gözlərini gözümə dikib dayandılar, sonra üzümə tüpürüb, əlavə bir təpik də ilişdirib getdilər. Çətinliklə olsa da ayağa durdum. Pilləkənlərlə evə qalxdım. Arvad qapını açdı. Nə baş verdiyini soruşdu. Heç nə demədim. Hamama girib üz-gözümün qanını yudum. Toz-torpağa bulaşmış paltarımı dəyişdim. Çarpayıma sərələndim. Dəhşətli ağrılarım var idi. Amma dözürdüm. Bu ağrılar özüm də bilmədən Xoşbəxtə yetirdiyim ağrıların yanında heç nəydi. Axşam ağrılarım lap artdı. Arvad tez təcili yardım çağırdı. Sonrasından isə xəbərim olmadı. Ayılanda isə sizi başımın üstündə gördüm. Bu qədər, İnkir-Minkir, mən həyat hekayətimi bitirdim. Düzdür, gördüklərim, yaşadıqlarım bundan qat-qat çoxdur. Mən ən maraqlılarını danışdım.

- Yaxşı, day bəsdir. Görürük ki, fani dünyada çox bacarıqlı, ağıllı oğlan olmusan. Arzuların da ki, ürəyində qalıb. Heç bir vəzifə də qazanmamısan. Ona

görə də sənə yaxşı iş vermək istəyirik. Səni Cəhənnəmə Tiyanbaşı təyin edirik. Əlində də bir toppuz olacaq. Gəzəcəksən özünçün. Kim tiyandan çıxmaq istəsə vuracaqsan başından, yenidən diyirlənəcək ora.

- Day toppuzu neyləyirəm ki? Qaçıb təzədən fani dünyaya qayıda bilməyəcəklər ha... Cənnət də ki, birdəfəlik bağlanıb. Sizin də ki, sorğu-sualınızın bir əhəmiyyəti yox. Hamını cəhənnəmə basırsınız. Günahı olsa da, olmasa da... Günahı çox olsa da, az olsa da... Hərdən bir mənim kimilər keçəcək əlinizə, salacaqsınız çənənizin altına. Üç-dörd gün danışdıracaqsınız, danışdıracaqsınız, xeyri də ki, yox. Sonda yenə də Cəhənnəmlik olacaqlar. Günahları olmaya-olmaya.

- Sən bilmirsən, Qanlıgün, onların günahları var. Kasıb olmaqlarıdır günahları. O dünyada da, bu dünyada da. O dünyada qapaz yeyirdilər, bu dünyada da toppuz yeməlidirlər. Gəl gedək, sənə yeni iş yerini göstərək.

İnkir-Minkir və Qanlıgün Cəhənnəmin qapısını açıb içəri girirlər. Yeni iş yerini ona təhvil verirlər. Sonra da qayıdıb otururlar yerlərində. Başlayırlar digərlərini sorğu-suala tutmağa.

Ertəsi gün bir də görürlər ki, taqqatuq səsi gəlir. Çönüb görürlər ki, Qanlıgün qapının üstündəki "Cəhənnəm" yazılan lövhəciyi çıxarır. Məəttəl qalırlar.

- Ay Qanlıgün, nə edirsən?

- Mənə təzə vəzifə vermədiniz?

- Hə.

- Mən də bu vəzifənin, bu yerlərin sahibi kimi əsaslı, struktur dəyişiklikləri etməyə qərar verdim. Birinci adını dəyişirəm. Bu gündən buranın adını qoyuram Cəncəhim. Çünki artıq ölülər üçün nə Cənnət var, nə də Cəhənnəm. Artıq hər ikisi eyni şeydir onlar üçün. Siz İnkir-Minkir də əhəmiyyətinizi itirmisiniz. Ona görə də fani dünyadakılar üçün yeni bir struktur yaratmağa qərar verdim. Adını da qoydum CƏNCƏHİM – Cənnət, Cəhənnəm sözlərinin ilk hecasını, İnkir-Minkir sözünün də baş hərflərini birləşdirdim. Alındı – CənCəhİM. Ay İnkir-Minkir, Siz də gedib dincələ bilərsiniz. Mən burdayam. Arxayın ola bilərsiniz.

- Ay Qanlıgün, bura bax, bura bax, bura sənincün fani dünya deyil a... vəzifəyə qoyan kimi qudurasınız. Bura Haqq dünyasıdır. Buranın öz qayda-qanunları var. Bu qanunlarla da oturub-durmalısan! Bildin?

- Ay İnkir-Minkir, hansı qayda-qanundan danışırsınız? Adınızı haqq qoymusunuz. Amma bu insanları aylardır ki, sorğu-sual körpüsündə saxlamısınız. Nədir bu bədbəxtlərin təqsiri? Fani dünyada salim olmaqlarımı, dinib-danışmamaqlarımı, yarıac-yarıtox, qul kimi yaşamaqlarımı. Ay İnkir-Minkir, bilirsinizmi bunlar bu vaxtacan niyə dözüblər? Ona görə ki, nəvaxtsa Cənnətə düşsünlər, keyf çəksinlər, nə edim, necə edim deməsinlər. Siz də deyirsiniz ki, Cənnətdə yer yoxdur. Varlı-hallılar isə Cənnətin qapısını

sındırıb içəri soxulurlar. Hələ ağzınızın üstünə bir yumruq da vururlar. Cınqırınızı da çıxara bilmirsiz. İnkir-Minkir olanda nə olar – siz də etiraf edin. Etiraf edin ki, Haqq dünyasının da mizan- tərəzisi pozulub. Bu ölüləri başından toppuz vurub məcbur etməsəniz, Cəhənnəmin qapısından içəri bir addım da atmayacaqlar. Beləcə burda dayanıb Cənnətin qapılarına həsrətlə tamaşa edəcəklər, ordan gələn gülüş səslərinə heyranlıqla qulaq asacaqlar, qapının arasından sızan müşki-ənbərdən ciyərlərinə çəkib oxxay deyəcəklər. Fani dünyada bahalı villalara, maşınlara, gözəl geyimli insanlara, varlılara, vəzifəlilərə necə ki, həsədlə baxmışdılar, indi də eləcə durub cənnətin qapılarına baxacaqlar. Nədir bunların təqsiri? Sadəcə ölüdürlər də. Vəssalam-şüttamam. Allah hamısının, hamımızın cəzasını verib. Ölümdən böyük cəzamı var? Olan günahlarımızı da ölümümüzlə yumuşuq. Nəyimiz var əlimizdən alıblar. Ölən kimi paltarımızı soyundurublar, qulağımızdakı sırğaları, barmağımızdakı üzükləri, boyunbağımızı, bilərziyimizi – hər şeyimizi çıxarıblar. Lüt-üryan edib göndəriblər yanınıza. Hamımız ölüyük, hamımız bərabərik, hamımız bu dünyanın övladlarıyıq. Bundan o yanası varmı?

Mənə vəzifə, əlimə də toppuz verdiniz. Amma mən bu ölüləri vurmayacağam. Çünki özüm də onlardan biriyəm. Mənim də, onların da ümidləri bu dünya idi. Ay İnkir-Minkir, heç olmasa siz onların bu

son ümidlərini qırmayın. Heç olmasa Haqq dünyasında bərabərlik yaradaq. Tablodakı adı dəyişək. Cənnəti də, Cəhənnəmi də, siz İnkir-Minkiri də bir adda, bir məkanda birləşdirək. Qoy ürəklə keçsinlər bu qapıdan. Ölməklərinə peşman olmasınlar.

Qanlıgün tablonu dəyişdirir. Qapıları taybatay açır. Qıl körpüsündə növbəyə dayanan insan seli yeni adı görüb canlanmağa başlayır. İnkir-Minkirsə yoldan çəkilir, kağız-kuğuzlarını qoltuqlarına vurub uzaqlaşırlar.

- Gəlin, gəlin, ey ölülər. Sizi yeni salınmış Cəncəhim şəhərinin meri kimi, mən Qanlıgün müəllim salamlamaqdan qürur duyuram. Xoş gəlmisiniz Haqq dünyasının yeni salınmış, komfortlu, hər cür şəraiti olan Cəncəhim şəhərinə. Məhz burda siz rahatlıq tapacaq, fani dünyada yaşadığınız, qazandığınız məşəqqətlərdən azad olacaqsınız. Siz ömrünüz boyu bu cür həyata can atmısınız. Bu cür həyatı gözünüzün qabağına gətirərək ömrü boyu sürünüb, sürünüb sonda da ölmüsünüz. İndi siz yeni Cəncəhimin övladlarısınız. Siz sanki ikinci və sonuncu dəfə dünyaya gəlmisiniz. Siz azadsınız. Siz xoşbəxtsiniz. Çünki artıq Cəncəhimlisiniz.

Qapıdan içəri girəndə sizi uzaq Ərəbistan səhrasının, Türkiyənin dəniz sahillərinin, qədim Misir Piramidalarının, Şarm əl-Şeyxin istisi vuracaq. Ömrünüz boyu divarın bu tayından həsrətlə boylandığınız Antalya, Misir, Dubay kurortlarındakı kimi bir aləmə

düşəcəksiniz. Qır tiyanlarını görəndə heç qorxmayın. Onlar tezliklə söküləcək. Yerində isti hovuzlar, türk hamamları, fin saunaları, quru, yaş parxanalar, cakuzilər tikiləcək. İfrit kisəçilər, ifritə massajistkalar sizə yüksək səviyyəli, Avropa standartlarına uyğun xidmət göstərəcəklər. Keçin bu qapıdan içəri, ürəklə keçin. Bura sizin şəhərinizdir, bura sizin doğma məskəninizdir. Gəzin, dolanın.

Burda heç nə yoxdur. Alış-veriş də yoxdur, restoran-kafe də. Çünki Cəhcəhim şəhərində pul yoxdur. Pul yoxdursa, deməli satılmalı da bir şey yoxdur. Düzgün başa düşdünüz, pul yoxdursa, deməli, həyat da yoxdur. Həyat yoxdursa, deməli, əmin ola bilərsiniz - siz əsl ölüsünüz. Çimin, çimin, hovuzlardan çıxmağa can atmayın. Kimsə çıxmaq istəsə paxıllıq edərək ayağından dartıb hovuza salmayın. O qədər çimin ki, ta günaha, kirə, çıxanacan. Əriyin, əriyin, tam əriyin. Çünki ölü seli gəlməkdə davam edir. Onlara da yer olsun. Ölülər, eşidirsiniz? Bura Cəncəhimdir e, Cəncəhim. Sizin haqq etdiyiniz Haqq dünyanız...

2009 -2014

Mahir Qabil oğlu İmamverdiyev

Cəncəhim (roman)

Bakı – 2014

Çapa imzalanıb: 04.12.2014

Sayı: 500

Ofset çap üsulu